RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 17 (9762) 26 yanvar 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Sosial-iqtisadi inkişafın Azərbaycan nümunəsi

## Bu nümunənin müəllifi Prezident İlham Əliyevdir

Dünya gərginləşməkdən qalmır. Böyük güclərin hikkəsi beynəlxalq düzəni alt-üst edib. Kimin gücü var, özünü dünyanın az qala sahibi sayır. Beynəlxalq qanunlar, ədalət, insaf ayaq altına atılıb.

Ətrafımıza nəzər salaq. Rusiya-Ukrayna müharibəsindən, qana, dağıntıya, itkiyə görə ondan geri qalmayan Yaxın Şərq münaqişəsindən elə də uzaqda deyilik. Müasir raketlərin sürəti ilə aramızdakı məsafə dəqiqə məsələsidir. Üstəlik 2020-ci ilin noyabr və 2023-cü ilin sentyabr məğlubiyyətlərindən dərs götürməyən, 30 illik işğalın şirəsi ağzında qalan Ermənistanın (məhz) silahlandırılması və Gürcüstanda seçkiləri uduzan müxalifətin sakitləşmək istəməməsi, daha doğrusu, buna təhrik olunması üzündən davam edən gərginlik...

Bütün bu qeyd etdiklərimiz fonunda Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, davam edən sosial-iqtisadi inkişaf, xüsusən işğaldan azad olunmuş ərazilərdə sürətlənən dirçəliş və yenidənqurma, hər çağırışa cavab verməyə qadir olan ordunu daha da gücləndirmək sıradan gerçəkliklər deyil. Bunun üçün xalq-iqtidar birliyi və ən əsası, güclü lider lazımdır. Azərbaycanın da bu rahatsız dünyada və çalxalanan regionda bəxti onda gətirib ki, onların hər ikisinə sahibdir, başqa sözlə, bu gün Azərbaycan adlı dövlətin sükanı arxasında xalqa güvənən Lider var. Məhz bunun sayəsində ölkəmiz üçün il ildən uğurlu gəlir, makroiqtisadi göstəricilərimiz hətta bütün müsbət proqnozları belə üstələyir. Bu baxımdan 2024-cü il də istisna olmadı.

Dövlət Statistika Komitəsi (DSK) bu günlər ötən ilin makroiqtisadi göstəricilərini açıqlayıb. Açıqlamada bildirilir ki, ötən il ölkə üzrə 126,3 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 6,2, neft-qaz sektorunda 0,3 faiz artmışdır.

DSK-nın hesabatına görə, 2024-cü ildə ÜDM-in 35,9 faizi sənaye, 10,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi tikinti, 5,7 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə, 19,9 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 12382,5 manat əlavə dəyər düşmüşdür.

İl ərzində ölkə üzrə 64,1 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2023-cü ildəkindən 1,1 faiz çoxdur. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 7,3, neft-qaz sektorunda 0,5 faiz artmışdır. Sənaye məhsullarının 64,3 faizi mədənçıxarma, 29,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir.

Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 3,6 faiz azalmış, əmtəəlik qaz hasilatı 6,2 faiz artmışdır.

→ 2




# Beynəlxalq şirkətlərin Azərbaycana marağı daha da artır

### Prezidentin Davos Forumu çərçivəsində keçirdiyi görüşlər bu prosesin sürətlənməsinə müsbət impuls verəcək

Prezident İlham Əliyev hər dəfə Davos Forumu kimi nüfuzlu platformadan istifadə edərək Azərbaycan həqiqətlərini, habelə ölkəmizin təşəbbüsü ilə həyata keçirilən mühüm regional nəqliyyat və enerji layihələrinin önəmini dünya ictimaiyyətinin diqqətinə çatdırır. Dövlət başçısı bu dəfə də forum çərçivəsində müxtəlif görüşlər keçirərək nəzərdə tutulan qlobal layihələrdən bəhs edib, həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın mühüm rolunu diqqət mərkəzində saxlayıb.

Budəfəki forumda beş əsas istiqamət üzrə müzakirələr təşkil olunub. Bu müzakirələrə inkişafın yenidən dizayn edilməsi, intellektual əsrdə sənayelər, insan kapitalına investisiya, planetin mühafizəsi və etimadın bərpası mövzuları daxildir. Forum çərçivəsində təşkil olunan sessiyalarda qlobal təhlükəsizlik, ticarət, iqtisadi artım, iş yerləri ilə, iqlim və təbiətlə bağlı fəaliyyətlər, enerji keçidi, texnoloji pozulmalar, sağlamlıq və rifah üzrə məsələlər müzakirə edilib. Tədbirin başlıca məqsədi kollektiv fəaliyyət azadlığını bərpa etmək və liderlər arasında şəffaflıq, ardıcıllıq və hesabatlılıq kimi əsas prinsipləri gücləndirməkdir.

Azərbaycanın Davosda iştirak etdiyi son tədbirdən bəri regionda vəziyyət tamamilə dəyişib, ölkəmiz yeni reallıqlar yaradıb. Azərbaycanın Vətən müharibəsində qələbəsindən, eləcə də suverenliyini tam bərpa etdikdən sonra bölgədə geniş əməkdaşlıq imkanları formalaşıb. Ölkəmizdə əlverişli investisiya mühiti yaranıb. Azad edilmiş ərazilərimizdə sərmayələrin yatırılması üçün böyük potensial var. Ona görə də əminliklə söyləmək olar ki, bu dəfə beynəlxalq şirkətlərin Azərbaycana marağı daha böyük olacaq.

→ 2

# Aİ "missiya" adı altında bölgəyə hərbi güc kimi yerləşmək niyyətindədir

### Bu məkrli plan Cənubi Qafqazda təhlükəsizliyə birbaşa zərbədir

Ötən cümə günü günorta saatlarında 4 nəfərin üzərində Avropa İttifaqının bayrağı olan 2 ədəd "Toyota Land Cruiser LX" markalı avtomobildə Ermənistanın Gorus rayonunun Xanazax yaşayış məntəqəsi istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin döyüş mövqeyinə gələrək əraziyə baxış keçirməsi müşahidə olunub.

Aİ-nin dırnaqarası missiyasının güddüyü məram heç də xoş deyil. Onsuz da Vətən müharibəsindən sonra Ermənistanın sürətlə silahlandırılmasına başçılıq edən Fransanın davranışları, Avropa İttifaqının normallaşma prosesində birmənalı olaraq İrəvanın tərəfini tutması, Avropa Parlamentinin ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirməsi və sair bu kimi məsələlər Azərbaycana münasibəti açıq göstərmişdi. Aİ-nin qondarma müşahidə missiyasının müddətinin uzadılması, hərbiləşdirilməsi isə etimada daha bir zərbədir. Bu, Aİ-nin "missiya" adı altında bölgəyə hərbi güc kimi yerləşməkdə israr etdiyini bir daha təsdiqləyir.

O da faktdır ki, Azərbaycanın siyasi iradəsindən kənarda hər hansı missiyanın regionda formalaşması Cənubi Qafqazda problemlərin nizamlanmasına töhfə vermək əvəzinə daha gərgin vəziyyətin yaranmasına səbəb olacaq. Bunun nəticəsi isə ilk növbədə sülh müqaviləsini imzalamaqdan ötrü tələb olunan şərtləri yerinə yetirməkdən yayınan Ermənistan üçün acınacaqlı olacaq. Eyni zamanda regionda lider mövqeyə malik Azərbaycanla əməkdaşlıq etmək əvəzinə bu cür qərəzli və təhlükəli siyasət həyata keçirən Aİ-yə üzv ölkələr davranışlarının nəticələrini yüz dəfə ölçüb biçməlidirlər. Çünki Azərbaycan yaxşılığa yaxşılıqla, pisliyə isə adekvat cavab verəcək.



→ 6



# Gözə kül üfürməyə ehtiyac yoxdur

### Rusiya və Ermənistanın "mehriban düşmən" maskası altında oynadıqları oyunun əsl səbəbi bəllidir

Rusiyanın xarici işlər naziri Sergey Lavrov yanvarın 21-də Moskvada erməni həmkarı Ararat Mirzoyanla danışıqlar apardıqdan sonra keçirilən mətbuat konfransında bəyan edilir ki, Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 12 milyard dolları ötüb. S.Lavrov həmçinin vurğulayıb ki, bir ayda bir milyard dollarlıq ticarət dövriyyəsinə sahib olmaq misli görünməmiş göstəricidir. O, həmçinin bildirib ki, Rusiya şirkətləri Ermənistanın dövlət büdcəsinə vergi ödəmələrinə görə ilk yerlərdədirlər və ən böyük işəgötürənlər sırasındadırlar.

→ 7

# Dünyada müstəmləkəçilik dövrü bitməlidir

### Fransanın neokolonializm siyasətinə qarşı mübarizə güclənir

Fransanın hazırkı Prezidenti Emmanuel Makron hakimiyyəti dövründə nəinki dəyişən, tərəqqi edən dövrün tələblərinə uyğun olaraq müstəmləkəçilik siyasətinin başa çatmasına səy göstərməmiş, əksinə, daha sərt addımlar atıb, qərarlar vermişdir. Ancaq rəsmi Parisin gözlədiyi nəticəni əldə edə bilmədiyi və bilməyəcəyi də göz önündədir. Emmanuel Makron hökuməti etirazçıları həbs etməklə, onlara ağır cəzalar, işgəncələr verməklə məqsədinə çatmayacaq. Görünən odur ki, həmin xalqlar Fransanın müstəmləkəçilik siyasətinə son qoyulanadək öz yollarından dönməyəcək, haqlı tələbləri yerinə yetirilənədək mübarizə aparmaqda davam edəcəklər.

Emmanuel Makron hökumətini qorxuya salan bir fakt da odur ki, Fransanın müstəmləkəsi altında olan xalqlar artıq bir-birindən uzaq, xəbərsiz mübarizə aparmırlar. Problemləri, dərdləri, faciələri eyni olan bu xalqlar birlikdə müstəmləkəçilikdən çıxış, qurtuluş yolları axtarırlar.

Ötən ilin iyulunda Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Bakıda Fransanın son koloniyalarının nümayəndələri tərəfindən yaradılan Beynəlxalq Dekolonizasiya Cəbhəsinin fəaliyyəti bu baxımdan mühüm və əhəmiyyətlidir.

Fransa müstəmləkəsi olan əraziləri özündə birləşdirən Beynəlxalq Dekolonizasiya Cəbhəsinin bu ilin ilk konqresi yanvarın 23-24-də Kanakidə (Yeni Kaledoniya) baş tutdu. İkigünlük tədbirdə Yeni Kaledoniya, Fransız Polineziyası, Martinik, Qvadelupa, Fransız Qvianası və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan parlamentarilər, siyasi partiyaların liderləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, ictimai hərəkatların başçıları və digərləri iştirak etdilər.

→ 6






# Sosial-iqtisadi inkişafın Azərbaycan nümunəsi

## Bu nümunənin müəllifi Prezident İlham Əliyevdir

**Dünya gərginləşməkdən qalmır. Böyük güclərin hikkəsi beynəlxalq düzəni alt-üst edib. Kimin gücü var, özünü dünyanın az qala sahibi sayır. Beynəlxalq qanunlar, ədalət, insaf ayaq altına atılıb.**

Ətrafımıza nəzər salaq. Rusiya-Ukrayna müharibəsindən, qana, dağıntıya, itkiyə görə ondan geri qalmayan Yaxın Şərq münaqişəsindən elə də uzaqda deyilik. Müasir raketlərin sürəti ilə aramızdakı məsafə dəqiqə məsələsidir. Üstəlik 2020-ci ilin noyabr və 2023-cü ilin sentyabr məğlubiyyətlərindən dərs götürməyən, 30 illik işğalın şirəsi ağzında qalan Ermənistanın (məhz) silahlandırılması və Gürcüstanda seçkiləri uduzan müxalifətin sakitləşmək istəməməsi, daha doğrusu, buna təhrik olunması üzündən davam edən gərginlik...

Bütün bu qeyd etdiklərimiz fonunda Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, davam edən sosial-iqtisadi inkişaf, xüsusən işğaldan azad olunmuş ərazilərdə sürətlənən dirçəliş və yenidənqurma, hər çağırışa cavab verməyə qadir olan ordunu daha da gücləndirmək sıradan gerçəkliklər deyil. Bunun üçün xalq-iqtidar birliyi və ən əsası, güclü lider lazımdır. Azərbaycanın da bu rahatsız dünyada və çalxalanan regionda bəxti onda gətirib ki, onların hər ikisinə sahibdir, başqa sözlə, bu gün Azərbaycan adlı dövlətin sükanı arxasında xalqa güvənən Lider var. Məhz bunun sayəsində ölkəmiz üçün il ildən uğurlu gəlir, makroiqtisadi göstəricilərimiz hətta bütün müsbət proqnozları belə üstələyir. Bu baxımdan 2024-cü il də istisna olmadı.

Dövlət Statistika Komitəsi (DSK) bu günlər ötən ilin makroiqtisadi göstəricilərini açıqlayıb. Açıqlamada bildirilir ki, ötən il ölkə üzrə 126,3 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 6,2, neft-qaz sektorunda 0,3 faiz artmışdır.

DSK-nın hesabatına görə, 2024-cü ildə ÜDM-in 35,9 faizi sənaye, 10,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi tikinti, 5,7 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə, 19,9 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 12382,5 manat əlavə dəyər düşmüşdür.

İl ərzində ölkə üzrə 64,1 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da 2023-cü ildəkindən 1,1 faiz çoxdur. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri neft-qaz sektorunda 7,3, neft-qaz sektorunda 0,5 faiz artmışdır. Sənaye məhsullarının 64,3 faizi mədənçıxarma, 29,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir.

Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 3,6 faiz azalmış, əmtəəlik qaz hasilatı 6,2 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsulları istehsalı 81,5, mebel istehsalı 45,9, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 44,7, hazır metal məmulatlarının istehsalı 38,9, elektrik avadanlıqlarının istehsalı 32,8, metallurgiya sənayesi məhsullarının istehsalı 27,1, ağacın emalı və ağacdan məmulatların istehsalı 25,9, geyim istehsalı 24,7, rezin və plastik kütlə məmulatlarının istehsalı 18, tikinti materiallarının istehsalı 16,9, içkilərin istehsalı 15,7, qida məhsullarının istehsalı 10,5, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 9,3, kimya sənayesi məhsullarının istehsalı 6,5, kağız və karton istehsalı 5,9, kompüter, elektron və optik məhsulların istehsalı 4,7, tütün məmulatlarının istehsalı 4,1, digər sənaye məhsullarının istehsalı 2,8, toxuculuq sənayesi mıəhsullarının istehsalı 0,9 faiz artmışdır.

Artım (2,7 faiz) həmçinin su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda qeydə alınmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda isə istehsalın həcmi 1,7 faiz azalmışdır.

Dövlət Statistika Komitəsininn açıqlamasına görə, keçən il əsas kapitala 21 milyard 435,1 milyon manat vəsait yönəldilmişdir. Neft-qaz sektoruna sərf olunmuş investisiyaların həcmi 10,2 faiz azalmış, qeyri-neft sektoruna xərclənmiş sərmayələrin həcmi isə 3,3 faiz artmışdır. İstifadə olunmuş ümumi vəsaitin 49,6 faizi məhsul istehsalı və 38,4 faizi xidmət obyektlərinin, 12 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 84,7 faizi daxili sərmayələr olan vəsaitin 72,4 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir.

Sosial sahəyə, daha dəqiq desək, yanvar-noyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə bu göstərici 2023-cü ilin eyni dövrünə nisbətən 8 faiz artaraq 996,8 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə ötən il ərzində 83,1 milyard manat olmuşdur ki, bu da 6,4 faiz artım deməkdir.

DSK-nın hesabatında həmçinin bildirilir ki, 2024-cü ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 62,2 milyard manatlıqdan çox məhsul satılmış, 12,8 milyard manatlıqdan artıq ödənişli xidmətlər göstərilmişdir. 2023-cü illə müqayisədə əmtəə dövriyyəsi 3,9, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 8,6 faiz artmışdır.

Keçən il ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 3,6 milyard manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 71,2 faizindən əhali istifadə etmişdir. İl ərzində göstərilən xidmətlərin həcmi 11,4 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 84,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: ötən il ölkə üzrə 238,8 milyon ton yük, 2 milyard nəfərdən çox sərnişin daşınmışdır ki, bu da 2023-cü ilə nisbətən yük daşınması üzrə 3,9, sərnişin daşınması üzrə 8,5 faiz çoxdur.



Sonda istehlak qiymətləri barədə: ötən il 2023-cü ilə nisbətən istehlak qiymətləri ümumilikdə 2,2, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları üzrə 1,3, qeyri-ərzaq malları üzrə 1,6, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 4 faiz bahalaşmışdır.

*"Azərbaycan"*

# Beynəlxalq şirkətlərin Azərbaycana marağı daha da artır

## Prezidentin Davos Forumu çərçivəsində keçirdiyi görüşlər bu prosesin sürətlənməsinə müsbət impuls verəcək

**"Azərbaycanın fəal iştirak etdiyi önəmli beynəlxalq platformalardan biri də ənənəvi olaraq hər il Davosda keçirilən Dünya İqtisadi Forumudur. 1974-cü ildən bu yana demək olar ki, hər il keçirilən Dünya İqtisadi Forumu bu il "Ağıllı əsr üçün əməkdaşlıq" devizi altında təşkil olunub".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. O bildirib ki, Prezident İlham Əliyev hər dəfə Davos Forumu kimi nüfuzlu platformadan istifadə edərək Azərbaycan həqiqətlərini, habelə ölkəmizin təşəbbüsü ilə həyata keçirilən mühüm regional nəqliyyat və enerji layihələrinin önəmini dünya ictimaiyyətinin diqqətinə çatdırır. Dövlət başçısı bu dəfə də forum çərçivəsində müxtəlif görüşlər keçirərək nəzərdə tutulan qlobal layihələrdən bəhs edib, həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın mühüm rolunu diqqət mərkəzində saxlayıb.

Deputat qeyd edib ki, budəfəki forumda beş əsas istiqamət üzrə müzakirələr təşkil olunub: "Bu müzakirələrə inkişafın yenidən dizayn edilməsi, intellektual əsrdə sənayelər, insan kapitalına investisiya, planetin mühafizəsi və etimadın bərpası mövzuları daxildir. Forum çərçivəsində təşkil olunan sessiyalarda qlobal təhlükəsizlik, ticarət, iqtisadi artım, iş yerləri ilə, iqlim və təbiətlə bağlı fəaliyyətlər, enerji keçidi, texnoloji pozulmalar, sağlamlıq və rifah üzrə məsələlər müzakirə edilib. Tədbirin başlıca məqsədi kollektiv fəaliyyət azadlığını bərpa etmək və liderlər arasında şəffaflıq, ardıcıllıq və hesabatlılıq kimi əsas prinsipləri gücləndirməkdir".

Forumda Azərbaycana marağın yüksək olduğunu deməyə ciddi əsaslar olduğunu deyən deputat bildirib ki, Azərbaycanın Davosda iştirak etdiyi son tədbirdən bəri regionda vəziyyət tamamilə dəyişib, ölkəmiz yeni reallıqlar yaradıb. Azərbaycanın Vətən müharibəsində qələbəsindən, eləcə də suverenliyini tam bərpa etdikdən sonra bölgədə geniş əməkdaşlıq imkanları formalaşıb. Ölkəmizdə əlverişli investisiya mühiti yaranıb. Azad edilmiş ərazilərimizdə sərmayələrin yatırılması üçün böyük potensial var. Ona görə də əminliklə söyləmək olar ki, bu dəfə beynəlxalq şirkətlərin Azərbaycana marağı daha böyük olacaq.

Deputat xatırladıb ki, Prezident İlham Əliyev Forum çərçivəsində bir sıra ölkə rəhbərləri ilə yanaşı, dünyada tanınmış bəzi şirkətlərin rəhbərləri ilə də görüşlər keçirib, əməkdaşlığa dair müzakirələr aparılıb. İqtisadi xarakter daşımasına baxmayaraq, Davos Forumu dünya siyasətinə, beynəlxalq münasibətlərə də ciddi təsirə malikdir. "Forum iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır. Qlobal iqtisadi böhranın, milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə Davos Forumu ümumdünya məsələlərinin müzakirəsində və vacib qərarların qəbulunda əlverişli platforma deməkdir. Forum dünyanın iqtisadi coğrafiyasında yeni təşəbbüskarlığa, o cümlədən, enerji-nəqliyyat layihələrinin gerçəkləşməsinə siyasi dəstəyi də ifadə edir. Bu baxımdan Azərbaycanın liderliyi ilə regionda reallaşan enerji-nəqliyyat, bərpaolunan enerji layihələri qlobal iqtisadiyyata yeni istiqamətlər vermək baxımından mühüm əhəmiyyət kəsb edir", - deyə o əlavə edib.



P.Kərimzadə vurğulayıb ki, 55-ci Davos Forumu Azərbaycan üçün olduqca məhsuldar və səmərəli keçib. Prezident İlham Əliyevin Davosda qarşı tərəflərin müraciəti əsasında Almaniya Kansleri Olaf Şolts, İsrailin Prezidenti İsxak Hersoq, Latviya Prezidenti Edqars Rinkeviçs, İraq rəhbəri Camal Rəşid, Ukrayna Prezidenti Volodimir Zelenski və digər şəxslərlə keçirdiyi görüşlərdə Azərbaycan ilə həmin ölkələr arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə geniş fikir mübadiləsi aparılıb. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onlar arasında birbaşa təmasların yaradılmasının vacibliyi qeyd olunub. Dövlət başçısının dünyanın nəhəng investisiya və maliyyə şirkətlərinin rəhbərləri ilə də görüşləri səmərəli olub. Onların sırasında "The Goldman Sachs Group İnc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüş xüsusi vurğulanmalıdır. Görüşdə Azərbaycan ilə "The Goldman Sachs Group Inc." şirkəti və digər təşkilatlar arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Bütün bunlar Azərbaycan Prezidentinin dünyada yüksək nüfuzundan xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Ukrayna və Moldova liderləri Kiyevdə Azərbaycan qazına ehtiyacdan danışıblar

**Azərbaycan kifayət qədər böyük qaz həcminə malikdir. Hansı ki, bu, Ukraynaya, Moldovaya, Slovakiyaya və digər ölkələrə də bəs edər.**

"Report"un Şərqi Avropa bürosunun məlumatına görə, bunu Ukrayna Prezidenti Volodimir Zelenski yanvarın 25-də Kiyevdə Moldova Prezidenti Maya Sandu ilə birgə keçirdiyi mətbuat konfransında bildirib.

"Bu yaxınlarda bu barədə Azərbaycan Prezidenti cənab İlham Əliyevlə də danışdıq. Ölkənin Ukrayna da daxil olmaqla, digər ölkələrə ixrac oluna biləcək böyük qaz həcmləri var. Oradan tədarük marşrutları da mövcuddur. Siyasi iradə də var. Şərqi Avropa ölkələri buna hazırdır", - deyə o vurğulayıb.

# Səfir: "Azərbaycan ötən il Bolqarıstana 2 milyard kubmetr qaz tədarük edib"

**2024-cü ildə Azərbaycanın Bolqarıstana təbii qaz tədarükü 2 milyard kubmetr təşkil edib. "Report" xəbər verir ki, bunu Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov yerli NOVA TV-yə müsahibəsində bildirib.**

O qeyd edib ki, Azəbaycan Bolqarıstandakı enerji böhranından sonra bu ölkənin tələbi ilə "mavi yanacaq" tədarükünü artırmağa başlayıb.

"Bolqarıstana qaz tədarükünü əvvəlcə 1 milyard kubmetrdən 1,2 milyard kubmetrə, daha sonra 1,5 milyard kubmetrə, ötən ilin sonunda isə 2 milyard kubmetrə çatdırdıq. Bu isə o deməkdir ki, hazırda Bolqarıstanın təbii qaza olan tələbatının böyük hissəsini ödəyirik", - deyə səfir vurğulayıb.

H.Hüseynov Azərbaycanın Avropa İttifaqının (Aİ) qazla təchizatındakı rolundan da danışıb: "Aİ bizi etibarlı tərəfdaş olaraq görür. Biz etibarlı tərəfdaş olduğumuzu təsdiqləmişik. 2022-ci ildə Azərbaycanla Aİ arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Əvvəllər Cənub Qaz Dəhlizi vasitəsilə ildə 10 milyard kubmetr qazın Avropa bazarına tədarük edilməsi nəzərdə tutulurdu, amma Avropada baş verən hadisələr nəzərə alınaraq qaz tədarüklərini artırdıq və ötən ilin sonunda 13 milyard kubmetrə çatdırdıq. Artıq 12 Avropa ölkəsinə qaz satırıq".

Diplomatın sözlərinə görə, Azərbaycan Bolqarıstanı qaz tranziti üçün çox önəmli bir ölkə kimi qəbul edir.

# Avrasiyanın "quru körpüsü" Horqos Çin-Avropa yük daşımalarının vacib nöqtəsidir

**Ötən ilin noyabrında Çin-Avropa yük qatarlarının sayı 100 minə çatdı. "Çin Dövlət Dəmir Yolu Qrupu" Çin ilə Avropa arasında həm yük qatarlarının sayının, həm də daşınan yüklərin həcminin ildən-ilə çoxaldığını açıqlayıb.**

Çin ilə Avropa arasında dəmir yolu ilə yükdaşımalara 2011-ci ildən başlanılıb. Bu istiqamətdə yüklər əsasən Şimal marşrutu ilə daşınsa da, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildikdən sonra Şərqlə Qərb arasında yüklərin daşınmasında yeni alternativlər yaranıb. Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Şimal xətti üzrə dəmir yolu xəttində yaranmış çətinliklər logistika, ixrac və idxal şirkətlərinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə - Orta dəhlizə marağını əhəmiyyətli dərəcədə artırıb. Son vaxtlar Qırmızı dənizdəki təhlükəsizlik problemləri səbəbindən isə gəmilərin Çindən Avropaya səyahət müddəti ən azı 12 gün çoxalıb, nəticədə daşıma və sığorta xərcləri iki dəfədən çox artıb. Bu kontekstdə də Orta dəhlizin əhəmiyyəti getdikcə daha qabarıq formada özünü göstərir. Hazırda Mərkəzi Asiya-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Qara dəniz və Türkiyə ərazisindən keçməklə Çindən Avropaya bir neçə marşrut üzrə multimodal yük daşımaları həyata keçirilir. Orta dəhlizlə hərəkət edən yük qatarları Çinin iki əsas sərhəd-keçid məntəqəsindən istifadə edir. Bunlardan biri Alaşankou, digəri isə Horqosdur.

Çin Xalq Respublikasının şimal-qərbində yerləşən Sincan Uyğur Muxtar Rayonu İpək yolunun önəmli halqası kimi tarixən bu ölkə ilə Mərkəzi Asiya, Avropa, Yaxın Şərq arasında ticarət mübadiləsində əvəzolunmaz rol oynayıb. Hazırda Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Rusiya, Tacikistan, Əfqanıstan və Hindistan ilə sərhəddə yerləşən Sincan bölgəsi unikal coğrafi mövqeyi sayəsində indi də Çinin Qərb istiqamətdə ticarətində mühüm paya malikdir. Avrasiyanın "quru körpüsü" adlandırılan Horqos limanını Orta dəhlizin şərq başlanğıc nöqtəsi hesab etmək olar. Çünki Çindən Avropa istiqamətində hərəkət edən yük qatarlarının və avtomobillərinin müəyyən hissəsi Horqos terminalından keçməklə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan vasitəsilə Avropaya gedir. Horqos şəhəri dünyanın ən böyük quru yük sərhəd-keçid məntəqəsinə malikdir. Urumçidən 670 km məsafədə yerləşən Horqos sərhəd-keçid məntəqəsi dinamik və irimiqyaslı ticarət üçün olduqca sərfəlidir, qısaca olaraq bura dənizdən daha tez, havadan daha ucuz marşrut kimi xarakterizə olunur. Horqos sərhəd-keçid məntəqəsi 1983-cü ildə istifadəyə verilib. 2009-cu ildən isə Çinin dəmir yolu şəbəkəsinə qoşulub. Qazaxıstan tərəfdə dəmir yolunun inşası başa çatandan sonra - 2012-ci ildən Horqos üzərindən dəmir yolu ilə yüklərin daşınmasına başlanılıb. Ötən il Horqos terminalından 8730 yük qatarı keçib ki, bu da əvvəlki illə müqayisədə 12,5 faiz çoxdur. Buradan təkcə yük qatarları deyil, həm də yük avtomobilləri, habelə sərnişinlər keçir. Horqos quru sərhəd-keçid məntəqəsində hər gün təxminən 2000 nəqliyyat vasitəsinə, 4000 sərnişinə xidmət göstərilir.

"Azərbaycan Dəmir Yolu" QSC-nin bu yaxınlarda açıqladığı məlumatda qeyd olunur ki, beynəlxalq tərəfdaşlarla aparılan davamlı və fəal danışıqlar nəticəsində Orta dəhliz vasitəsilə tranzit daşımaların həcmi və payı ildən-ilə artırılır. Ötən il bu dəhlizlə Çindən daşınan yüklərin həcmi 27 min konteyneri keçib. Bu, 2023-cü ilin göstəricilərini 25 dəfədən çox üstələyir. Davamlı tədbirlər, görüşlər və razılaşmalar sayəsində ötən il Çindən Azərbaycana 358 konteyner blok-qatarı göndərilib ki, bu da Orta dəhlizlə yükdaşıma həcminin artdığını və ölkəmizin beynəlxalq nəqliyyat sistemindəki rolunun daha da gücləndiyini göstərir. Gələn il Orta dəhliz vasitəsilə blok qatarların sayının 1000-ə çatdırılması planlaşdırılır. Blok qatarları orta hesabla Çindən Azərbaycana 8-10, Gürcüstan limanlarına isə 12 gün ərzində çatdırılır. Dünya Bankının proqnozlarına görə, Orta dəhliz üzrə daşınan yüklərin həcmi 2030-cu ilədək 10 milyon tona çatacaq.

*AZƏRTAC*



# Pakistanın Baş naziri Azərbaycanın müdafiə sənayesi nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan - Pakistan Hökumətlərarası Birgə Komissiyasının VIII iclasında iştirak etmək məqsədilə Pakistanda rəsmi səfərdə olan müdafiə sənayesi naziri, Komissiyanın həmsədri Vüqar Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, qardaş ölkənin Baş naziri Pakistan və Azərbaycan arasında yüksələn xətlə inkişaf edən uğurlu tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin getdikcə daha da dərinləşməsindən məmnunluğunu ifadə edib.

V.Mustafayev Azərbaycan və Pakistan liderlərinin məqsədyönlü siyasəti və birgə səyləri nəticəsində ölkələrimiz arasında durmadan inkişaf edən tarixi dostluq və strateji tərəfdaşlıq əlaqələrinin xalqlarımızın rifahı və tərəqqisinə önəmli töhfələr verdiyini qeyd edib.

Görüşdə Hökumətlərarası Birgə Komissiyanın fəaliyyətinin qarşılıqlı münasibətlərin daha da möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyi bildirilib, Azərbaycanın və Pakistanın çoxşaxəli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi istiqamətində işlərin uğurla aparıldığı vurğulanıb. Etibarlı tərəfdaş və qardaş ölkələrin dövlət mənafelərinin səmərəli təminatı istiqamətində qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Yaşar Güler Azərbaycan müdafiə nazirinin müavinini qəbul edib



**Türkiyənin milli müdafiə naziri Yaşar Güler Ankarada səfərdə olan Azərbaycan müdafiə nazirinin müavini, Quru Qoşunları komandanı general-polkovnik Hikmət Mirzəyevi qəbul edib.**

Milli Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, şənbə günü, yanvarın 25-də keçirilən görüşdə Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı Selçuk Bayraktaroğlu iştirak edib.

# Əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb

*Türkiyədə səfərdə olan Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyev bu ölkənin Silahlı Qüvvələrinin Baş qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.*



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Metin Gürakla görüşdə nazir müavini Azərbaycan-Türkiyə arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığımızın inkişafına göstərdiyi müsbət təsiri xüsusi qeyd edib, icra olunan birgə fəaliyyətlərin bundan sonra da genişləndiriləcəyinə əmin olduğunu bildirib.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq bildirən general-polkovnik səfər çərçivəsində keçirdiyi görüşlərlə bağlı xoş təəssüratlarını çatdırıb. Görüşdə tərəflər hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair geniş fikir mübadiləsi aparıblar.

# Türkiyə və Azərbaycanın Quru Qoşunları komandanları Suriya ilə sərhəddə olublar

Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı Selçuk Bayraktaroğlu və qardaş ölkədə səfərdə olan Azərbaycan müdafiə nazirinin müavini, Quru Qoşunları komandanı general-polkovnik Hikmət Mirzəyev Türkiyə Silahlı Qüvvələrinin 6-cı Korpus komandanlığı və Birləşmiş Xüsusi Təyinatlı Əməliyyat Qrupunun ölkənin cənubundakı Kilis vilayətində yerləşdiyi əraziyə baş çəkiblər.

Türkiyə Milli Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan nümayəndə heyəti Türkiyə ordusunun Suriya ilə sərhəddəki postlarından birində də olub.

S.Bayraktaroğlu Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələrinə Türkiyə ordusunun istifadə etdiyi silah və sistemlər barədə məlumat verib, Türkiyə Silahlı Qüvvələrinin təcrübəsindən danışıb.

Türkiyə və Azərbaycan Quru Qoşunları komandanlıqları arasında əməkdaşlığın və koordinasiyanın dərinləşdirilməsi yolları ətrafında fikir mübadiləsi aparılıb.



# İranın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb



**Yanvarın 25-də İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi Məryan Xarici İşlər Nazirliyinə çağırılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı son zamanlar hökumət dairələrinə yaxın İran mətbu orqanlarında Azərbaycan əleyhinə, ölkəmizin rəhbərliyinə qarşı açıq-aşkar şəkildə aparılan kampaniyaya etiraz bildirilib.

Xüsusilə uzun fasilədən sonra Tehranda keçirilmiş Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 16-cı iclasından və səmərəli rəsmi görüşlərdən sonra Azərbaycanın İrandakı səfirinin XİN-ə çağırılaraq əsassız şəkildə etiraz bildirilməsinin və İran mətbuatında kampaniyanın genişləndirilməsinin anlaşılmazlıq yaratdığı qeyd olunub.

Bununla yanaşı Ərdəbildə toplantı zamanı Azərbaycana qarşı səsləndirilən təhqiramiz ifadələrə görə imam cümə Seyid Həsən Amelinin üzr istəməsi əvəzinə, Amelini dəstəkləyən kampaniya aparılması, Qəzvin imam cüməsi daxil bir sıra din xadimlərinin Azərbaycan əleyhinə fəaliyyətdə iştirakının qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Bu kimi addımların iki ölkə arasında münasibətlərə zərər vurmaq məqsədi daşıdığı, bunların qarşısının alınmasının zəruri olduğu vurğulanıb.

İranın müvəqqəti işlər vəkili bəzi xoşagəlməz bəyanat və hərəkətlərdən təəssüfləndiyini bildirib, məsələni ölkəsinin səlahiyyətli orqanlarına çatdıracağına söz verib.

# *Müdafiə Nazirliyi:* "Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı davam edir"

Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, plana uyğun olaraq, hərbi vəzifəlilərin nizam-intizamını və mənəvi-psixoloji vəziyyətini artırmaq məqsədilə ictimai-siyasi hazırlıq məşğələləri keçirilib. Məşğələlər tibb hazırlığı üzrə şəxsi heyətin maarifləndirilməsi və fəaliyyətlər zamanı ilkin tibbi yardımın düzgün və vaxtında göstərilməsi üçün praktiki məşqlərin yerinə yetirilməsi ilə davam edib. Sonra təlimə cəlb olunan heyətlə atəş hazırlığı məşğələləri keçirilərək, onlara atıcı silahların və əl qumbaraatanlarının taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları öyrədilib və praktiki atış çalışmaları icra edilib.

Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışının əsas məqsədi ehtiyatdan çağırılanların bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi, praktiki vərdişlərinin təkmilləşdirilməsi sayəsində döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasıdır.

# Azərbaycan Ordusunun hərbçilərinin təlim-metodiki toplanışı təşkil olunub

Müdafiə Nazirliyinin illik hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun qoşun (qüvvə) növlərinin, birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə şöbə (bölmə) rəisləri, şöbə və bölmələrin psixoloqları, eləcə də kadr işləri üzrə məsul şəxslərin iştirakı ilə təlim-metodiki toplanışı keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbirdə Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov çıxış edərək Azərbaycan Ordusunda kadrların idarə edilməsi, ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi istiqamətində ötən il ərzində görülmüş işlər, həmçinin cari ildə qarşıda duran əsas tapşırıqlar haqqında danışıb.

Daha sonra çıxış edən Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov Azərbaycan Ordusunda hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məqsədilə qarşıya qoyulan tapşırıqların həlli istiqamətində görülən işlərdən geniş söhbət açıb, ideoloji iş və mənəvi-psixoloji təminat tədbirlərinin effektivliyinin artırılması ilə bağlı Müdafiə Nazirliyi rəhbər heyətinin lazımi tövsiyə və tələblərini çatdırıb.

Toplantıda zabitlər ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi, kadr hazırlığı və komplektləşdirmə istiqamətində görülən işlərə dair məruzələrlə çıxış ediblər. Sonda toplanış iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, xidməti məsələlərin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# *Dövlət Departamenti:* "Marko Rubio və Hakan Fidan Azərbaycanla Ermənistan arasında sülh prosesini müzakirə ediblər"

**ABŞ Dövlət katibi Marko Rubio və Türkiyə xarici işlər naziri Hakan Fidan Azərbaycanla Ermənistan arasında sülh prosesini müzakirə ediblər.**



AZƏRTAC-ın məlumatına görə, bu barədə ABŞ Dövlət Departamenti yaydığı məlumatda deyilir. Bildirilir ki, telefon danışığı zamanı tərəflər Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün vacibliyini vurğulayıblar.

Hakan Fidan və Marko Rubio, həmçinin ABŞ-Türkiyə münasibətləri, Suriya məsələsi, Türkiyənin NATO müttəfiqi kimi rolu və digər məsələlər barədə də danışıblar.

# Serbska Respublikasının Prezidenti Azərbaycanın biznes dairələrini daha geniş əməkdaşlığa dəvət edib




**Azərbaycan ilə Bosniya və Herseqovina arasında əməkdaşlığa dair müzakirələr aparılıb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev bu ölkədə iki inzibati vahiddən biri olan Serbska Respublikasının Prezidenti Milorad Dodikin dəvəti ilə Banya-Luka şəhərinə səfər edib. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü, hazırda sədrlik səlahiyyətlərini yerinə yetirən xanım Jelka Tsviyanoviçin iştirakı ilə Vilayət Quliyevlə geniş tərkibdə görüş keçirilib.**

Görüşdə Bosniya və Herseqovina, xüsusən də Serbska Respublikası ilə Azərbaycan arasında siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələsi müzakirə olunub. Azərbaycan Prezidenti İlham Əliyevlə ötən ilin oktyabrında Kazanda keçirilən BRICS Sammiti çərçivəsində görüşdüyünü xatırladan Milorad Dodik ölkəmizin son illərdə qazandığı uğurların, beynəlxalq miqyasda artan nüfuzunun və rolunun, eləcə də böyük uğurla keçirilən COP29 sammitinin Serbska Respublikasında məmnunluqla qarşılandığını vurğulayıb. Azərbaycanla əlaqələrin inkişafına xüsusi diqqət yetirildiyini deyən Milorad Dodik ölkəmizin iş adamlarını və biznes dairələrini daha geniş əməkdaşlığa dəvət edib.

O, Serbska Respublikasının bütün səviyyələrdə müzakirələrə açıq olduğunu və Azərbaycan biznesi üçün sərfəli şərait yaratmaq niyyətini ifadə edib. Nümunə kimi regionda uğurla fəaliyyət göstərən "AzVirt" şirkətinin təcrübəsini misal gətirib. Enerji sektoru ilə bir sırada turizm, tikinti, kənd təsərrüfatı, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlıq üçün kifayət qədər geniş imkanlar olduğunu bildirərək ölkələrimiz arasındakı qarşılıqlı inam və etimad mühitinin uğur qazanmaq üçün möhkəm zəmin yaratdığını bildirib.

COP29 sammiti günlərində işğaldan azad olunan Qarabağa, eləcə də tarixi Şuşa şəhərinə səfər etdiyini xatırladan Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç Azərbaycanın son illərdə keçdiyi inkişaf yolunun postsosialist ölkələri, xüsusən də oxşar münaqişələrlə üzləşən Bosniya və Herseqovina üçün ibrətamiz örnək olduğunu bildirib. Xanım Jelka Tsviyanoviç Prezident İlham Əliyevin Qərbi Balkan regionuna diqqətinin, xüsusən də 2023-cü ilin aprelində Sarayevoya səfəri çərçivəsində imzalanmış Azərbaycan-Bosniya və Herseqovina strateji tərəfdaşlıq sazişinin bütün sahələrdə əməkdaşlıq üçün mühümlüyünü vurğulayıb.

Gündəliyə çıxarılan məsələlərə münasibət bildirən səfir Vilayət Quliyev onların həqiqətən də mühüm əhəmiyyət daşıdığını, hər iki tərəfin maraqlarına cavab verdiyini qeyd edərək ölkəmizin bütün səviyyələrdə dialoqa açıq olduğunu bildirib. Serbska Respublikasının, bütünlükdə Bosniya və Herseqovina tərəfinin xoş niyyətlərini və təkliflərini rəsmi Bakının diqqətinə çatdıracağını bildirib.

Görüş zamanı Cənubi Qafqaz regionu, eləcə də beynəlxalq miqyasda cərəyan edən proses və hadisələr ətrafında da geniş fikir mübadiləsi aparılıb.



# 29 yanvar bələdiyyə seçkiləri günüdür

## 16 min nəfərdən artıq namizəd mübarizə aparacaq

### Bələdiyyə seçkiləri Azərbaycanın demokratik dəyərlərə sadiqliyini bir daha nümayiş etdirəcək





**Bələdiyyə seçkilərinə sayılı günlər qalıb. Yanvarın 29-da keçiriləcək seçki indiyə qədər Azərbaycanda təşkil olunan sayca 6-cı bələdiyyə seçkiləri kimi tarixə düşəcək.**



#### Mütərəqqi və şəffaf seçki sistemi

Ümumiyyətlə, seçkilər hər bir ölkənin həyatında mühüm siyasi hadisə hesab olunur. Bütün demokratik cəmiyyətlərdə seçkilər dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların ən kütləvi iştirak forması hesab edilir. Xalqın iradəsinin ifadəsinə çevrilən seçkilərin demokratik, şəffaf, azad keçirilməsi ölkədəki ictimai-siyasi sabitlikdən, demokratik təsisatlara üstünlük verilməsindən, seçki sisteminin təkmilləşdirilməsindən, ilk növbədə normal seçki keçirilməsinə əsaslı şərait yaradılmasından asılıdır.

Demokratiya yolu ilə inkişaf edən respublikamızda da mütərəqqi və şəffaf seçki sistemi formalaşıb. Azərbaycanda 1993-cü ildən bəri keçirilən bütün seçkilər respublikamızın demokratik dəyərlərə sadiqliyinin göstəricisi kimi tarixə düşüb. Hər bir prezident və parlament seçkisi, o cümlədən referendumlar vətəndaşların öz iradələrinin sərbəst ifadəsinə, demokratik dəyərlərə sadiqliklərinin təcəssümünə çevrilib. Azərbaycan seçkilər zamanı şəffaflığın təmin edilməsi üçün həm də müasir texnologiyaları tətbiq edən dövlətlərdəndir. Bu baxımdan hər seçkidən-seçkiyə ölkəmizdə seçki təcrübəsi daha da güclənib.

#### Ölkəmizdə bələdiyyə institutu tam formalaşıb

Bələdiyyə seçkiləri də xalqın iradəsinin ifadəsinə çevrilməklə ölkəmizdə demokratiya yolunun inkişafını nümayiş etdirib. Qeyd etdiyimiz kimi, qarşıdan artıq 6-cı bələdiyyə seçkiləri gəlir. Xatırladaq ki, respublikamızda ilk dəfə 1999-cu il dekabr ayında keçirilmiş seçkilər ölkəmizin həyatında çox mühüm hadisə olmaqla, demokratlk dövlət quruculuğunda mühüm rol oynayıb.

Ötən dövrdə yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilib, institusional təsisatlar yaradılıb, bələdiyyə institutu tam olaraq formalaşıb. Habelə bələdiyyə institutunun inkişaf etdirilməsi məqsədilə mükəmməl qanunvericilik bazası formalaşdırılıb, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılıb.

#### Seçicilərin 29 min 172 nəfəri ilk dəfə səs verəcək vətəndaşlardır

Qarşıdan gələn bələdiyyə seçkiləri 118 seçki dairəsi üzrə 685 bələdiyyəyə keçiriləcək. Bu seçkidə 16 mindən çox namizəd mübarizə aparacaq. Onlar 23 siyasi partiyanın üzvləridir. Seçkiqabağı təbliğat isə yanvarın 6-dan başlayıb və qanunvericiliklə müəyyən olunmuş qaydada davam edir. Namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün 3730-u açıq, 2182-si qapalı olmaqla, ümumilikdə 5912 yer müəyyən edilib.

Seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün Mərkəzi Seçki Komissiyasında və dairə seçki komissiyalarında ümumilikdə 70 mindən çox yerli müşahidəçi akkreditasiyadan keçib. 1000 seçki məntəqəsində səsvermənin gedişini kameralarla izləmək mümkün olacaq.

Seçici siyahıları da tam dəqiqləşib. Onu da qeyd edək ki, bələdiyyə seçkilərində ölkə üzrə qeydə alınan seçicilərin 29 min 172 nəfəri ilk dəfə səs verəcək vətəndaşlardır. Onlardan 153 nəfərin yanvarın 29-da 18 yaşı tamam olur və seçici hüquqları yaranır. Bu münasibətlə həmin şəxslər Mərkəzi Seçki Komissiyası tərəfindən təbrik olunacaqlar.

Bütövlükdə bələdiyyə seçkiləri kampaniyası seçki qanunvericiliyinə və "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə Tədbirlərin Təqvim Planı"na uyğun davam edir. Bu seçki bir daha Azərbaycanın demokratik dəyərlərə sadiqliyinin təsdiqi olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Neftçala seçkilərə hazırdır





**Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq işləri Neftçala rayonunda tam başa çatıb. Bu barədə 70 saylı Neftçala dairə seçki komissiyasının sədri Ülvi Nəhmədzadə məlumat verib. O deyib ki, dairənin əhatə etdiyi ərazidə 48 seçki məntəqəsi var. Həmin məntəqələrdəki seçicilərin sayı 51 min 478 nəfərdir.**

Seçkilərə hazırlığın ilkin mərhələsində MSK-nın tərtib etdiyi Təqvim Planına əsasən, seçicilərin siyahısı dəqiqləşdirilərək məntəqələrdəki xüsusi lövhələrdən asılmışdır. Bu siyahılar həm də hər bir seçicinin hansı məntəqədə səs verməsini bildirir: "Çalışmışıq, Təqvim Planında nəzərdə tutulan bütün tədbirləri vaxtında yerinə yetirək. Deyə bilərəm ki, seçkilərin şəffaf, demokratik keçməsinə nail olacağıq. 5 məntəqədə veb-kamera quraşdırılıb. Seçkilərin gedişini izləmək üçün 600 nəfərdən çox müşahidəçi qeydə alınıb", - deyə DSK sədri bildirdi.

Dairə üzrə 7 bələdiyyəyə 169 namizəd qeydə alınıb. Onların 81 nəfəri YAP, 1 nəfəri Vətəndaş Həmrəyliyi, 1 nəfəri də Ümid partiyaları tərəfindən irəli sürülüb. Qalan 86 nəfər isə öz təşəbbüsləri ilə seçkiyə qatılıb.

Dairə sədrinin sözlərinə görə, seçki günü 2 seçicinin 18 yaşı tamam olacaq. 2 nəfər seçicinin isə yaşı 100-dən yuxarıdır. Onlar Həsənabad qəsəbə sakini İbrahim Əhmədov və Şirvanlı kənd sakini Sura Axundovadır. Seçkilərin qanunauyğun, yəni müvafiq təlimatlara əsaslanmaqla keçirilməsini təmin etmək üçün məntəqə üzvləri üçün treninqlər keçirildiyini deyən Ü.Nəhmədzadə artıq seçki bülletenlərinin MSK-dan gətirildiyini qeyd etdi.

3 saylı seçki məntəqəsi Neftçala şəhərindəki Mədəniyyət və İncəsənət Mərkəzində yerləşir. Məntəqə seçki komissiyasının sədri Cahangir Abdullayev bizi məntəqə üzvləri ilə tanış etdi. Hamısı gənclərdir. Öhdələrinə düşən işi səylə yerinə yetirirlər. İstəyirlər ki, seçkilər yüksək vətəndaş fəallığı şəraitində keçsin. Bunun üçün hər bir küçəyə, dalana, evə, mənzilə baş çəkir, bildirişləri çatdırırlar. Onların fəallığı nəticəsində bu iş vaxtında yekunlaşmışdır.

Söhbət zamanı C.Abdullayev bildirdi ki, məntəqə üzrə 1461 nəfər seçici qeydə alınıb. İlk dəfə səsverənlər 10 nəfər olacaq. Xəstə seçicilərə gəldikdə isə onlar 19 nəfərdir. Seçki günü məntəqə üzvlərindən bir nəfər müşahidəçi ilə birlikdə onların evlərində səs vermələrini təmin edəcəklər. Məntəqədə veb-kamera quraşdırılmış, müşahidəçilər və media nümayəndələri üçün xüsusi yerlər ayrılmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## YAP-ın bələdiyyə seçkilərinə namizədləri ilə görüşlər keçirilib











Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şahbuz rayonunun Şahbuz bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib. YAP Şahbuz rayon təşkilatının sədri Rizvan Məmmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası hər zaman öz fəaliyyətində xalqa xidmət prinsipini əsas götürüb. "Bu səbəbdən partiyamız davamlı uğurlara və böyük qələbələrə imza atıb. Bələdiyyə seçkilərində də xalqın seçiminin Yeni Azərbaycan Partiyası olacağına şübhə yoxdur", - deyə R.Məmmədov vurğulayıb.

Bələdiyyə üzvlüyünə namizədlər Kəramət Abbaslı, Aysu Hacıyeva, Yenibar Hüseynov, Səmra Məmmədli, Əvəz Mürşüdov, Elcan Müzəffərli, Ofelya Piriyeva, İlham Qəhrəmanov, Bəxtiyar Tarverdiyev, Yenibar Vəliyev seçiciləri yeni uğurlar əldə etmək üçün Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

Seçicilər Aynur Hüseynova, Günay Əliyeva, Heydər Cəbiyev və digərləri bələdiyyə seçkilərində partiyanın namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

❖ ❖ ❖

Bərdə rayonunun Xəsili və Bərdə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib. YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər ölkəmizə tarixi nailiyyətlər qazandırıb. "Sosial-iqtisadi və siyasi islahatların uğurlu nəticəsi olaraq dövlətimizin nüfuzu artıb, insanların rifahı daha da yüksəlib. Vətəndaşlar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub" deyən rayon təşkilatının sədri seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasına etimad göstərməyə dəvət edib.

Seçki qərargahının üzvü Elməddin Əsgərxanov, bələdiyyə üzvlüyünə namizədlər Akif Əhmədov, Rəfail Bəylərov, Saleh Kərimov, İlqar Səlimov, Ruslan Əhmədov və İftixar Zeynalov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək partiyanın bundan sonra da xalqımızın qarşısında dayanan vəzifələrin yerinə yetirilməsinə layiqli töhfələr verəcəyinə əminliklərini ifadə ediblər.

Seçicilər Mirzəli Rzayev, Vaqif Şərəfxanov, Kəmalə Rəfibəyli, Sakit Əhmədov və başqaları çıxış edərək YAP-ın namizədlərini dəstəklədiklərini bildiriblər.

❖ ❖ ❖

Bakı şəhəri Pirallahı rayonunun Pirallahı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib. YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov qeyd edib ki, bu gün qüdrətli Azərbaycan dövləti Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla inkişaf edir. "Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir. Azərbaycan Prezidenti məqsədyönlü siyasəti ilə ölkənin iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsini təmin edir. Hazırkı reallıqlar Heydər Əliyev yolunun Azərbaycanın yüksəlişinin əsasını təşkil etdiyini bir daha təsdiqləyir" deyən E.Abasov əlavə edib ki, ölkəmizə tarixi uğurlar qazandıran, xalqın inam və etimadını doğruldan, yeni və müstəqil Azərbaycan quruculuğunu təmin edən Yeni Azərbaycan Partiyası da milli hədəflərin gerçəkləşdirilməsinə dəyərli töhfələrini verir.

Seçki qərargahının üzvləri Fəranə Gözəlova, təşviqat qrupunun üzvü Arzu Cahangirova, bələdiyyə üzvlüyünə namizədlər Əli Kərimov, Möhübət Məhərrəmov YAP-ın qələbələr partiyası olduğunu və növbəti bələdiyyə seçkilərinin də xalqın Zəfər partiyasına sarsılmaz inamını əks etdirəcəyini vurğulayıblar. "Xalqın dəstəyi ilə yeni hədəflərin gerçəkləşdirilməsi növbəti uğurlara yol açacaq", - deyə vurğulanıb.

❖ ❖ ❖

Tovuz rayonunun Aşağı Öysüzlü və Aşağı Quşçu bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib. YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov bildirib ki, ardıcıl müvəffəqiyyətlər qazanan müasir Azərbaycanın inkişafı davamlı, dinamik və hərtərəfli xarakter alıb: "Mövcud reallıqlar əminlik yaradır ki, Azərbaycan dövləti Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yeni möhtəşəm uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq".

Seçki qərargahının üzvü İlqar Kərimov, bələdiyyə üzvlüyünə namizədlər Hikmət Zeynalov və Aygün Tağıyeva ölkəmizdə bütün sahələr üzrə inkişafın təmin edildiyini, Azərbaycanın dünyada söz və nüfuz sahibinə çevrildiyini diqqətə çatdırıblar. "Azərbaycan uğurlu siyasəti ilə hər bir hədəfə zamanında nail olur", - deyə vurğulanıb. YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verən natiqləri seçiciləri partiyanın namizədlərini dəstəkləməyə çağırıblar.

❖ ❖ ❖

Şəmkir rayonunun Şəmkir, Çaparlı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin ilk dəfə səs verəcək gənclərlə görüşü keçirilib. Görüşdə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev qeyd edib ki, bələdiyyə seçkilərində gənclərin fəal olması olduqca vacibdir. Ölkə rəhbərliyinin hər zaman gənc nəslin inkişafına, təhsilin yüksəlişinə diqqət və qayğısını xüsusi vurğulayan natiq gənclərin də dövlətimizin inkişafında iştirakının mütləq olduğunu qeyd edib.

Görüşdə təşviqat qrupunun üzvləri Qoşqar Əliyev, Zamir Güvəndiyev və bələdiyyə üzvlüyünə namizədlər seçkinin vacib məsələ olduğunu vurğulayıb, yanvarın 29-da bütün gəncləri seçkidə iştirak etməyə və layiqli namizədlərə səs verməyə dəvət ediblər.

Seçicilər də öz növbələrində bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# İqtisadiyyat və sosial həyat

## MDB-də 1-ci, dünyada 27-ci

### Son 20 il ölkəmizdə 20, 7 min km yeni yol tikilib, yenidən qurulub və təmir edilib

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyası bu gün dövlət başçısı İlham Əliyevin böyük siyasi iradə, əzm və qətiyyəti hesabına davamlı iqtisadi tərəqqi, xalqın rifahının yüksəldilməsi, müasir dünyada mövcud olan siyasi-iqtisadi vəziyyət, qlobal maraqlar sistemi nəzərə alınmaqla inamla həyata keçirilir.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bildirir ki, ölkəmizdə ötən 20 ilin ən böyük inkişaf göstəricilərindən və mühüm nailiyyətlərimizdən biri modern və ən qabaqcıl standartlara cavab verən kompleks yol-nəqliyyat infastrukturunun formalaşdırılmasıdır.

Bu dövr Azərbaycanda yol-nəqliyyat kompleksinin mühüm əsas tərkib hissəsi kimi avtomobil yollarında da Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə böyük dəyişikliklər baş vermişdir. Bu illər ərzində yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində aparılan uğurlu islahatlar nəticəsində Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB dövlətləri arasında 1-ci, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşmağa müvəffəq olmuşdur.

Dövlət başçısının müvafiq sərəncamları ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2004-2024-cü illər ərzində ölkədə 6593,7 km respublika, 11643,6 km yerli əhəmiyyətli, 2529,8 km Bakı şəhər yolları olmaqla 20 767,1 km uzunluğunda yeni yollar tikilmiş, yenidən qurulmuş və təmir edilmişdir.

Dövlət başçısının imzaladığı sərəncamlara uyğun olaraq, yol-nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində aparılan kompleks tədbirlər nəticəsində həm ölkə əhəmiyyətli, həm də şəhər, rayon, qəsəbə və kənddaxili yollar müasir səviyyədə yenidən qurulmuşdur. Sözsüz ki, bu da öz növbəsində rahat gediş-gəlişi təmin etmək, yük və sərnişin daşınmasını asanlaşdırmaqla vətəndaşların həyat şəraitini daha da yaxşılaşdırmışdır.



## "Məşğulluğa Dəstək Layihəsi"nə cəlb olunan şəxslərə bizneslərini genişləndirmək üçün daha bir imkan

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" iştirakçılarına biznes mükafatlarının təqdim edilməsi məqsədilə növbəti "Həvəsləndirmə mükafatları" müsabiqəsinə start verilib.**

Məqsəd layihə çərçivəsində 2020-2024-cü illərdə avadanlıqlarla təmin edilərək istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini qurmuş şəxslərə öz bizneslərini genişləndirmək üçün dəstəyin göstərilməsidir. Tələb olunan meyarlara cavab verən benefisiarlara Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən biznes-planın hazırlanmasında dəstək göstəriləcək.

Biznes-planını müdafiə edərək qalib gələn şəxslərə fəaliyyətlərini genişləndirmək üçün əlavə avadanlıqlar veriləcək.

**Ötən ilin uğurlu yekunları**

## 18,5 milyon tondan çox yük, 8,5 milyon sərnişin




### Bunlar ADY-nin keçənilki fəaliyyətinin əsas göstəriciləridir

**Azərbaycanın Şərqdən Qərbə və Şimaldan Cənuba gedən ticarət yollarının kəsişməsində yerləşməsi tranzit daşımaların multimodal strukturunu, yəni dəmir yolu, avtomobil, dəniz və hava yolları nəqliyyatı vasitəsilə həyata keçirilməsini zəruri edir. Məhz həmin zərurətdən doğan uzunmüddətli strateji addımlar artıq öz bəhrəsini verir.**

Tranzit daşımaların əsas "onurğa sütunu" olan dəmir yolları ilə daşımaların həcmi keçən il əhəmiyyətli dərəcədə artıb. İl ərzində Azərbaycan Dəmir Yolları (ADY) tərəfindən tranzit, idxal, ixrac və daxili rejimlərdə 18,5 milyon tondan çox yük daşınıb. 2023-cü illə müqayisədə 2024-cü ilin analoji dövründə daşınmış tranzit yüklərin həcmi 5,7 faiz artaraq 7,3 milyon, idxal yükləri isə 10 faiz artaraq 5,2 milyon ton olub.

Məlumdur ki, tranzit yüklərin Gürcüstan limanlarına paralel olaraq Türkiyə üzərindən Avropaya və açıq dənizlərə daşınmasını təmin etmək üçün Bakı-Tbilisi-Qars (BTQ) dəmiryol xətti inşa edilib. Orta dəhlizin əsas komponentlərindən biri olan BTQ-nin imkanlarının genişləndirilməsi məqsədilə 2023-cü ilin may ayından dəmir yolunun Gürcüstan hissəsində aparılmış modernləşdirmə işləri 2024-cü ilin mayında tamamlanıb və illik yükaşırma həcmi 1 milyon tondan 5 milyon tona çatıb.

Ötən il həmçinin Çindən Azərbaycana 358 konteyner blok-qatarı göndərilib ki, bu da Orta dəhlizlə yükdaşıma həcminin artdığını və Azərbaycanın beynəlxalq nəqliyyat sistemindəki rolunun daha da gücləndiyini göstərir. Əsas tranzit istiqaməti olan "Şərq-Qərb" marşrutu üzrə il ərzində 3,2 milyon tondan çox yük daşınıb. Orta dəhlizin təkcə "Şərq-Qərb" marşrutu kimi yox, həm də nəqliyyat arteriyası kimi inkişafını dəstəkləmək üçün 2024-cü ilin noyabr ayında Bakıdan dəmir yolu ilə ilk ixrac yükü Çinə göndərilib.

ADY "Şimal-Cənub" dəhlizi üzrə artan yükaşırma həcmlərini daha sürətli və effektiv həyata keçirmək üçün 2024-cü ildə Azərbaycan ərazisindəki Astara yük terminalının bərpa işlərini başa çatdırıb. Sentyabr ayında Asiya İnkişaf Bankı ilə "Şimal-Cənub" dəhlizinin bir hissəsi olan Sumqayıt-Yalama xəttinin modernləşdirilməsi üçün 131,5 milyon dollar məbləğində kredit sazişi imzalanıb.

Ötən il ADY-nin sərnişinlərə göstərdiyi yüksəkkeyfiyyətli xidmət də qeyd olunmalıdır. Həmin xidmətin əsasını təbii ki, komfortlu sərnişin vaqonları təşkil edir. Söhbət "Stadler" markalı müasir dizel və elektrik qatarları, eləcə də "Alstom" istehsalı olan lokomotivlərdən gedir. Abşeron dairəvi dəmir yolu, həmçinin Bakı-Balakən xətləri boyunca stansiya, vağzal və dayanacaqlar əsaslı təmir olunub. Bütün bunlar vətəndaşların rahat və təhlükəsiz nəqliyyat xidmətinə olan ehtiyacını qarşılamaqda mühüm rol oynayıb, onların dəmir yollarına inam və etibarını artırıb. Nəticədə ADY 2024-cü ildə 8,5 milyon sərnişinə səyahət xidmətləri təqdim edərək yeni rekorda imza atıb.

2024-cü ildə xidmət həcminin artmasının əsas səbəblərindən biri də yeni alınmış qatarların xəttə buraxılması, Ləki və Ucar kimi yeni dayanacaqların istifadəyə verilməsi və ümumilikdə müştəri məmnuniyyətinin yüksəldilməsidir. ADY-nin sərnişindaşıma strategiyasına uyğun olaraq, Bakı-Ağstafa-Bakı marşrutu üzrə reyslərin sayı həmin qatarların istismara verilməsi ilə 2-dən 4-ə çatdırılıb. Sərnişinlərə modern xidmətin bir növü də yolboyu sürətli və maneəsiz internetdən istifadədir. ADY ötən ilin sentyabr ayından Bakı, Sabunçu, Sumqayıt, Gəncə, Qəbələ vağzallarında, Koroğlu, Bakıxanov, Pirşağı, Ağstafa stansiya və dayanacaqlarında, Bakı-Ağstafa-Bakı, Bakı-Qəbələ-Bakı və Bakı-Balakən-Bakı marşrutları ilə hərəkət edən qatarlarda pulsuz Wi-Fi xidməti göstərir.

Sirr deyil ki, bu gün Azərbaycanda əldə edilən uğur zəncirinin bir halqası rəqəmsallaşmadır. Müasir innovativ yeniliklər, necə deyərlər, ADY-nin də "əlindən tutaraq" əməliyyat səmərəliliyinin və ölkə ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə tranzit həcmlərinin artırılmasına xidmət edir. ADY son illər beynəlxalq dəhlizlər üzrə dəmiryol nəqliyyatı infrastrukturunun rəqəmsallaşdırılması istiqamətində fəaliyyətini artırıb, onlayn tarif kalkulyatoru və "ADY Smart" platforması ilə yük sahibləri üçün səmərəli, sürətli və "bir pəncərə" sisteminə əsaslanan xidmətlər paketi təqdim edib. Bu nəqliyyatın rəqəmsallaşma səyləri 2024-cü ilin oktyabr ayında Asiya İnkişaf Bankı tərəfindən maliyyə dəstəyi alıb. Bank Azərbaycanda dəmir yolu sisteminin rəqəmsallaşdırılmasına, ölkənin dəmiryol şəbəkələrinin təhlükəsizliyinin, etibarlılığının və səmərəliliyinin artırılmasına dəstək məqsədilə 47 milyon dollarlıq krediti təsdiqləyib.

ADY ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) sahələrini əhatə edən fəaliyyət proqramını iki il əvvəl təkmilləşdirib. Ötən il isə ilk olaraq "Azərbaycan Dəmir Yolları" QSC-nin ətraf mühit, sosial və idarəçilik sahəsində dayanıqlı nailiyyətlərinə dair hesabatı təqdim edilib. "Yaşıl enerji"ni təşviq etmək və karbon qazı tullantılarını azaltmaq məqsədilə Yeni Biləcəri və Yeni Gəncə lokomotiv depolarının yenilənməsi zamanı ətraf binaların enerji təminatı üçün dam örtüyündə 650-dən çox günəş paneli quraşdırılıb.

2030-cu il Strategiya sənədinə əsasən, ADY əməliyyatların səmərəliliyi, kommersiya imkanlarının artırılması, rəqəmsallaşma və təhlükəsizlik kimi məsələlərin həlli istiqamətində işini qarşıdakı illərdə də davam etdirəcək.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## DİF-in "4Sİ Mərkəzləri Şəbəkəsinin Təsir Hesabatı" dərc olunub

**Davos Forumu çərçivəsində dərc olunan Dünya İqtisadi Forumunun "Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin 2023-2024-cü illər Təsir Hesabatı"nda şəbəkəyə üzv olan mərkəzlərin süni intellekt, enerji keçidi, biotexnologiya və rəqəmsal iqtisadiyyat üzrə fəaliyyəti qiymətləndirilib.**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) fəaliyyəti sənəddə xüsusi qeyd edilib. Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarovun və 4SİM-in icraçı direktoru Fariz Cəfərovun 4SİM-in təşəbbüslərə dair fikirlərinə yer verilib.

Hesabatda 4SİM-in DİF-in Enerji və Materiallar Mərkəzi ilə birgə həyata keçirdiyi "Enerjidə süni intellekt həlləri" layihəsi çərçivəsində enerji sahəsində süni intellektin tətbiqi üzrə qlobal həll konsepsiyaları hazırlandığı bildirilib. Bu istiqamətdə yerli ekspertlərlə sorğular keçirilərək 40 həll konsepti hazırlanıb.

Qeyd edək ki, artıq bu həll konseptlərinə uyğun olaraq Azərbaycanda pilot layihənin icrasına başlanıb. Pilot layihə "ağıllı sensor"lar və prediktiv süni intellektin tətbiqi ilə elektrik enerjisinə qənaət olunmasını nəzərdə tutur.

Sənəddə həmçinin bildirilir ki, 4SİM və DİF-in İnvestisiya Siyasəti və Təcrübə Platforması birgə "Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiyaların cəlbi" adlı layihə həyata keçiriblər. Layihənin nəticələri əsasında bu istiqamətdə tövsiyələr hazırlanıb və rəqəmsal iqtisadiyyat sahəsində gələcək inkişaf istiqamətləri müəyyən edilib:




- Yerli startaplar və KOB-ların inkişafına dəstək, investisiyaya əlçatanlıq;
- Müəssisələrin rəqəmsallaşmasına dəstək;
- İnvestech alətlərinin (investisiya kalkulyatoru) inkişaf etdirilməsi.

Sənəddə qeyd olunur ki, ötən il Azərbaycanda 4SİM-in tərəfdaşlığı ilə keçirilən InMerge İnnovasiya Sammiti 5000-dən çox iştirakçı, 50-dən çox beynəlxalq investor və 150 startapı bir araya gətirərək ölkənin innovasiya ekosisteminin inkişafına töhfə verib.

Qeyd edək ki, 4SİM Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb. 4SİM DİF-in mövcud olan 21 mərkəzindən biridir.

## "Gələcək üçün..."

### BP və tərəfdaşları istedadlı gənclərə dəstək olurlar

**"Gələcək üçün bacarıqlar" layihəsi innovasiya, texnologiya, rəqəmsallıq və sahibkarlığın əlçatan olmasına bir dəstəkdir. Bu layihəni həm də cəsarətlə ölkəmizin startap ekosisteminə töhfə adlandırmaq olar.**

Söhbət Azərbaycanda ən iri neft, qaz və ixrac layihələrinin operatoru olan BP şirkətinin "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - SOCAR, TPAO, LUKOIL, SGC, NICO, MOL, INPEX, "ExxonMobil", ITOCHU, ONGCVidesh, "Eni", MVM və "TotalEnergies" adından dəstəklədiyi növbəti sosial proqramdan gedir. Sonuncu mərhələsi uğurla başa çatan bu təhsil layihəsi Azərbaycanda startap mühitinin yaxşılaşdırılması və innovasiya ekosisteminin genişləndirilməsinə yönəlib. 2023-cü ildən başlanan layihə ümumilikdə ölkə ərazisində uğurlu startap ideyalarını potensial investorlarla əlaqələndirmək məqsədli "TUSİ" inkubasiya proqramı kimi tanınan startap təhsili təşəbbüsünün effektivliyinin artırılması fəaliyyətlərinə dəstək vermək üçün nəzərdə tutulmuşdu.

Layihə üzrə iş həcminə startap təşəbbüslərinin, inkubasiya proseslərinin və investisiyadan əvvəl ümumi hazırlıq işlərinin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş təlim, mentorluq və digər fəaliyyətlərdən ibarət inkubasiya proqramı daxil idi. Bu, çoxsaylı ərizəçilər arasından seçilmiş təxminən 10 komanda üçün 6 aylıq bir proqramı əhatə edirdi. Proqrama rəhbərliyi Türkiyədən "Bilişim Vadisi" startap mentorluq şirkətinin təcrübəli mentor və ekspertləri həyata keçirirdilər. Proqram həmçinin 8 iştirakçı komandanın layihələrinin təfərrüatlı təqdimatlarından ibarət onlayn televiziya proqramından ibarət idi. Potensial investorların bu proqramlara çıxışı müxtəlif vasitələr və kanallar üzərindən təmin edilib.



Bakıda bu inkubasiya proqramının uğurla başa çatmasını qeyd etmək və 10 iştirakçı komandanın ideya və layihələri ilə təqdimatlar və sərgi stendləri vasitəsilə yaxından tanış olmaq üçün tədbir keçirilib.

Tədbirdə çıxış edən BP-nin Xəzər regionunda vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu layihə BP və tərəfdaşlarının ölkənin inkişaf etməkdə olan startap mühiti və innovasiya ekosisteminin dəstəklənməsinə yönəlmiş səylərinin uğurlu davamıdır. Çox məmnunuq ki, inkubasiya təliminin davam etdiyi altı ay ərzində iştirakçılar Türkiyədə təşkil olunmuş "iFest" beynəlxalq innovasiya və texnologiya festivalına qatılmaq fürsəti əldə ediblər və orada komandalardan biri nüfuzlu Qlobal Çempion Mükafatı qazanıb. Bundan əlavə, proqramın daha bir iştirakçısı perspektivli startaplarla potensial investorlar arasında əməkdaşlığı təşviq etməklə milli innovasiya ekosisteminin inkişaf etdirilməsi üçün əsas platforma rolunu oynayan beynəlxalq "İnvest Forum" tədbirində birinci yeri tutub. Ümid edirik ki, bu uğurlar 10 komandanın hər birinin həm ölkə ərazisində, həm də beynəlxalq miqyasda gələcək innovativ sahibkarlıq fəaliyyətinin başlanğıcında olduğunu nümayiş etdirir".

Layihə yerli təhsil təşkilatı olan "İnnovasiyalar Mərkəzi" MMC tərəfindən həyata keçirilib. Altı ay davam etmiş layihənin ümumi dəyəri 91min manatdan artıq olub.

Xatırladaq ki, BP şirkəti Azərbaycanda 30 ildən çoxdur neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır və bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Şirkət bu vaxtadək öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə təxminən 85 milyard dollar sərmayə qoyub.

BP eləcə də Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürüb. Onun ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirib.

Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə təqribən 111 milyon dollardan çox vəsait xərcləyib.

Onu da əlavə edək ki, ölkəmizdə BP şirkətində təxminən 2401 Azərbaycan vətəndaşı çalışır və bu da şirkətin ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

*Flora SADIQLI, "Azərbaycan"*

## Əmək müqavilələrinin sayı 1,8 milyonu ötüb

**2024-cü il ərzində ölkəmizdə əmək müqavilələrinin sayı 64 min və ya 4 faiz artaraq 1 milyon 873 minə çatıb.**

Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artıma imkan yaradıb.

Ötən il əməkhaqqı fondunda daha 9 faiz artım qeydə alınıb.

## Aİ ölkələrinə 16,8 milyard dollarlıq məhsul ixrac edilib

**Ötən il Azərbaycanın Avropa İttifaqı (Aİ) ölkələri ilə ticarət dövriyyəsinin dəyəri 19,6 milyard ABŞ dolları olub.**

"Trend"in Dövlət Gömrük Komitəsindən əldə etdiyi məlumata görə, bu, 2023-cü ildəki göstəricilərlə müqayisədə 21,1 faiz azdır.

İl ərzində Azərbaycandan Aİ ölkələrinə 16,8 milyard dollarlıq ixrac, 2,8 milyard dollarlıq idxal əməliyyatları həyata keçirilib. Hesabat dövründə Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 63,31, ümumi idxalında payı isə 13,20 faiz təşkil edib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Aİ "missiya" adı altında bölgəyə hərbi güc kimi yerləşmək niyyətindədir

### Bu məkrli plan Cənubi Qafqazda təhlükəsizliyə birbaşa zərbədir

**II Qarabağ müharibəsində kapitulyasiya aktına imza atan Ermənistan hazırda Azərbaycanla sülhə yox, revanşa hazırlaşır. İşğalçı və təcavüzkar ölkə Azərbaycana qarşı ərazi iddiaları əks olunan konstitusiyasını dəyişmək, ATƏT-in keçmiş Minsk qrupunun de-yure ləğvi üçün ölkəmizlə birgə müraciət etmək əvəzinə silahlanmağa, üçüncü ölkələrin hərbi güclərini sərhədimizə yerləşdirməyə başlayıb. Avropa İttifaqının (Aİ) qondarma müşahidə missiyasının müddətinin uzadılması, hərbiləşdirilməsi planları da Cənubi Qafqazda müharibə niyyətlərinin gerçəkləşdirilməsinə xidmət edir.**



#### Çirkin məqsəd

Xatırladaq ki, 2025-ci il yanvarın 10-da Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın mətbuat xidməti Brüsselin Aİ-nin Ermənistandakı missiyasının müddətini uzatmaq niyyətində olduğunu açıqlayıb. Bununla bağlı mediada gedən məlumatlara görə, yanvarın 27-də kəşfiyyat missiyasının mandatının daha iki il müddətinə uzadılacağı gözlənilir. Eyni zamanda Brüssel bu missiyanın hərbiləşdirilməsini planlaşdırıb. Caliber.az saytının əldə etdiyi məlumata əsasən, missiyanın mandatının genişləndirilməsi yalnız kəşfiyyat xarakterli deyil, tamhüquqlu hərbi nümayəndəliyə çevrilməsinə səbəb ola biləcək yeni elementləri əhatə edəcək. Bu hərbi bölmələrin Ermənistan-Türkiyə və Ermənistan-İran sərhədləri boyunca yerləşdirilməsi planlaşdırılır.

Məqsəd Ermənistandan plasdarm kimi istifadə etməklə bölgədə Aİ-nin hərbi amil olaraq mövcudluğuna şərait yaratmaqdır. Ancaq Ermənistanla sərhəd xətləri hələ tam müəyyənləşdirilməmiş Azərbaycan Aİ missiyasının müddətinin ölkəmizlə razılaşdırılmadan uzadılmasına, onun hərbiləşdirilməsinə qarşıdır və buna sərt münasibətini göstərib. Bakı ilk gündən bu missiyanın varlığına heç bir lüzum olmadığını qətiyyətlə bildirib.

Təkcə ötən il Ermənistan ilə Azərbaycan arasında normallaşma istiqamətində baş verən müsbət irəliləyişlərə nəzər salmaqla görərik ki, belə məsələdə üçüncü tərəflərin iştirakına ehtiyac yoxdur. Məsələn, iki ölkə rəsmilərinin bir neçə dəfə kənar vasitəçilər olmadan dialoqlar həyata keçirməsi, eyni zamanda sərhədlərin delimitasiya və demarkasiya işlərinə start verilməsi, Qazaxın dörd kəndinin azad edilməsi, 17 maddə və preambuladan ibarət sülh müqaviləsi layihəsinin 10-dan çox maddəsinin razılaşdırılması, sərhəd dirəklərinin quraşdırılması və sair buna əyani misaldır.

Lakin hadisələrin bu istiqamətdə inkişafı müstəmləkəçi Fransanın yönləndirməsi ilə hərəkət edən Aİ-nin maraqlarına uyğun gəlmir. Ona görə də Qərb kəşfiyyat missiyasının bölgədə varlığını sürdürməsi üçün əlindən gələni edir və bu vasitə ilə gərginlik yaratmağa çalışır.

Xatırladaq ki, 2022-ci ilin dekabrından əslində qısa müddətlik zaman ərzində fəaliyyət üçün işə başlayan bu missiya Azərbaycanın razılığı olmadan hazırda da fəaliyyətini davam etdirir. Ötən müddətdə bu missiya sülhə töhfə vermək əvəzinə ona mane olmaqdan başqa bir iş görməyib.

#### Hər şeyə adekvat cavab veriləcək

Missiyanın fəaliyyətinə dördəlli razılıq verən və vaxtının uzadılmasına tərəfdar çıxan İrəvan bununla elə hesab edirdi ki, Aİ-nin bu missiyasının çətiri altında Azərbaycana qarşı istədiyi təxribat və təcavüzkarlıqları edə biləcək. Amma törətdiyi təxribatlara qarşı hər dəfə aldığı adekvat cavablarla bu niyyətinin puç olduğunu gördü. Ötən müddətdə Aİ-nin kəşfiyyat missiyasının üzvləri vaxtaşırı Ermənistanla sərhədimizə gəlib, Azərbaycana tərəf durbinlə baxmaqla məşğul olub. Yəni Qərb "binokl diplomatiyası"nı işə salıb. Caliber.az saytının məlumatında bildirilir ki, missiyanın mövcud kəşfiyyat infrastrukturu (yalnız binokllar deyil, həm də Azərbaycan istiqamətinə baxmaq üçün istifadə olunan kameralar) ilə yanaşı, müvafiq avadanlıqlar və xüsusi texnikanın, o cümlədən hərbi nəqliyyat vasitələrinin tətbiqi də nəzərdə tutulur. Həmçinin avromissiya üzvlərinə silah daşımağa da icazə veriləcək.

Qeyd edək ki, ötən cümə günü günorta saatlarında 4 nəfərin üzərində Avropa İttifaqının bayrağı olan 2 ədəd "Toyota Land Cruiser LX" markalı avtomobildə Ermənistanın Gorus rayonunun Xanazax yaşayış məntəqəsi istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin döyüş mövqeyinə gələrək əraziyə baxış keçirməsi müşahidə olunub.

Bu fakt da açıq göstərir ki, Aİ-nin dırnaqarası missiyasının güddüyü məram heç də xoş deyil. Onsuz da Vətən müharibəsindən sonra Ermənistanın sürətlə silahlandırılmasına başçılıq edən Fransanın davranışları, Avropa İttifaqının normallaşma prosesində birmənalı olaraq İrəvanın tərəfini tutması, Avropa Parlamentinin ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirməsi və sair bu kimi məsələlər Azərbaycana münasibəti açıq göstərmişdi. Aİ-nin qondarma müşahidə missiyasının müddətinin uzadılması, hərbiləşdirilməsi isə etimada daha bir zərbədir. Bu, Aİ-nin "missiya" adı altında bölgəyə hərbi güc kimi yerləşməkdə israr etdiyini bir daha təsdiqləyir.

O da faktdır ki, Azərbaycanın siyasi iradəsindən kənarda hər hansı missiyanın regionda formalaşması Cənubi Qafqazda problemlərin nizamlanmasına töhfə vermək əvəzinə daha gərgin vəziyyətin yaranmasına səbəb olacaq. Bunun nəticəsi isə ilk növbədə sülh müqaviləsini imzalamaqdan ötrü tələb olunan şərtləri yerinə yetirməkdən yayınan Ermənistan üçün acınacaqlı olacaq. Eyni zamanda regionda lider mövqeyə malik Azərbaycanla əməkdaşlıq etmək əvəzinə bu cür qərəzli və təhlükəli siyasət həyata keçirən Aİ-yə üzv ölkələr davranışlarının nəticələrini yüz dəfə ölçüb biçməlidirlər. Çünki Azərbaycan yaxşılığa yaxşılıqla, pisliyə isə adekvat cavab verəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Dünyada müstəmləkəçilik dövrü bitməlidir

### Fransanın neokolonializm siyasətinə qarşı mübarizə güclənir

**Bütün dünyada müstəmləkəçilik dövrü bitməlidir. Bunu əsrlərdir ki, Fransanın müstəmləkəsi altında əzilən, işgəncələrə, qətliamlara, soyqırımlarına məruz qalan xalqlar tələb edir. Onların istədikləri yalnız ədalətdir.**





Fransanın müstəmləkəçilik siyasətindən cana doymuş Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis, Futuna, Korsika, Reyunyon, Qvadelupa, Martinik, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomeyun əhalisi öz vətənində azad yaşamaq istəyir. Beynəlxalq hüquq da bunu tələb edir.

Doğrudur, mübarizə hər zaman olub. Lakin yüz illərdir ki, Fransanın işğalına məruz qalan ölkələrin xalqları müstəmləkəçilikdən qurtulmaq üçün indi daha böyük əzmlə, qətiyyətlə mübarizə aparırlar. Tələb edirlər ki, başqa xalqlar kimi, onların da öz müqəddəratını təyin etmək hüququ tanınsın. Ölkələri zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik olduğu halda acınacaqlı vəziyyətdə, yoxsulluq şəraitdə yaşamasınlar. Öz idarəçilik sistemlərini qurmaq, milli sərvətlərini idarə etmək hüququna malik olsunlar.

Ana dilində danışmağın, yazmağın qadağan olunması xalqa verilən ən böyük cəzalardan biridir. Rəsmi Paris müstəmləkəsi altında yaşamağa, təbəəliyini qəbul etməyə məcbur etdikləri xalqlara bu zülmü də edir. Onları milli kimliklərindən, adət-ənənələrindən, dilindən, dinindən uzaqlaşdırmağa çalışır.

Acınacaqlıdır ki, Fransanın hazırkı Prezidenti Emmanuel Makron hakimiyyəti dövründə nəinki dəyişən, tərəqqi edən dövrün tələblərinə uyğun olaraq müstəmləkəçilik siyasətinin başa çatmasına səy göstərməmiş, əksinə, daha sərt addımlar atıb, qərarlar vermişdir. Ancaq rəsmi Parisin gözlədiyi nəticəni əldə edə bilmədiyi və bilməyəcəyi də göz önündədir. Emmanuel Makron hökuməti etirazçıları həbs etməklə, onlara ağır cəzalar, işgəncələr verməklə məqsədinə çatmayacaq. Görünən odur ki, həmin xalqlar Fransanın müstəmləkəçilik siyasətinə son qoyulanadək öz yollarından dönməyəcək, haqlı tələbləri yerinə yetirilənədək mübarizə aparmaqda davam edəcəklər.

Emmanuel Makron hökumətini qorxuya salan bir fakt da odur ki, Fransanın müstəmləkəsi altında olan xalqlar artıq bir-birindən uzaq, xəbərsiz mübarizə aparmırlar. Problemləri, dərdləri, faciələri eyni olan bu xalqlar birlikdə müstəmləkəçilikdən çıxış, qurtuluş yolları axtarırlar.

Ötən ilin iyulunda Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Bakıda Fransanın son koloniyalarının nümayəndələri tərəfindən yaradılan Beynəlxalq Dekolonizasiya Cəbhəsinin fəaliyyəti bu baxımdan mühüm və əhəmiyyətlidir.

Fransa müstəmləkəsi olan əraziləri özündə birləşdirən Beynəlxalq Dekolonizasiya Cəbhəsinin bu ilin ilk konqresi yanvarın 23-24-də Kanakidə (Yeni Kaledoniya) baş tutdu. İkigünlük tədbirdə Yeni Kaledoniya, Fransız Polineziyası, Martinik, Qvadelupa, Fransız Qvianası və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan parlamentarilər, siyasi partiyaların liderləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, ictimai hərəkatların başçıları və digərləri iştirak etdilər.

Yeni Kaledoniyanın Adət-Ənənə Senatını, Yeni Kaledoniyanın müstəqilliyi uğrunda mübarizə aparan əsas siyasi qüvvə - Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) iqamətgahını və yeni kaledoniyalı siyasi məhbuslara dəstək kollektivini ziyarət edən konqres iştirakçıları müzakirələr aparıblar.

Qeyd edək ki, Fransa müstəmləkələrinin azadlıq uğrunda ədalətli mübarizəsinə dəstəyini davam etdirən Bakı Təşəbbüs Qrupunun (BTQ) nümayəndəsinə viza verilməməsi səbəbindən təşkilat sözügedən konqresdə iştirak edə bilmədi.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Beynəlxalq Dekolonizasiya Cəbhəsinin qurultayına videomüraciət edib. O, çıxışında qurultayın Kanakidə keçirilməsinin simvolik əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Bakı Təşəbbüs Qrupunun icraçı direktoru ötən ildə bütün dünyanın Kanakidə baş verən faciəvi və ədalətsiz hadisələrin şahidi olduğunu qeyd edib. Bildirib ki, Fransa hakimiyyəti Kanak xalqının dinc etirazlarını zorakılıqla yatırmış və bu qəddar basqılar, o cümlədən 13 günahsız insanın həyatını itirməsi və 200-dən çox insanın yaralanması müstəmləkəçiliyin aradan qaldırılması məsələsində dünya ictimaiyyətinin təcili müdaxiləsinə və həmrəyliyinə ehtiyacın olduğunu bir daha göstərmişdir.

"Mən fəxrlə xatırlatmaq istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti zatialiləri cənab İlham Əliyev Kanak xalqına qarşı törədilmiş cinayətləri açıq şəkildə pisləmiş və müstəmləkə altında olan regionlara dəstəyini ifadə etmişdir. Bundan əlavə, Bakı Təşəbbüs Qrupu tərəfindən dərhal beynəlxalq təşkilatların rəhbərlərinə məktublar ünvanlamış və Kanak xalqına qarşı törədilən vəhşilikləri dünya ictimaiyyətinə çatdırmışdır. Birgə səylərimiz nəticəsində dünya ictimaiyyəti qısa müddət ərzində bu vəhşiliklərdən xəbərdar olmuşdur" - Bakı Təşəbbüs Qrupunun icraçı direktoru deyib.

Müstəmləkəçilikdən əziyyət çəkən regionlarda baş verən hər bir hadisənin kütləvi insan haqları pozuntuları ilə müşayiət olunduğunu vurğulayan Abbas Abbasov bildirib ki, sistemli təzyiqləri aradan qaldırmaq və ədaləti bərpa etmək üçün beynəlxalq töhfələrə ehtiyac var. O, qeyd edib ki, azadlığa nail olmaq o qədər də asan deyil və fədakarlıq tələb edir: "Bakı Təşəbbüs Qrupunun Beynəlxalq Dekolonizasiya Cəbhəsinin yaradılması və sonrakı fəaliyyətə göstərdiyi dəstəyi vurğulamaqdan böyük qürur duyuram. Bu cəbhə həmrəyliyin gücünü nümayiş etdirən bir nümunə, eləcə də dialoq, fəaliyyət və birgə missiyamızın gücləndirilməsi üçün platformadır. Bugünkü konqres müstəmləkəçiliyin nəticələrini, neokolonializmə qarşı mübarizəni, qlobal çağırışları və əlbəttə ki, mümkün həll yollarını müzakirə etmək üçün qiymətli bir fürsətdir. Əminəm ki, bu tədbirdəki müzakirələr müstəmləkəçiliyə qarşı mübarizədə birgə səylərin səfərbər olunmasına töhfə verəcəkdir".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycan tutduğu düzgün yolla uğurla addımlayır

### Bəzi Qərb dövlətləri isə məkrli gedişləri ilə özlərini ifşa edirlər



**İqtisadi gücü, qüdrəti artdıqca, beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı genişləndirdikcə Azərbaycan dünyanın nüfuzlu dövləti, regionun lider ölkəsi kimi tanınır. Bütün bu amillər Prezident İlham Əliyevin dünyada həmişə yüksək olmuş nüfuzunu daha da yüksəldir. Aparılan uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, böyük sərmayə gətirən beynəlxalq əhəmiyyətli layihələr ölkəmizin iştirakı olmadan regionda həyata keçirilmir.**

Uzun illər ərzində qurub yaratdığı, daim gücləndirdiyi, ən müasir silahlarla təchiz etdiyi ordusu ilə ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycan Cənubi Qafqazda yeni reallıqlar yaratdı. Ölkəmiz qüdrətini göstərərək, sözün həqiqi mənasında tarixin gedişini dəyişdi. Bütün bunlar xalqımıza böyük sevinc və başucalığı gətirdi. Bir milyondan çox məcburi köçkünün doğma ocaqlarına qayıtması üçün tarixi şərait yarandı. Amma təəssüflər olsun ki, xalqımızın qazandığı bu uğurları həzm etməyən bəzi ölkələr Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirdilər. Belə ki, Qərbin təsir dairəsində olan bəzi beynəlxalq təşkilatlar da ölkəmizə qarşı xoş olmayan münasibət göstərməyə başladılar. Hansı ki, ölkəmiz BMT Nizamnaməsinə uyğun torpaqlarından işğalçını, Ermənistan silahlı qüvvələrini çıxarmış, ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Buna görə Azərbaycana yalnız və yalnız təşəkkür etmək lazım idi. Amma təəssüflər olsun ki, ölkəmiz qərəzli mövqe ilə üzləşdi. Fransa başda olmaqla, erməni lobbisinin təsiri altında olan qüvvələr, beynəlxalq təşkilatlar Azərbaycana qarşı mənasız və reallıqdan uzaq olan bəyanatlar qəbul etməklə iç üzlərini açdılar.

Qəribə idi ki, otuz il Azərbaycan torpaqlarının erməni separatatçılarının işğalında qalmasına, bir milyon soydaşımızın köçkün vəziyyətinə düşməsinə, ev-eşiyindən olmasına, uzun illər əzab-əziyyətlər içində yaşamasına, soyqırımına məruz qalmasına əhəmiyyət verməyən Qərb ölkələri zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsindən sonra yenidən separatçıların müdafiəsinə qalxdılar. Şübhə yoxdur ki, bütün bunlar xaricdə yaşayan erməni milyonerlərinin pulundan doğan təsirlər idi. Qərb ölkələrinin bu addımları həm də onu göstərirdi ki, onlar İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyətini, Azərbaycanınsa qələbəsini həzm edə bilmirlər.

Qərbin bəzi ölkələri çirkin məqsədlərinə çatmaq üçün əlində olan bütün vasitələrdən istifadə etməyə çalışırlar. Onlar yeni media resurslarının yaradılması və Azərbaycan ictimaiyyətinə təsir göstərmək üçün mövcud resursların gücləndirilməsi yolu ilə niyyətlərinə çatmaq istəyirlər. Qərb Azərbaycan vətəndaş cəmiyyəti mühitində öz təsir agentlərini saxlamaq üçün belə səylərini artırmağa çalışır. Qərbin və onun təsir dairəsində olan beynəlxalq təşkilatların qeyri-standart və geosiyasi ambisiyalara söykənən maraqları isə təkcə ölkəmizdə deyil, dünyada böyük narazılıqlarla qarşılanır. Narazılıqlara səbəb isə ikili standartlara əsaslanan qərəzli mövqedir.

Azərbaycan həm beynəlxalq təşkilatlarla, həm də nüfuzlu ölkələrlə qarşılıqlı əməkdaşlığa böyük önəm verir. Amma təəssüflər olsun ki, biz Qərb ölkələri tərəfindən bunun qarşılığını görmürük. Biz hər zaman Avropa parlamentarilərinin ikili standartları ilə üzləşmişik. 30 il ərzində Avropa Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görmədi. Ermənistana işğalçı ölkə demədi. Halbuki bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququnu əlindən almaq mümkün idi. Lakin arxada qalan illərdə biz bunu Avropa Şurasından görmədik. Bu təşkilat nəinki Ermənistanın işğalçı siyasətini tanımadı, əksinə, erməni lobbisinin maraqlarına uyğun olaraq ölkəmizə qarşı müxtəlif vaxtlarda qərəzli qətnamələr qəbul etdi. Hansı ki, Avropa Şurasının əsas meyarı insan hüquqlarının qorunmasıdır. Onlar isə meyarlarını erməni separatçılarını müdafiə etməkdə görürlər.

Avropa Şurası COP29-un ölkəmizdə keçirildiyi günlərdə də qərəzli mövqe göstərdi. Qərb dairələri yaxşı bilirdilər ki, Azərbaycan bəşəriyyət üçün əhəmiyyətli olan bu beynəlxalq tədbiri yüksək səviyyədə keçirəcək, dünyaya nümunə olacaq. Bütün bu amillər isə Azərbaycanın dünyadakı nüfuzunu daha da artıracaq. Belə də oldu. Bundan narahatlıq keçirən Qərb ölkəmizin qazandığı uğurları qısqanclıqla qarşıladı. Buna görə də ölkəmizə qarşı hər addımda ikiüzlü siyasət yürüdür, qərəzli münasibət göstərir. Bəzi ölkələrin əsas istəyi Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənmək və çirkin siyasətlərini həyata keçirməkdir.

Qərb ölkələrinin hansı siyasət yürütdüyünə, hansı addımlar atdığına əhəmiyyət verməyən Azərbaycan tutduğu düzgün yolu ilə gedir. Uğurlu daxili və xarici siyasəti ilə dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalaq təşkilatları ilə qarşılıqlı əlaqələr qurur, daim öz maraqlarını müdafiə edir. Erməni milyarderlərinin sifarişi əsasında ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirən təşkilatlar isə yalnız və yalnız özlərini dünyada hörmətdən və gözdən salırlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Gözə kül üfürməyə ehtiyac yoxdur

### Rusiya və Ermənistanın "mehriban düşmən" maskası altında oynadıqları oyunun əsl səbəbi bəllidir

**İkinci Qarabağ müharibəsindən sonra ötən 4 ildə Ermənistanın Rusiya ilə münasibətlərində gərginliyin artması, münasibətlərin soyuması fonunda gündəm formalaşdırılması, əslində, planlı şəkildə hazırlanmış ssenaridir. Çünki son dörd ildə iki ölkə arasında təkcə iqtisadi-ticari əlaqələrə nəzər yetirdikdə artan iqtisadi göstəricilər bunun əksini göstərir.**



Yəni hazırda Rusiya ilə Ermənistan arasında baş verən maraqlı tendensiya ondan ibarətdir ki, gərgin siyasi polemika, qarşılıqlı ittihamların dozası artdıqca iki ölkə arasında ticarət dövriyyəsi də yüksəlir.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov yanvarın 21-də Moskvada erməni həmkarı Ararat Mirzoyanla danışıqlar apardıqdan sonra keçirilən mətbuat konfransında bəyan edilir ki, Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 12 milyard dolları ötüb. S.Lavrov həmçinin vurğulayıb ki, bir ayda bir milyard dollarlıq ticarət dövriyyəsinə sahib olmaq misli görünməmiş göstəricidir. O, həmçinin bildirib ki, Rusiya şirkətləri Ermənistanın dövlət büdcəsinə vergi ödəmələrinə görə ilk yerlərdədirlər və ən böyük işəgötürənlər sırasındadırlar.

Qeyd edək ki, ötən ilin sonunda Rusiya və Ermənistan arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclası zamanı Rusiya Federasiyası baş nazirinin müavini Aleksey Overçuk da Rusiyanın Ermənistanın əsas investorlarından biri olduğunu, sənaye layihəsinə investisiyaların 3,4 milyard dollara çatdığını bildirmişdi. O hətta Ermənistanla Rusiya arasındakı ticarət dövriyyəsinin 16 milyard dollara çata biləcəyini də istisna etməmişdi. Bu rəqəmlər onu göstərir ki, iki ölkə arasında 2024-cü il üçün ticarət dövriyyəsi mütləq rekorda imza atıb.

İki gün öncə isə Rusiya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda iki ölkənin münasibətlərinə "aydınlıq" gətirilib.

Qeyd olunur ki, Moskva-İrəvan münasibətlərinin pisləşməsi Qərbin hərəkətlərinin nəticəsidir. Bu, bir çox cəhətdən son bir ildə Ermənistana təzyiqləri artıran, onu Rusiya ilə ənənəvi əlaqələri pozmağa təhrik edən, erməni xalqına yad dəyər oriyentasiyaları tətbiq edən Qərbin siyasi oyunlarıdır. Təəssüf ki, bu respublika ABŞ və Avropa İttifaqının Rusiyanı Ermənistana əvəzləməklə bağlı əsassız vədlərinə tez-tez müsbət reaksiya verib. Axı KTMT Ermənistanın təhlükəsizliyinin təməl daşıdır, Aİ-yə üzvlük isə onun iqtisadi rifahının açarıdır: "Biz dəfələrlə erməni dostlarımıza çatdırmışıq ki, nə Vaşinqton, nə də Brüssel həqiqətən öz tərəfdaşlarının taleyi və maraqları barədə düşünmürlər. Qərbdə insanlar onları müstəsna olaraq utilitar şəkildə qavramağa vərdiş ediblər. İrəvan ötən ilin sonunda Gürcüstanda baş verən hadisələrə diqqət yetirməyə bilməzdi. Yəqin ki, onlar Ermənistanda İrəvanın Moskvadan qopması "layihəsinin" avropalılar üçün "aşağıxərcli" və erməni əhalisinə "bir neçə soyuq qışa hazırlaşmaq" məsləhəti ilə bağlı çox danışılan bəyanatları eşidiblər. Amerika kəşfiyyat xidmətləri ilə sıx əlaqələri olan Amerikanın "Stratfor" analitik mərkəzinin son proqnozu da eyni məcradadır. Orada açıq mətnlə qeyd olunur ki, administrasiya dəyişikliyindən sonra Vaşinqtonun Ermənistana münasibətdə eyni qızğın marağı çətin ki, olsun", - deyə bəyanatda bildirilir.

Bəyanatda həmçinin bildirilir ki, Rusiyanın heç bir gizli gündəmi, Ermənistanın təhlükəsizliyinə və ya iqtisadi rifahına mənfi təsir göstərəcək "layihə"ləri yoxdur. Bunu ikitərəfli ticarət-iqtisadi əməkdaşlığın göstəriciləri də təsdiqləyir. Hesablamalar hələ tamamlanmayıb, lakin yeri gəlmişkən, Ermənistanı Rusiya bazarından imtina etməyə çağıran Aİ və ABŞ ilə ticarətin həcmi xeyli azdır və həm də azalma müşahidə olunur. Rusiya Ermənistanın əsas ticarət və investisiya tərəfdaşı olaraq qalır.

Bütün bunlar bir daha təsdiq edir ki, uzun müddətdir iki ölkə rəsmilərinin bir-birinin ünvanına kəskin bəyanatlar səsləndirməsi, Ermənistan rəsmilərinin Rusiyanı "satqın" adlandırmaqdan belə çəkinməmələri, eyni ritorikanın Rusiya tərəfindən də müşahidə edilməsi "gözdən pərdə asmaq" üçün imiş.

Dörd ildir ki, Ermənistan tərəfi guya Qarabağ məsələsində tutduğu mövqeyə görə Rusiyanı "satqın" hesab edir, Moskvadakılar Ermənistanın onları Qərbə "satdığını" düşünürlər. Qarşılıqlı siyasi ittihamlar iki ölkə arasında münasibətlərdə gərginlik görüntüsü yaradır. Ona görə görüntü deyirik ki, faktlar başqa məsələlərdən xəbər verir. Söhbət iki ölkə arasında iqtisadi sahədə əlaqələrdən gedir. Bu əlaqələrdə isə siyasi polemikalardakı gərginliyin tamam əksi olan proseslər baş verir.

Paşinyan hökuməti ikili oyun oynayaraq Qərbə doğru reveranslar etsə də, Ermənistan Rusiyanın müttəfiqi olaraq qalır. Üzdə problem imitasiya edilsə də, Ermənistan sanksiya altında olan Rusiyaya reeksport (bir ölkənin əvvəllər idxal etdiyi malları dəyişdirmədən ixrac etdiyi beynəlxalq ticarət forması) məsələsində əsas müttəfiqdir.

Belə çıxır ki, iki ölkə arasında ticarət dövriyyəsinin indiyədək görünməyən 12 milyard dollara çatması hər iki tərəfi məmnun edir və gələcəkdə bunun 16 milyard dollara çatması üçün yəqin ki, münasibətlərin daha da inkişafını şərtləndirəcək. Təbii ki, iqtisadi münasibətlərdə dozanın yüksəlməsi siyasi münasibətlərdə gərginliyin artması fonunda təqdim ediləcək. Hətta iki ölkənin bir-birinə az qala müharibə elan etmək səviyyəsinə yüksəlməsi xəbərlərini də eşidə bilərik.

Bütün bunların fonunda deyə bilərik ki, problem imitasiyası siyasi oyundur və bu prosesdə əsas aktyorlar iki ölkənin rəhbərliyidir. Gözə kül üfürməyə ehtiyac yoxdur, hər şey açıq-aşkar ortadadır. "Mehriban düşmən" maskası geyinib siyasi oyunbazlıqla məşğul olmaq Ermənistanın köhnə peşəsi olsa da, ən azından Rusiyaya yaraşmır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## *Türkiyəli ekspert:* "Ermənilər Fransanın dəstəyi ilə "Qərbi Ermənistan" mifini təbliğ edirlər"

**Baş nazir Nikol Paşinyanın "müasir Ermənistandan kənarda Qərbi Ermənistan yoxdur" iddiasına baxmayaraq, ermənilər Fransanın dəstəyi ilə müasir Türkiyə daxilində "Qərbi Ermənistan" mifini təbliğ etməkdə davam edirlər.**




AZƏRTAC xəbər verir ki, Ankara Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Selenay Erva Yalçın diqqəti bu mənfi tendensiyaya cəlb edib.

O, ermənilərin 2018-ci il sentyabrın 14-də informasiya məkanında "parlament seçkiləri" ilə bağlı qərarı açıqlanan qondarma "Qərbi Ermənistan Respublikası"nın yaradılması ilə bağlı bəyanatlarını xatırladıb. Üstəlik, psevdo-dövlətin əhatə dairəsi 27 bölgəni əhatə edirdi ki, onların da əksəriyyəti Türkiyədə, bəziləri isə Gürcüstanda yerləşir.

"Beləliklə, ermənilər Türkiyəyə qarşı ərazi iddialarından əl çəkmək istəmədiklərini bir daha nümayiş etdirdilər ki, bu da beynəlxalq hüquq normalarına əsaslı şəkildə ziddir" deyən analitik vurğulayır ki, "Qərbi Ermənistan" mifinin tərəfdarları heç vaxt qüvvəyə minməmiş 1920-ci il Sevr müqaviləsinə istinad edirlər.

AVİM eksperti qondarma virtual qurumun "mədəniyyət naziri" Yuliya Güloyanın UNESCO-nun baş direktoru Odri Azuleyə göndərdiyi 29 avqust 2022-ci il tarixli açıq məktubu xatırladıb və orada "erməni irsinin tarixi erməni ərazilərində, o cümlədən Şanlıurfa və Qarsda qanunsuz qazıntılar fonunda qorunmasının zəruriliyi" haqda yazılıb.

Türkiyəli ekspert qeyd edir ki, "Qərbi Ermənistan" virtual psevdo-qurumunun eyni nümayəndələri 2018-ci ildən başlayaraq müxtəlif bəhanələrlə dörd dəfə, o cümlədən "Ümumdünya təşkilatına qəbul" məsələsi ilə bağlı BMT-yə müraciət ediblər. Hətta 2019-cu ildə "Qərbi Ermənistan hökuməti"nin Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası məsələsi ilə bağlı BMT-yə müraciəti yayılıb.

"Bütün bu bəyanatlar açıq-aşkar beynəlxalq strukturlar və ictimaiyyət tərəfindən diqqətdən kənarda qaldı" deyən analitik vurğulayır ki, "Qərbi Ermənistan parlamentinə" daxil olanların əksəriyyəti bu və ya digər dərəcədə Fransa ilə əlaqəlidir.

S.Erva Yalçının sözlərinə görə, "Qərbi Ermənistan parlamenti"nin yaradılması ilə bağlı bəyanatın Parisdə elan edilməsi təsadüfi deyil. Yenə də həmin Fransada "Qərbi Ermənistan" funksionerləri çoxsaylı görüş və digər tədbirlər keçirirlər.

"Ermənistan hakimiyyətinin Konstitusiyanın Türkiyə və Azərbaycana qarşı ərazi iddialarının yer aldığı İstiqlal Bəyannaməsinə istinad edən hazırkı variantının dəyişdirilməsi prosesini ləngitməsi İrəvanın sülh prosesi və regionda münasibətlərin normallaşması məsələsində səmimi olmadığını göstərir. Qərbi Ermənistanla bağlı davam edən yalanların yayılması da gözardı edilə bilməyən faktdır", - deyə AVİM analitiki sözlərini yekunlaşdırıb.

## Qərb Paşinyanı xaosa sürükləyir

### Ermənistanda siyasi gərginlik hökm sürür

**Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdədir. Ermənistanda anti-Rusiya ab-havası zaman keçdikcə daha da güclənir. İrəvan düşdüyü vəziyyətə görə bir çox xarici dövləti, o cümlədən də əsas müttəfiqi olan Rusiyanı ittiham edir.**



Digər tərəfdən də Rusiya ilə ticari əlaqələrini genişləndirir. Ermənistan sanksiyalar altında olan Rusiyaya reeksport məsələsində əsas müttəfiqdir. Bu iki ölkə arasında ticarət dövriyyəsi indiyədək görünməyən həddə - 12 milyard dollara çatıb. Ermənistan üzdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atmaqla özünü pərdələməyə çalışır. Başqa tərəfdən isə Qərbyönümlülüyünü gizlətmir. Göründüyü qədərilə rəsmi İrəvan ikili oyun oynayır.

"Hraparak" nəşri yazıb ki, Ermənistanın Avropa İttifaqına (Aİ) üzvlüyü prosesinin başlanması haqqında" qanun layihəsinin Ermənistan parlamentinin Avropaya inteqrasiya üzrə daimi komissiyasında müzakirəsi zamanı hakim fraksiyanın deputatı Sona Qazaryan bildirib ki, yalnız Aİ-yə inteqrasiya məsələləri ilə məşğul olacaq 3-cü baş nazir müavini olmalıdır. Nəşrə görə, məsələ ondadır ki, hakim partiyanın Sorosa bağlı bölməsində və Avropa referendumunun təşəbbüskarları qrupunda baş nazirin müavini Mher Qriqoryana qarşı dərin etimadsızlıq var.

Qriqoryanı "rus casusu" hesab edirlər və düşünürlər ki, bu prosesin uğursuzluğa düçar olmaması üçün qərbpərəstlərin öz seçimi olan baş nazirin müavini olmalıdır. Təbii olaraq hakim fraksiyadan olan deputat bunu etiraf etməyib, əksinə deyib ki, Qriqoryan öz funksiyaları ilə, o cümlədən demarkasiya komissiyasının işi ilə çox məşğuldur, Tiqran Xaçatryan isə, məlum olduğu kimi, maliyyə blokunu koordinasiya edir, ona görə də başqa baş nazirin müavini vəzifəsi yaratmaq lazımdır. "Lakin bizə deyilənə görə, təxminən iki ay əvvəl Avropa referendum qrupu hətta müzakirə edib ki, onlardan biri, məsələn, "Respublika" partiyasının lideri Aram Sarkisyan, yaxud Arman Babacanyan baş nazir müavini təyin olunmalıdır. Babacanyan bəyan edəcək ki, onun hökumətin iqtisadi və digər siyasəti ilə heç bir əlaqəsi yoxdur, yalnız bir öhdəliyi var, o da Avropaya inteqrasiya məsələləri ilə məşğul olmaqdır", - deyə nəşr bildirib.

Erməni siyasi xadim Hakop Hakopyan öz sosial şəbəkə hesabında yazıb ki, Ermənistanda faktiki olaraq siyasi defolt hökm sürür: artıq seçicilərlə indiki hakimiyyət arasında heç bir öhdəlik və hakimiyyətin mənəvi legitimliyi yoxdur. "Bu gün hamımız ətrafımızda yaranmış yeni reallıqdan çıxmalıyıq. Məqsədi görməmək, yeni reallıqları dərk etməmək yenidən illüziya və miflərlə yaşamağa başlamaq deməkdir. Ölkəni xilas etmək üçün real imkan var, amma bu, hazırkı hakimiyyət olmadan mümkündür. Bizə real və adekvat fəaliyyətlər üçün yol xəritəsi lazımdır. Yaxın keçmişimizdən nəticə və dərslər çıxarmaq lazımdır. Bu, yüksəkkeyfiyyətli konsolidasiya edilmiş işi nəzərdə tutur", - deyə o qeyd edib.

Ermənistanda xalqı əslində siyasi proseslər deyil, məhz getdikcə daha da çökməkdə olan sosial-iqtisadi vəziyyət düşündürür. Dərin ruh düşkünlüyünə qərq olan əhali çıxış yolunu mühacirətdə görür. Əhalinin sayı yenə sürətlə azalmaqda davam edir, xaricə köçənlərin sayı artır. Əhalinin təbii artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub.

Beləliklə, gedən proseslər Ermənistanın sürətlə məhvinə doğru yaxınlaşdığını bir daha təsdiqləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Ermənipərəst QHT-nin ECOSOC statusu ləğv edilməlidir

**Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) Qeyri-Hökumət Təşkilatları (QHT) üzrə Komitəsinin sessiyası çərçivəsində ECOSOC-un məsləhətçi statuslu üzvü olan Christian Solidarity International (CSI) təşkilatının fəaliyyəti ilə bağlı narahatlığını ifadə edərək xüsusi məsələ qaldırıb. Müzakirələrin nəticəsi olaraq, həmin təşkilata konkret suallar ünvanlanıb.**



BMT-nin İqtisadi və Sosial Şurasının xüsusi məşvərətçi statuslu üzvü olan "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə QHT-lərə qarşı belə hallarda hansı tədbirlərin görülməli olduğunu AZƏRTAC-a şərh edib.

Ekspert qeyd edib ki, Azərbaycan haqlı olaraq CSI təşkilatının fəaliyyətini gündəmə gətirib və təşkilatın BMT prinsiplərinə və ECOSOC-un tələblərinə uyğunluğu ciddi şəkildə araşdırılmalıdır.

O bildirib ki, Christian Solidarity International təşkilatının 2024-cü il iyulun 9-da və oktyabrın 1-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının tədbirləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü təhrif edən xəritələr nümayiş etdirməsi və ölkənin suveren ərazilərini qeyri-qanuni adlarla təqdim etməsi BMT prinsiplərinə ziddir. Bundan əlavə, həmin tədbirlərə işğal dövründə Azərbaycana qarşı qeyri-qanuni fəaliyyətlərdə iştirak etmiş şəxslərin əsas çıxışçılar kimi dəvət olunması beynəlxalq hüququn normalarının pozulmasına birbaşa şərait yaradır.

ECOSOC-un 1996/31 saylı qətnaməsinə əsasən, əgər bir təşkilat:

- BMT Nizamnaməsinə zidd fəaliyyət göstərirsə, üzv dövlətlərin suverenliyini və ərazi bütövlüyünü pozursa,
- Siyasi və qərəzli fəaliyyətlərdə iştirak edirsə və ya dövlətlərə qarşı əsassız ittihamlar irəli sürürsə,
- Qeyri-qanuni maliyyələşdirilmə və ya digər cinayətkar fəaliyyətlərlə əlaqələndirilirsə,
- Son üç il ərzində ECOSOC və ya BMT-nin digər strukturlarına heç bir töhfə verməyibsə, bu halda həmin təşkilatın məsləhətçi statusunun dayandırılması və ya tamamilə ləğv edilməsi nəzərdə tutulur. Azərbaycanın ECOSOC-da qaldırdığı bu məsələ beynəlxalq hüququn normalarına əsaslanaraq, CSI təşkilatının fəaliyyətinin obyektiv araşdırılmasını tələb edir.

Cəsarət Hüseynzadə qeyd edib ki, bu cür hallar ECOSOC-un təcrübəsində kifayət qədər mövcuddur. Adətən məsləhətçi statusun dayandırılması əsasən hesabat verilməməsi ilə bağlı həyata keçirilir. Lakin digər məsələlərlə bağlı da kifayət qədər presedentlər mövcuddur. Məsələn, 2015-ci ildə Azərbaycan ECOSOC-un QHT komitəsində üzvü olduğu dövrdə, BMT 2 Afrika qeyri-hökumət təşkilatının məsləhətçi statusunu ləğv edərək onların BMT ilə əməkdaşlığının qarşısını aldı. Belə nümunələr kifayət qədərdir.

"Bildirmək istəyirəm ki, ECOSOC-un 1996/31 saylı qətnaməsinin 57(a) maddəsinə əsasən, əgər bir təşkilat BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə zidd olan fəaliyyət həyata keçirirsə, onun məsləhətçi statusu dayandırıla və ya ləğv edilə bilər. Bu müddəa BMT üzv dövlətlərinin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş addımların ECOSOC statusunun itirilməsinə səbəb ola biləcəyini açıq şəkildə göstərir. Bu da BMT Nizamnaməsinin 2-ci maddəsinə əsaslanır. Buna əsasən, əgər bir QHT üzv dövlətlərin suverenliyi və ərazi bütövlüyünə qarşı fəaliyyət göstərirsə, onun məsləhətçi statusunun ləğvi tələb oluna bilər", - deyə C.Hüseynzadə əlavə edib.

Onun sözlərinə görə, CSI təşkilatı özünü insan hüquqları təşkilatı kimi təqdim etsə də, monitorinq nəticəsində məlum olub ki, bu təşkilat əsasən ermənilərin hüquqlarını müdafiə etməyə yönəlib. Eyni zamanda, təşkilatın maliyyələşməsi ilə bağlı heç bir şəffaf məlumat yoxdur, halbuki vətəndaş cəmiyyəti təşkilatlarının maliyyə fəaliyyətləri açıq və şəffaf olmalıdır.

QHT sədri deyib: "Biz bilirik ki, bu təşkilat qeyri-qanuni şəkildə ermənipərəst qüvvələr tərəfindən maliyyələşdirilir. Bundan əlavə, təşkilatın sosial şəbəkə hesablarındakı paylaşımlarının böyük əksəriyyəti Azərbaycan dövlətinə qarşı yönəlib. Təşkilatın idarə heyətinin rəhbəri John Eibner sosial şəbəkələrdə Ruben Vardanyanın təbliğatına aktiv şəkildə dəstək verir. Həmçinin BMT tədbirlərində təşkilatın adından çıxış edənlər arasında Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyanın da olması təşkilatın müstəqil fəaliyyətini şübhə altına alır".

Ekspert bildirib ki, təşkilat təkcə Azərbaycana qarşı deyil, eyni zamanda Afrika ölkələrinin xəritələrində də öz maraqlarına uyğun dəyişikliklər edib. Bütün bu faktlar və ECOSOC-un 1996/31 saylı qətnaməsi Christian Solidarity International təşkilatının ECOSOC-dakı xüsusi məşvərətçi statusunun ləğv edilməsi üçün əsas yaradır.



# Mədəniyyət



Sənətə və sənətkara qayğı



# Xalqın mənəvi sərvəti

**Ulu Öndər Heydər Əliyev deyirdi: "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, böyüyü mədəniyyətdir".**

Hər bir xalqın mədəniyyəti onu dünyaya tanıdan mənəvi pasportudur desək, heç də səhv etmərik. Təsadüfi deyil ki, ermənilər istər qədim Azərbaycan torpaqları olan Qərbi Azərbaycanda, istərsə də bir zamanlar işğal etdikləri Qarabağda azərbaycanlıları məcburi şəkildə öz tarixi yurdlarından didərgin saldıqdan sonra xalqımıza məxsus mədəniyyət abidələrini dağıdaraq izini silməyə çalışıblar. Haylar anlayırdılar ki, babalarımızın min illər öncə yaratdığı tarixi yadigarlar, milli mədəniyyət nümunələri bu torpaqların əsl sahiblərinin azərbaycanlılar olduqlarını dünyaya göstərən ən dürüst faktlardır. Lakin mənfur niyyətlərini reallaşdıra bilməyən hayların insanlığa yaraşmayan hərəkətləri sonda bumeranq kimi fırlanıb öz başlarına dəydi.

Xalqların mədəniyyətinin yaradıcıları alimlər, şairlər, yazıçılar, sənət adamları, el sənətkarlarıdır. Dünyanın böyük fatehləri işğal etdikləri ərazilərdə yaşayan işıqlı insanları, elm, bilik sahiblərini, sənətkarları ən dəyərli insanlar kimi öz ölkələrinə aparırdılar.

Xalqının gələcəyini düşünən, onun inkişafı və tərəqqisi qayğısına qalan böyük dövlət adamları mədəniyyətin və mədəni tarixin yaradıcısı olan insanlara xüsusi diqqət göstərərək qayğı ilə yanaşıblar. Uzun illərdir ki, biz Ulu Öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin timsalında da elm və mədəniyyət xadimlərinə, incəsənət ustalarına, bir sözlə, xalqımızın mənəvi sərvətinin yaradıcılarına göstərilən xüsusi diqqətə, dövlət qayğısına şahidlik etməkdəyik. Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı, gənc istedadlara qayğı, milli sənətin inkişafı dövlətimizin mədəniyyət siyasətinin əsasını təşkil edir.

Ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğinə xüsusi diqqət yetirilir. Mədəniyyət sahəsini inkişaf etdirmək üçün böyük investisiya proqramları reallaşdırılır. Milli Akademik Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Dövlət Filarmoniyası müasir üslubda yenidən qurulub. Regionlarda yeni mədəniyyət mərkəzləri, teatr binaları, sərgi salonları, rəsm qalereyaları tikilərək istifadəyə verilib. Mövcud mədəniyyət obyektlərinin müasir standartlara uyğun təmiri, maddi-texniki bazasının gücləndirilməsi, muzey fondlarının komplektləşdirilməsi və ekspozisiyaların zənginləşdirilməsi istiqamətində irihəcmli layihələr həyata keçirilib və bu, davam etməkdədir. Mədəniyyətimizə göstərilən yüksək qayğının nəticəsidir ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də böyük uğurlar müşahidə olunmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elm və sənət adamlarını yüksək qiymətləndirərək demişdir: "Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır".

Azərbaycan elminin və mədəniyyətinin inkişafında xidmətləri olan tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, dövlət tərəfindən mükafatlandırılması bir ənənəyə çevrilib.

2024-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi, Məhəmməd Füzulinin 530, Süleyman Ələsgərovun 100, Nəbi Xəzrinin 100 illik yubileylərinin keçirilməsi haqqında sərəncam imzalayıb. 2024-cü ildə Rəfael Hüseynov Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafındakı böyük xidmətlərinə görə və şair Baba Vəziroğlu "Şərəf" ordeni ilə, akademik Akif Əlizadə Azərbaycan elminin inkişafında səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" ilə mükafatlandırılıb. Dövlət başçısı Azərbaycanın mədəniyyət xadimlərindən Ömər Eldarova, Böyükxanım Əliyevaya, Xanlar Haşımzadəyə, Fərhad İsrafilova, Aqil Məlikova, Sevda Məmmədəliyevaya, Laləzar Mustafayevaya Prezidentin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. Respublikamızın 150 nəfər incəsənət xadimi Prezident mükafatlarına layiq görülüb.

2024-cü il həm də bir qrup gəncin yaddaşında Prezident mükafatları ilə təltif olunmaları kimi qaldı. Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Fərrux Zakirova Xalq artisti fəxri adı verildi...

Dövlət başçısının elm, mədəniyyət xadimlərinə, sənət adamlarına Azərbaycan Respublikası Prezidentinin mükafatlarının, fərdi təqaüdünün verilməsi ilə bağlı sərəncamları sənətə və sənətkara olan diqqətin daha bir nümunəsidir. Mədəniyyət işçilərinə göstərilən həssas münasibət onların ruh yüksəkliyinə səbəb olur. Dövlət tərəfindən göstərilən qayğı yaradıcı insanların fəaliyyətinə stimul verir. Ölkəmizdə mədəniyyət sahəsinin ahəngdar inkişafının təmin edilməsinə hər cür şərait yaradılır. Sözsüz ki, bu, dövlət başçısının elmə, mədəniyyətə, incəsənətə olan yüksək diqqətinin və qayğısının nəticəsidir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## "Solo gənclik" layihəsi davam edir

**"İRƏLİ" Mədəniyyət Mərkəzi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin birgə təşkilatçılığı ilə reallaşan "Solo gənclik" layihəsi davam edir.**




Mərkəzdən bildirilib ki, layihə çərçivəsində növbəti tədbir yanvarın 25-i Qara Qarayevin ev-muzeyində gənc piano ifaçısı Ərtoğrul Balayevin iştirakı ilə keçiriləcək.

Layihənin başlıca məqsədi gənclərin mədəni iştirakçılığının artırılması, musiqi mədəniyyətinin inkişafı və istedadlı gənclərin fəaliyyətinin stimullaşdırılmasına nail olmaqdır.

Qeyd edək ki, Ərtoğrul Balayev müxtəlif vaxtlarda Çexiya, İspaniya və Portuqaliyada keçirilən festival və müsabiqələrində uğur qazanıb.

## Görkəmli dirijor, Xalq artisti Əşrəf Həsənovun doğum günü qeyd olunub




**Görkəmli dirijorun anadan olmasından 116 il ötür. 1909-cu il yanvarın 24-də Şəki şəhərində anadan olan Əşrəf Həsənov 1927-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının orkestr sinfində, 1933-1938-ci illərdə Moskva Dövlət Konservatoriyasının dirijorluq sinfində təhsil alıb.**

Eyni zamanda 1938-1950-ci illərdə Azərbaycan Radio Komitəsinin nəzdindəki simfonik orkestrə rəhbərlik edib. 1932-ci və 1938-1979-cu illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrında dirijor işləyib. O, həmçinin 1949-1962-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında Opera hazırlığı şöbəsinə rəhbərlik edib.

Ə.Həsənov Azərbaycan Dövlət Opera və Balet Teatrında "Leyli və Məcnun", "Koroğlu" (Üzeyir bəy Hacıbəyli), "Aşıq Qərib" (Zülfüqar Hacıbəyov), "Şahsənəm" (Reynqold Qlier), "İvan Susanin" (Mixail Qlinka), "Knyaz İqor" (Aleksandr Borodin), "Qaratoxmaq qadın", "Yevgeni Onegin", "İolanta" (Pyotr Çaykovski), "Qar qızı" (Nikolay Rimski-Korsakov), "Su pərisi" (Aleksandr Darqomıjski), "Aleko" (Sergey Raxmaninov), "Traviata", "Aida" (Cüzeppe Verdi), "Karmen" (Jorj Bize) və s. kimi Azərbaycan və Qərbi Avropa bəstəkarlarının opera və baletlərinə dirijorluq edib. O, bir çox dünya ölkələrində qastrol səfərlərində olub.

Görkəmli dirijor Əməkdar incəsənət xadimi (1940), Xalq artisti (1959) fəxri adları ilə təltif edilib.

Qeyd edək ki, Əşrəf Həsənov 1983-cü ildə Bakıda vəfat edib.

Xatirələrdə yaşayanlar

# Bir aktyor vardı...

**Onlar 13 nəfər idilər. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Kino və dram aktyorluğu fakültəsinin 13 məzunu. Azərbaycanın görkəmli teatr, kino rejissoru, aktyor-pedaqoq Adil İsgəndərovun kursunu bitirən kimi onların hamısını təyinatla Lənkərana teatr açmağa, daha dəqiq desək, bu cənub şəhərində vaxtilə fəaliyyət göstərmiş Dövlət Dram Teatrının işini bərpa etməyə göndərmişdilər.**



İki-üç ildən sonra Lənkərana teatr açmağa gələnlərin əksəriyyəti əyalət şəhərinin çətinliklərinə dözməyərək paytaxt Bakıya qayıtdı. Onlardan cəmi 3 nəfər - sədaqətli ömür-gün yoldaşları olan respublikanın Xalq artisti Böyükxanım Əliyeva ilə Əməkdar artist, "Tərəqqi" medallı Təvəkkül Əliyev və bir də uzun müddət bu sənət ocağına rəhbərlik edən Əməkdar artist Elşad Zeynalov həmişəlik öz talelərini Lənkəranla bağladılar. Onlar istər həyat yollarında, istərsə də sənətdə əldə etdikləri nailiyyətləri məhz Lənkəranda qazandılar. Buradaca ailə qurub, ev-eşik və ad-san sahibi oldular. Elşad Zeynalov 2006-cı il yanvarın 5-də 55 yaşında haqq dünyasına qovuşdu. Ondan 11 il sonra, 2017-ci ilin 23 yanvarında isə Təvəkkül Əliyev də bu dünyanı tərk edərək əbədiyyətə qovuşdu...

Təvəkkülü Lənkəranda hamı tanıyır və sevirdi. O da qarşılıqlı olaraq bu diyara qəlbən bağlanmış, özünə çoxlu dost qazanmışdı. Söhbət düşəndə bəzən zarafatyana Talış dağlarını göstərib: "Odur ey, oralıyam - Barzavuluyam", - deyərdi.

Onu teatrda aktyor kimi işə başladığı dövrdən tanıyırdım. İndiki kimi yadımdadır. 1973-cü il dekabrın 6-da yenicə fəaliyyətə başlayan Lənkəran Dövlət Dram Teatrının tamaşa zalına iynə atsaydın yerə düşməzdi. Tamaşaçılar kəndli-şəhərli hamı teatrın ilk tamaşasına baxmağa gəlmişdi. Onların arasında Bakıdan dəvət olunan tanınmış sənətçilər, ziyalılar, şair və yazıçılar, o cümlədən "Yaxşı adam" əsərinin müəllifi Mirzə İbrahimovla onun ailə üzvləri də vardı. Gənc aktyor Təvəkkül Əliyev teatrın pərdəsini açaraq titrək addımlarla səhnənin qarşısına çıxdı və özünəməxsus gur səslə Lənkəran Dövlət Dram Teatrının fəaliyyətə başlaması münasibətilə tamaşaçıları təbrik etdi. Daha sonra sürəkli alqışlar altında tamaşa başlandı. Həmin gün gənc aktyorların hamısı rollarının öhdəsindən layiqincə gələ bildilər. Təvəkkül Əliyev isə Azər rolunun ifası ilə teatra parlaq fərdi xüsusiyyətlərə malik olan qeyri-adi bir aktyorun gəldiyini nümayiş etdirdi. İllər ötdükcə aktyor xaraktercə bir-birindən fərqli rollarda çıxış etdi, tamaşaçılarını gah güldürdü, gah düşündürdü, gah da göz yaşları axıtmağa sövq etdi. Tamaşadan-tamaşaya özü də inkişaf etdi, püxtələşdi, müdrikləşdi.





### Onu Lənkəranda saxlayan tamaşaçı məhəbbəti idi

Təvəkkül məsuliyyətli aktyor idi. Rolunun üzərində az qala əsirdi. O, istənilən obrazı sadəcə səhnədə ifa etməklə işini bitmiş hesab etmirdi. Hələ məşq prosesində rolun məxsus olduğu tarixi şəraiti, mühiti, mənsubiyyətini öyrənib mənimsəyərdi.

Söhbət düşəndə deyirdi ki, məni Lənkəranda saxlayan tamaşaçı məhəbbəti və qayğısı olub: "Bəzən Böyükxanımla (aktyorun ömür-gün yoldaşı, Azərbaycanın Xalq artisti Böyükxanım Əliyeva - A.B) bir neçə günlüyə Bakıya getmişik, amma Lənkəran üçün, tələbkar tamaşaçılarımız üçün darıxdığımızdan müddətdən əvvəl geri qayıtmışıq. Qürur hissi keçirirəm ki, məhz Lənkəran teatrının səhnəsində öz sözünü demiş, püxtələşmiş aktyor səviyyəsinə ucala bilmişəm. İndinin özündə belə yolda, küçədə tamaşaçılarla qarşılaşarkən onlar bizə oynadığımız rolların adları ilə müraciət edirlər. Belə tamaşaçını necə sevməyəsən? Belə şəhəri, belə teatrı necə tərk edəsən?"

Doğrudan da, o, ömrünün sonuna kimi əhdinə sadiq qaldı, Lənkəranı tərk edib heç bir yerə getmədi. Teatrın səhnəsində isə 100-dən artıq rolda çıxış etdi. Onları sadalamaqla qurtaran deyil: Aydın (C.Cabbarlı "Aydın"), İldırım Bəyazid (H.Cavid "Topal Teymur"), Anton Antonoviç (N.Qoqol "Müfəttiş"), Aleksey (Bs.Vişnevski "Nikbin faciə"), Ezop (Fiqereydo "Ezop"), Nəcəf bəy (Ə.Haqverdiyev "Dağılan tifaq"), Şeyx Nəsrullah (C.Məmmədquluzadə "Ölülər"), Əmir Teymur (T.Zülfüqarov "Kəklikli qəfəs"), Azər (M.İbrahimov "Yaxşı adam"), Zaur (Anar "Təhminə və Zaur"), Mahmud (Elçin "Mahmud və Məryəm"), Polya Luici ("Dəmir sinif", A.Nikolai)...

Əlbəttə ki, bu obrazların hər biri ayrılıqda bir tədqiqat materialı səviyyəsindədir və biz onların hamısının təhlilini vermək fikrindən uzağıq. Amma bununla belə aktyorun yaratdığı bir neçə rol üzərində dayanmağı məqsədəuyğun hesab edirik.

### Qismətinə baş qəhrəman obrazını yaratmaq düşmüşdü

Xalq şairi Nəbi Xəzrinin "Sən yanmasan" əsərinin tamaşasında T.Əliyevin ifa etdiyi Eldar obrazı barədə Lənkəranın yaşlı tamaşaçıları bu gün də xoş xatirələrlə söz açırlar. O, obrazın daxili aləmini özünəməxsus cizgilərlə açaraq, təkcə müsbət xarakterini deyil, eyni zamanda həm də mənfi xüsusiyyətlərini göstərməyi bacarırdı. Aktyor Eldarın simasında daxilən çürük, buqələmun kimi rəngdən-rəngə girən tiplərin ümumiləşdirilmiş obrazını yaratmışdı.

Yazıçı Məmmədhüseyn Əliyevin "Ana fəryadı" tamaşası da Lənkəran teatrının tarixində xüsusi yer tutur. İkinci dünya müharibəsinin xalqımızın həyatından izsiz ötüşmədiyini və minlərlə ailəyə bədbəxtlik gətirdiyini əks etdirən bu səhnə əsərində "qara kağızı" gəlmiş İlyasın (rolda Təvəkkül Əliyev) on beş ildən sonra doğma yurda qəfil qayıdışı onun doğmalarının həyat tərzini tamam alt-üst edir. Belə ki, İlyasın arvadı onun anası Bəyimin təhriki ilə artıq xalası oğluna ərə gedib. Mövcud vəziyyətdən hamı çaş-baş qalıb. Bütün ailə İlyasın yanında özünü günahkar saydığından onun gözündən qaçır. Belə məqamda İlyas üzünü görmədiyi doğma qızı Mirvari ilə söhbətləşib dərdləşir. Daha sonra İlyas tənhalığa qapılır, fonoqramma ilə səhnədən onun daxili monoloqu ucalır. Beləcə aktyor, sözün həqiqi mənasında, bu monoloqu yaşantılarla ifa edir. Onun sifətindəki cizgilər qəhrəmanının müharibədə necə böyük əzab-əziyyətlərdən keçdiyini, göz yaşları isə İlyasın acı taleyi üçün daxilən necə yandığını göstərir. Bu obrazı ilə T.Əliyev özünü həm də səhnənin mahir ifaçısı kimi sübuta yetirir.

Aktyor məhz belə müsbət keyfiyyətləri ilə C.Cabbarlının "Aydın" tamaşasında böyük arzularla yaşayan, lakin əli heç bir yerə çatmayan Aydını, H.Cavidin "Topal Teymur"unda başı eyş-işrətə qarışmış, xalqın vəziyyəti ilə maraqlanmayan hökmdar Yıldırım Bəyazidi, Anarın "Şəhərin yay günləri"ndə hər şeyi pulla həll etməyə çalışan Ağarəfini, S.Vurğunun "Fərhad və Şirin" dramında öz sevgisi uğrunda Xosrovla baş-başa gələn, bunun üçün hətta dağları parçalayan Fərhadı və onlarla müxtəlif xarakterli obrazları yaratmaqla tamaşaçıların rəğbətini qazanmışdı.

Təvəkkülün son ifası isə Əli Vəlioğlunun "Əsrlərin harayı" tamaşasında Midiya hökmdarı Astiaq obrazı oldu. Aktyor qanı-canı bahasına bu obrazı yaratmışdı. İstedadının bütün coşğunluğu ilə Astiaqın ziddiyyətlərlə dolu həyatını açıb göstərməyi bacarmışdı. Ölümündən cəmi üç gün əvvəl də bu obrazda səhnəyə çıxmışdı.

Yanvarın 23-də bir daha 43 ildən bəri canından da çox sevdiyi səhnəyə qayıdışı oldu. Amma budəfəki - sonuncu tamaşanın müəllifi də, ifaçısı da özü idi. Yenə də qədirbilən dostları, pərəstişkarları Təvəkkülün yanında idilər, onu alqışlayırdılar. Amma bu alqışlar göz yaşlarına qarışmışdı. Tamaşaçılar sevimli aktyorlarını son mənzilə yola salırdılar...

Təvəkkül Əliyev Əməkdar artist fəxri adına layiq görülmüşdü, "Tərəqqi" medalı ilə təltif olunmuşdu. Xalq artisti adını almasa da, xalqın artisti idi. O, bu adı qazanmışdı və buna mənəvi haqqı da var idi. Bu barədə söz düşəndə deyirdi: "Postsovet dövrünün bəzi naqis xüsusiyyətləri öz diktəsini etməkdədir. O vaxt belə bir qayda vardı: ərlə arvad, yaxud da ata ilə uşaqları bir idarədə, bir müəssisədə işləyə bilməzdilər. "Qohumbazlıq" deyilən bir məfhum yaranmışdı. Bizim işimiz də buna oxşayır. Söz düşəndə deyirlər ki, Böyükxanımla siz ər-arvadsınız, ikinizə də eyni bərabərlikdə yerimək olmaz. Əslində, belə şeylər gərək yaradıcı insanlara şamil edilməsin. Mənimlə Böyükxanımın bir-birindən fərqli dəst-xətimiz var. Amma bunun fərqinə varmırlar. Belə çıxır ki, Böyükxanım xalq artisti olduğundan bu şərəfə mən layiq görülə bilmərəm. Əslində, bunun mənim üçün elə bir əhəmiyyəti də yoxdur. Əməkdar artist olsam da, Xalq artisti səviyyəsində çalışıram".

### Ürəyində bir arzusu vardı: Kral Liri oynamaq

Teatrda hazırlanan tamaşaların əksəriyyətində baş qəhrəmanı oynamaq Təvəkkülün qismətinə düşmüşdü. Ürəyində bir arzusu da var idi: Kral Liri oynamaq. Amma ömür ona bu arzusunu gerçəkləşdirməyə imkan vermədi.

Son illər o, həm də kino aktyoru kimi tanınmışdı. Bir sıra bədii filmlərdə, teleseriallarda maraqlı rollarda çəkilmişdi. Ümumilikdə isə Təvəkkül 15 filmdə müxtəlif səpkili rolları ifa edib. Onun kinoda axırıncı işi "Əli və Nino" filmində olub. Burada aktyor məşhur Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin obrazını yaradıb. Daha bir neçə filmə də dəvət almışdı...

Qeyd edək ki, Təvəkkül Əliyev özünü həm də rejissorluq sahəsində sınayıb. Əsasən də uşaqlar üçün tamaşalar hazırlayardı. İş prosesində onun necə tələbkar sənətçi olmasının şahidi idik. "Mən hər şeydən əvvəl aktyoram, həm də peşəkar aktyoram. Amma ara-sıra teatrda tamaşa hazırlamaq isə mənim təcrübəmdən irəli gələn bir işdir. Rejissor vəzifəsinin məsuliyyəti böyükdür və mən belə bir yükün altına girməyə cürət etmərəm. Ötən onilliklər ərzində çoxlu rejissorla işləmişəm, hərəsinin dəst-xətindən müəyyən qədər bəhrələnmişəm", - deyirdi.

T.Əliyev həmçinin gənc aktyorların hamisi idi. Biliyini, təcrübəsini heç kimdən əsirgəmirdi. Onun gözünün qabağında onlarla aktyorun püxtələşməsinə, sənətin sirlərini əxz etməsinə uşaq kimi sevinərdi.

Ömrünün müdrik çağında da məhsuldar fəaliyyətini davam etdirən Təvəkkül Əliyev sübut etmək istəyirdi ki, hələ ürəyində kifayət qədər deyilməmiş sözü vardır. 65 illik ömrünün 43 ilini səhnə sənətinə həsr edən Təvəkkül Əliyev həm də gözəl ailə başçısı, sədaqətli ömür-gün yoldaşı, mehriban ata və baba idi. O, nəvələrini özünün ən böyük var-dövləti hesab edirdi.

Heyif ki, ölüm onu aramızdan tez apardı. Lənkəran tamaşaçısı düz səkkiz ildir ki, onsuz qalıb. Teatr özü də onun məsləhətlərinə, göstərişlərinə möhtacdır. Amma əziz xatirəsi unudulmur və illər, qərinələr keçsə belə, yenə unudulmayacaq. Təvəkkül Əliyev bir-birindən gözəl, rəngarəng səhnə obrazları, kinofilmlərdəki rolları ilə əbədi yaşayacaq.

*Ağaddin BABAYEV,*
*Lənkəran*

**Atası Kamil 20 Yanvar faciəsində şəhid olanda Cavidin beş yaşı vardı. Hələ dünyanı yaxşı anlamır, ətrafındakı hadisələri dərindən dərk etmirdi. Elə buna görə də kiçik yaşlarında ata itkisinin ağrısı onu o qədər də göynətməmişdi. Bu göynərti onun ürəyini böyüyəndən sonra yandırıb-yaxdı.**

# Tanrı cəzası

*(sənədli hekayə)*



Şəhidlərin dəfn mərasimi yadına güclə gəlirdi. İllər sonra Cavid o hüznlü gündən çəkilmiş şəkillərə göz yaşı içində baxmışdı. Fotoqraf onu atasının tabutu önündə böyüdülmüş şəklini aparan yerdə lentə almışdı. Həmin an əbədi olaraq həm yaddaşlara, həm də kağız üzərinə hopub qalmışdı. İndi Cavid bu şəkillərə baxanda o kədərli günü xəyal kimi xatırlayırdı. Qəribə idi, dəfn mərasimindən onun yaddaşında görüntülərdən daha çox ağlaşma və gəmilərin fit səsləri qalmışdı. Ana-bacıların ah-naləsi hələ də qulaqlarından getməmişdi.

İllər qanadlanıb bir-bir ötdükcə Cavid də böyüyürdü. Yavaş-yavaş atasının faciəli ölümünü, hansı amal uğrunda şəhid olduğunu dərk edirdi. Dərk etdikcə də atasına rəğbəti, qatillərinə isə nifrəti artırdı. Deyilən və yazılanlardan şəhidlərə güllə atanların Rusiyanın şəhərlərindən gəldiklərini öyrənmişdi. Vaxtaşırı Şəhidlər xiyabanına gedir, atasının məzarı üstünə gül-çiçək qoyur və hər dəfə də: "Ata, məzarında rahat yat, qatillərindən intiqamını alacağam, bu qan yerdə qalmayacaq", - deyirdi. Bu sözlərdən ürəyi bir az sakitləşir, qəlbinə rahatlıq çökürdü. İllər ard-arda sıralandıqca Cavidin də yaşının üstünə yaş gəlirdi. İndi o, atasının şəhid olduğu yaşda idi.

Bir gün xiyabana gələn Cavid, nədənsə, həmişəkindən fikirli və qayğılı görünürdü. Gətirdiyi gülləri məzarın üstünə düzəndən sonra pıçıltı ilə: "Ata, illərdir qəbrinin önündə qatillərindən intiqam alacağıma söz verirəm. Bunu bacarmadığım üçün məzarının üstünə başıaşağı gəlirəm. Bu gün səninlə bir neçə aylığa vidalaşacağam. Səfərim 90-cı illərdə şəhərimizə ölüm gətirənlərin diyarınadır. Vaxt yetişib, yola çıxmalıyam... Orada nə qədər qalacağımı bilmirəm", - dedi.

Ertəsi gün Cavid həyat yoldaşı Lətifəylə, anası Qəmərlə, iki yaşı yenicə tamam olmuş atasının adını daşıyan oğlu Kamillə sağollaşıb Rusiyaya yola düşdü. Sağollaşanda anası əlini buraxmayaraq dedi:

- Bala, ehtiyatlı ol. Unutma ki, sovet əsgərləri o vaxtlar şəhərimizə o yerlərdən göndərilmişdilər.

- Narahat olma, ana! Daha o vaxtlar deyil. Keçmiş ittifaq çoxdan dağılıb. İndi biz Rusiya ilə dost ölkəyik. İnşallah, işimizi qurtarandan sonra günlərin birində sağ-salamat qayıdacağam, - deyib gülümsəyən Cavid doğmalarından mehribancasına ayrıldı.

Ali təhsilli mühəndis olan Cavid yol tikintisində işləyirdi. Çalışdığı şirkət yalnız ölkə daxilində deyil, dünyanın başqa yerlərində də yol çəkilişlərində iştirak edirdi. İndi işləri Rusiya ərazisində - Rostov şəhəri ətrafında idi. Cavid bilirdi ki, o vaxtlar 20 Yanvar faciəsini törədən sovet əsgərlərinin çoxunu Bakıya Rostovdan göndərmişdilər. O isə indi illər əvvəl xalqına güllə atanlar üçün yol çəkəcəkdi. Amma nə etməli, bu hökmü verən dövlət çoxdan dağılmışdı.

Cavid Rostovda ermənilərin də çox yaşadığını bilirdi. Ona görə də hər addımda ehtiyatlı olmalı, özünü bu nankorlardan qorumalıydı. Yolboyu fikirləşirdi ki, atasını öldürənlər də bu şəhərin sakinləridir. İndi, yəqin, hamısı yaşlaşıblar. Bəlkə də, bu qanlı hadisəni heç xatırlamırlar da.

Uzun yol qət etdikdən sonra Rostova çatdılar. Onlar şəhərdən otuz kilometr aralıdakı Nevski qəsəbəsində işləyəcəkdilər. Layihəyə əsasən, qəsəbə ilə şəhər arasındakı yol genişləndirilib yenidən qurulmalıydı. İşin həcmi böyük idi. Çətin ki, bunu üç-dörd aya çatdıraydılar. Yəqin ki, ən azından, Cavid altı ay burada qalmalı olacaqdı. On gün ərzində bütün lazımi texnika və avadanlıqlar daşınıb gətirildi. Şirkətin rəhbəri Pərviz müəllim də gəlib çıxmışdı. Hazırlıq prosesi qurtaran kimi işlərə başlanıldı.

Fəhlələrin hamısı Rusiyaya göndərilmədiyinə görə şirkət rəhbərliyi yerli adamlardan da işə götürürdü. Cavidin tabeliyində yeddi-səkkiz nəfər rus da var idi. Kiçik yaşlarından bu dili öyrəndiyinə görə onlarla asanlıqla ünsiyyət qururdu. O, gecələr şirkətin yaşayış üçün quraşdırdığı vaqon-evlərdə qalırdı. Şəraitindən şikayətçi deyildi. Vaxtaşırı doğmalarına zəng vurub hal-əhval tutur, anasının, həyat yoldaşının, övladının səsini eşidirdi. Maaş alan kimi onlara pul göndərirdi.

Viktor da briqadalarında yenicə işə başlayan ruslardan biri idi. İlk baxışdan üzüyola, sakit adama oxşayırdı. Üz-gözündən fağırlıq yağırdı, hərdən qorxaq adam təsiri də bağışlayırdı. Hərəkətlərinə göz qoyanda, deyərdin, bəs dünyanın ən yazıq, ən məzlum bəndəsidir. Başına bir qapaz vur, çörəyini əlindən al. Cavid ona hansı tapşırığı verirdisə, can-başla yerinə yetirirdi. Viktorun yaşı altmışa yaxınlaşsa da, üzdən cavan görünürdü. Deyəsən, gəncliyində günləri xoş keçmiş, özünə yaxşı baxmışdı. Elədiyi maraqlı söhbətlər onun həyat təcrübəsinin zənginliyindən xəbər verirdi. Yeri düşdükcə özündən yaşca kiçik olan iş yoldaşlarına düzgün yol da göstərirdi. Sözləri tutduğuna görə Cavid onunla tez-tez söhbət edirdi. Hərdən ona elə gəlirdi ki, Viktoru bir neçə ay deyil, uzun illərdir tanıyır. Amma o gecə hər şey tərsinə oldu...

Aleksey adlı iş yoldaşlarının ad gününə yığışmışdılar. Cavid də, Viktor da qonaqların arasında idi. Badələr tez-tez dolub-boşalsa da, Cavid içkini çox sevmədiyindən qədəhi dodaqlarına yaxınlaşdırıb, bir qurtum içib yerə qoyurdu. Viktor isə su içirmiş kimi badələri ard-arda başına çəkirdi. Bir az keçmiş "dili də açıldı". İllərlə əvvəl etdiyi "qəhrəmanlıq"lardan həvəslə danışa-danışa, yavaş-yavaş söhbəti Bakı qırğınına yönəltdi... Cavid ondan eşitdiyi sözlərdən dəhşətə gəldi, heyrətdən yerindəcə donub qaldı.

Dediyinə görə, Viktor 20 Yanvar hadisələrində camaatı güllələyən hərbçilərdən biri olub. Heç yatsaydı, Cavidin yuxusuna da girməzdi ki, bu cür məzlum görkəmli biri insanların üstünə silah çəkər, qan tökər. Təəssüf ki, neçə illər əvvəl bütün bunlar olmuşdu. O, nə qədər azərbaycanlını soyuq qış gecəsində "of" demədən güllələmişdi. Bəlkə də Viktor içməsəydi, bu qanlı hadisənin iştirakçısı olduğundan söz salmazdı. Amma özü də hiss etmədən araq açar kimi dilinin qıfılını açmışdı. Çətin də olsa, onunla söhbətinə davam edən Cavid öyrəndi ki, Viktorgilin dəstəsi Bakıya "Qurd qapısı" tərəfdən soxulub. Oradakı barrikada ətrafında dayananları güllələyib. Cavidin atası da həmin yerdə şəhid olmuşdu. Güllələr onun başından və qarnından dəymişdi. Xəstəxanaya çatmağa az qalmış yolda keçinmişdi. O fikirləşdi ki, bəlkə də elə atasının qatili Viktordur. Cavid atasının bu hadisələrdə şəhid olduğunu ona demədi.

Viktorun içkili-içkili söylədiklərindən qəzəblənən Cavid özünə yer tapa bilmədi. Bu qəzəb dalğasının təsirindən illərdən bəri ürəyindəki sağalmayan yarası sızladı. İlk günlərdən fağır kimi görüb tanıdığı Viktor bir anın içində onun gözündə qaniçən məxluqa çevrildi. Nədənsə, ağlına gəldi ki, atasını Viktor güllələyib. Körpəliyindən yetim qalmasının günahkarı odur. Qonaqlıqdan necə çıxdığını xatırlamayan Cavid bir də özünü vaqon-evinin qarşısında gördü. Necə etsin? Bəlkə, elə geri qayıdıb bu məsələyə son qoysun?! Sonra fikrini dəyişərək dedi: "Viktor adam öldürənə oxşamırdı axı..." Tərəddüd içində qaldığı anlarda anasının tez-tez çəkdiyi bir misalı xatırladı: "Gecənin xeyrindən gündüzün şəri yaxşıdır". Bəlkə, Viktoru araq danışdırırdı? Heç o, bu qanlı hadisələrdə iştirak etməyib, danışdıqlarını kimdənsə eşidib. "Yaxşısı budur, qoy ayılsın, görək sabah nə deyəcək?"

Gecədən xeyli keçsə də, hələ Cavid bir çox suala cavab axtarırdı. Bəlkə, bir az yatsın? Bu fikir ağlına gələn kimi yerinə girdi. Gözünü yumar-yummaz yuxuda atasını gördü. Gördü ki, başından və qarnından yaralanan atası qan içində çabalayır. Balaca əlləri ilə atasının saçını sığallayır. Barmaqları qıpqırmızı olub. Onun sığalına məhəl qoymayıb çabalayan atasının başından axan qan üzünü örtdü... Qorxusundan qışqırıb ağlayan uşağı dilə tutub ovudan da yox idi... Hövlnak yuxudan ayıldı...

Səhəri dirigözlü açdı. "Bu qisas alınmalıdı, yoxsa mənim nəyim oğul oldu ki..." Bu dəqiqələrdə Cavid təkcə atasının məzarı üstündə verdiyi sözləri deyil, arxada qalmış illəri, hadisələri yaddaşının süzgəcindən ələyib keçirirdi. O, aramsız olaraq ağlına gələn düşüncələri götür-qoy edir, bir vaxtlar atasının qatilini necə tapıb öldürəcəyi barədə qurduğu xəyalları yadına salırdı. İntiqam hissi onu hövsələdən çıxarırdı. Fikirləşirdi ki, atasının qatillərindən birini tanıyır, qalır verdiyi sözə əməl etmək. Yəqin ki, ondan sonra atasının məzarının üstünə alnıaçıq gedəcək...

Ertəsi gün işə halsız və kefsiz gələn Cavid Viktorun da sifətini tutqun gördü. Cavid xalqına güllə atmış bu insana nifrətlə baxırdı. Viktor da çox narahat və fikirli gözə dəyirdi. Hiss edirdi ki, dünənki söhbətdən sonra Cavidin ona münasibəti xeyli dəyişib, baxışlarından qış soyuqluğu yağır.

İş gününün sonunda Viktor ona yaxınlaşaraq dedi:

- Oğul, hiss edirəm ki, dünənki söhbətimlə ürəyini yaralamışam. Səni gözəl başa düşürəm. Günah məndədir, gərək bu barədə danışmayaydım. Amma içki məni özümdən, sözümdən çıxartdı. Bilmədim, necə oldusa, ölkənizdə baş verən qırğında iştirakımdan söz açdım. Sözün oxu yayından qəflətən çıxdı. Düzdür, sizin millətinizə güllə atmışam, ölkənizin vətəndaşlarını öldürmüşəm. İnan ki, biz hərbçilərdə o qədər də günah olmayıb. Axı biz əsgər idik. Bizə nə əmr veriblərsə, onu da etmişik. Bu, ayaqüstü söhbətin mövzusu deyil, istəyirsən, sabah işdən sonra bizə gedək. Mən o qanlı gecədə baş verənlərdən sənə ətraflı danışım.

Cavid onunla razılaşaraq dedi:

- Hə, Viktor Steponoviç, nə olar, gedərik. Bəzi şeylər var ki, mən də onları sizdən soruşmaq istəyirəm.

Axşam təklikdə qalan Cavid fikirləşdi ki, Viktorgilə getməyi yaxşı olar. Həm söhbətinə qulaq asıb yanvar qırğınını necə törətdiklərini öyrənər, həm də evinin yol-yolağasını yadımda saxlayaram. Bir neçə gündən sonra isə gedib atasının qisasını alar. Ondan sonra xiyabana daha da şux addımlarla gedib uca səslə: "Ata, məzarında rahat yat, qisasını aldım", - deyər.

Bu qan qoxuyan fikirləri başında xeyli dolandıran Cavid bir az rahatlanan kimi oldu.

Ertəsi gün Cavid Viktorgilə getdi. Əvvəllər onunla söhbət edəndə öyrənmişdi ki, üç uşağı var. Yolüstü mağazaya dönüb onlar üçün şirniyyat aldı. İlk dəfə ayaq qoyduğu evə əliboş getmək istəmədi. Viktor buna mane olmağa çalışsa da, Cavid onunla razılaşmadı.

Arvadı Nina onları gülərüzlə qarşıladı. Cavid aldığı payı utana-utana qadına verdi. Uşaqlar o biri otaqda idilər. Onlarla görüşmək istəyəndə Viktor dedi:

- Çörəyimizi yeyək, söhbətimizi edək, sonra görüşərsən. Uşaqlar qaçmırlar ha, evdədilər də!

Cavid susub ağzını açmadı. Viktor o günkündən fərqli olaraq arağı az içdi. Nina süfrəni yığışdırandan sonra ikilikdə qalıb söhbət etdilər. Viktor dərindən ah çəkib dedi:

- Hərbi xidmətdən beş-altı il idi ki, qayıtmışdım. Ailə qurmaq istəyirdim. Baxırdım ki, ömür dayanmaq bilməyən küləklər kimi yaman tez keçir. Toya hazırlaşdığım ərəfədə - 1990-cı il yanvarın ikinci həftəsində komissarlıqdan bizi təlim-toplantıya çağırdılar. Çağırılanları iki-üç günün içində hərbi hissələrin birində geyindirib silahlandırdılar. Təcili olaraq Bakıya gedəcəyimizi dedilər. Zabitlər danışırdılar ki, azərbaycanlılar hökumətin əleyhinə üsyan qaldırıblar, silahlı çevriliş edirlər. Onlar həm SSRİ-nin tərkibindən çıxır, həm də erməniləri öldürüb şəhərdən qovurlar. Sıralarımızda ermənilər çox idi. Onlar lap qəzəbli görünürdülər. Tezliklə Bakıya çatıb azərbaycanlıları öldürməyə tələsirdilər. Komandirlər dönə-dönə demişdilər ki, Bakıdakı üsyançılar silahlıdırlar, heç bir xəbərdarlıq etmədən atəş açın. Biz də əmri tapşırıldığı kimi yerinə yetirdik. Can şirin şeydir axı.

Soyuq bir qış gecəsində tanklarımız şəhərə "Qurd qapısı" deyilən yerdən girdi. Dikdirin yuxarısındakı döngədə böyük bir barrikadanın qurulduğunu gördük. Sakinlər ocaq qalayıb ətrafına yığışmışdılar. Tanklar barrikadanı vurub dağıtdı. Burada dayananlar güllə atmasalar da, bizə "atəş" əmri verilirdi. Qarşımızda dayananlara atəş aça-aça şəhərin mərkəzinə doğru irəlilədik. Küçələrdə rastımıza çıxanlara da aman vermədik. Bir-iki saat ərzində şəhər nəzarətimizə keçdi. Güllələdiyimiz adamların silahsız olduqlarını sonradan bildik. Amma artıq gec idi. Çünki atəş açılmış, insanlar öldürülmüşdü. Komandirimizə ünvanladığım "Silahsız insanları niyə bizə güllələtdirdiniz? Əlimizi niyə qana buladınız?" sualına: "Deyəsən, könlündən tribunal keçir, suallarının cavabını orada alarsan", - deyən mayorun sözündən sonra susdum...

Rostova bir həftədən sonra qayıtdıq. Baş verən bu qanlı hadisə mənə xəyal kimi görünürdü. Tez-tez yuxumu qarışdırır, diksinib ayılırdım. Yuxuda görürdüm ki, güllələdiyim silahsız adamlar üstümə cumub məni boğmaq istəyirlər. Bir müddətdən sonra valideynlərim avtomobil qəzasında öldülər. Onların itkisindən yaman sarsıldım. Mən yalnız həmin günlərdə Bakıda öldürdüyüm insanların övladlarının, valideynlərinin nələr çəkdiyini hiss etdim. İnsan özü ağrını yaşamayınca, başqasının faciəsini dərk edə bilmir. Valideynlərim öləndən sonra özümü toparlamaqda çətinlik çəkirdim. Başıma gələnləri götür-qoy etdikcə düşünürdüm ki, yəqin, bütün bunlar günahsız adamları öldürdüyümə görə Tanrının mənə verdiyi cəzadır. Sarsıldığımdan uzun müddət evlənmək haqqında düşünmədim də...

Sözünə bir az ara verən Viktor yenidən danışmağa başladı:

- Böyük qardaşım Saşanın danlağından sonra evləndim. Başım ailə işlərinə qarışdığından bir az fikrim dağıldı, ürəyim açıldı, üzüm güldü. İştirakçısı olduğum bu qanlı hadisəni yavaş-yavaş unutdum. Amma sevincli günlərimin ömrü uzun olmadı. Oğlum Andrey dünyaya qüsurlu doğuldu. Nə qədər müalicə etdirsək də, vəziyyəti yaxşılığa doğru dəyişmədi. Nəhayət, həkimlər onun sağalmasının mümkünsüz olduğunu dedilər. İkinci övladım Nataşa doğulandan bir müddət sonra məlum oldu ki, qız da qüsurludur. Onun da çarəsiz dərdə düçar olduğunu biləndə yenə də düşünürdüm ki, bütün bunlar Bakıda dinc, günahsız adamları öldürdüyümə görə Tanrının mənə verdiyi cəzadır. Şükürlər olsun ki, üçüncü övladım Vladimir dünyaya normal gəldi. Hər dəfə uşaqlarımı bu vəziyyətdə görəndə dərindən ah çəkib deyirəm ki, kaş məni Bakıya göndərməyəydilər, kaş mən o günahsız adamları öldürməyəydim. Ömürləri boyu övladlarım mənim günahımın ağrı-acısını çəkəcək, kədər dolu bir həyat yaşayacaqlar. Bu hal həmişə ürəyimi yandırıb, qəlbimi göynədəcək. "20 Yanvar hadisəsindən sonra nəinki adam öldürmək, heç qarışqanı ayaqlamağa da ürəyim gəlmir. Sən azərbaycanlısan, o xalqın oğlusan. Elədiyim günahlara görə səndən üzr istəyirəm, xalqınızın böyüklüyü qarşısında baş əyirəm. Bax istəyirsən, vur məni, öldür. Bilmirəm hansı addımı atım ki, Tanrı mənə rəhm etsin, günahımdan keçsin..."

Viktorun qəhərdən səsi boğuldu. Cavid onun gözlərindən axan yaşı görüb tutuldu. Sonra söhbəti bu mövzudan yayındırmaq üçün dedi:

- Bəlkə, uşaqlarla məni tanış edəsən?

Viktor onu övladlarının yanına apardı. Cavid onlarla mehribancasına görüşüb üzlərindən öpdü, başlarına sığal çəkdi. Uşaqların ikisi uzanıqlı vəziyyətdə idi. Cavid onların kədərli üzlərinə baxanda gözləri yaşardı. Ay parçası kimi yaraşıqlı uşaqlar yerdə zəlil idilər.

Cavid geriyə çox məyus qayıtdı. Viktorun dediyi sözlər hər addımda qulaqlarında cingildəyirdi. Onun uşaqları ilə görüşdüyü səhnə gözləri önündən getmirdi. Bu anlarda düşünürdü ki, əgər Viktoru öldürsə, onsuz da şikəst olan uşaqlar ata sevgisindən də, ata nəvazişindən də məhrum olub yetim qalacaqlar. Baxmayaraq ki, keçmiş sovet əsgəri Viktor atasını öldürməklə onu belə xoşbəxtlikdən məhrum etmişdi, amma Cavid bu addımı ata bilməyəcəkdi...

Həmin axşam Cavid yenə də atasını yuxuda gördü. Atası ona astadan: "Bala, əlini qana batırma, Allah ona elədiyini eləyib. O, şam kimi öz içindən əriyir. Uşaqları yetim qoyma, eşidirsən, əgər ona toxunsan, bir daha ziyarətimə gəlmə", - dedi. Cavid atasının fikirli halda söylədiyi sözlərdən diksinib ayıldı. Bütün vücudu titrəyirdi. Qəfil oyandığından uzun müddət gözlərinə yuxu getmədi. Ürəyi sıxılır, başı ağrıyırdı. Ayağa qalxıb çay qoydu. Pürrəngi çay başının ağrısını azaltdı... Bir azdan işə gedəcəkdi.

Qapıdan çıxmaq istəyəndə telefonu zəng çaldı. Ekrana baxdı, anası idi. Qəmər xala həyəcanla dedi:

- Oğlum, necəsən, işlərin necə gedir? Axşam yuxuma girmişdin. Səni çox fikirli və qayğılı gördüm, xəstələnməmisən, bir çətinliyin yoxdur ki?

Cavid onun narahatçılığının üstünə xoş sözlərlə su çiləyərək dedi:

- Heç bir hadisə baş verməyib, ana. Xəstələnməmişəm, özümü lap yaxşı hiss edirəm. Yaxın həftələrdə işlərimiz yekunlaşır, inşallah, çox çəkməz, evimizə dönərəm.

Bunları deyəndən sonra Cavid yuxusunun, narahatçılığının anasına əyan olmasına çox məəttəl qaldı. Ana ürəyinin həssaslığı qarşısında baş əydi.

Yarım saatlıq yoldan sonra işə çatdı. Hamı kimi Tanrının cəzalandırdığı Viktora da əl verib görüşdü. İndi Cavid ona dünənki gözlə baxmırdı. Viktora qarşı təkcə baxışları deyil, fikri də dəyişmişdi. Elə bil çiyinlərindən neçə illərin ağır yükü götürülmüşdü...

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Naxçıvanın ilk və tək qazi qadını: "77 könüllü Vətən oğlunun tək bacısı mən idim"

**1990-cı ildə baş verən, tariximizin qəhrəmanlıq səhifələrindən sayılan Sədərək döyüşlərindən 35 il ötür. Həmin illərdə səngərdə döyüşən igid oğullarla yanaşı, onlarla çiyin-çiyinə mübarizə aparan, yaralananlara köməyini əsirgəməyən bir tibbi işçisinin də xidmətləri əvəzolunmazdır. Həmin tibbi işçisi qəhrəman şəfqət bacısı, hazırda Naxçıvan şəhərində yaşayan Nəzifə Qaybaliyevadır. O, həmin vaxt Şərur xəstəxanasında tibb bacısı işləyirdi. Nəzifə xanım döyüşlərin başlanması xəbərini alan kimi, 3 körpə uşağını evdə qoyaraq birbaşa Sədərəyə yollanıb.**



AZƏRTAC-ın əməkdaşı muxtar respublikanın ilk və tək qazi qadın Nəzifə Qaybaliyeva ilə söhbət edib, Sədərək döyüşləri barədə xatirələrini öyrənməyə çalışıb.

Ömrünün ahıl çağlarını yaşayan Nəzifə xanım ötən əsrin 90-cı illərinə aid foto-albomu qarşısına qoyub, bizi döyüş yoldaşları ilə bir-bir tanış edir. "Baxın, Məhərrəm Seyidovdur, polis kapitanı, Naxçıvanın ilk şəhidi, Azərbaycanın ilk Milli qəhrəmanlarından biridir. Abbasəlidir, özüm çıxardım döyüş meydanından onu" - deyir.

Həmin günlərdə yaşananları yada salan Nəzifə xanım deyir: "Yanvarın 18-də Şərur qərargahına gələn xəbər hamını həyəcanlandırdı. Avtomat və beşaçılanlarla silahlanmış bir qrup erməni dəmiryolu, Koroğlu bulağı və şərab zavodu istiqamətindən Sədərəyə hücuma keçmişdi. 10 saat davam edən ölüm-dirim mübarizəsində müdafiəçilərin bir amalı var idi: Sədərək qorunmalıdır. Ermənilər Sədərəyə ancaq bizim meyitimizin üzərindən keçib gedə bilərlər. 10-15 polis işçisi və döyüş təcrübəsi çox az olan könüllünün ov silahı ilə müasir silahlara sahib yüzlərlə hərbçinin hücumunu dəf etməsi möcüzəyə bənzəyirdi. Səngərdə bir igid şəhid olurdusa, beş igid onun silahını götürüb, Vətəni müdafiə etməyə tələsirdi. 77 könüllü Vətən oğlunun tək bacısı mən idim".

Nəzifə xanımın sözlərinə görə, 1990-cı ilin yanvarın 19-u səhərə yaxın atəş səsləri azalmağa başlasa da, aradan heç 4 saat keçməmiş Sədərəyə yenidən və daha şiddətli hücum oldu. Sədərək kəndi və Şərur rayon mərkəzi bu dəfə raket, top və digər ağır silahlardan atəşə tutuldu: "Gecəyarıya kimi susmadılar. Yaralılar neytral zonada qalmışdı. Gecəyarını keçmişdi. Düşmənin susmayan silahları yaralıları götürməyimizə imkan vermirdi. Qarın üzərində sürünə-sürünə birtəhər özümüzü yaralılara yetirdik. Şərur Rayon Mərkəzi Xəstəxanasına çatdırmağa çalışdığımız yaralılardan kimisi elə yoldaca şəhadətə yüksəldi, kimisi isə əməliyyata götürüldü. Dörd il beləcə mənfur düşmənlə döyüşdük, gün oldu ac qaldı döyüşçülər, gün oldu yaralı vəziyyətdə döyüşdülər, amma düşmənə aman vermədilər. Ulu Öndər Heydər Əliyevin "Qeyrət qalası" adlandırdığı Sədərək igid oğulların canı bahasına qorundu. Həmin illərdə Ümummilli Liderlə dəfələrlə görüşdük. Onun yanımızda olması səngərdəkilərə güc verdi. Şiddətli döyüşlərdə, soyuq günlərdə belə heç kim səngəri tərk etmədi. İndi keçmiş günləri xatırlayanda yaralanıb səngərdən ayrı durmaq məcburiyyətində qaldığım günlər üçün təəssüf hissi keçirirəm. 1992-ci ilin mayında - Sədərəyin düşmən mərmilərinin səsindən yenidən lərzəyə gəldiyi bir yaz səhərində mən də ağır yaralandım. Döyüş meydanından ayrılanda yaralanmağımdan daha çox oradakı qardaşlarıma əlim çatmayacaq deyə məyus olmuşdum".

İndi həmin günlərdən bizi 35 illik zaman ayırır. Bədənində hələ də qanlı-qadalı dövrün yaralarını daşıyan qürurlu Nəzifə xanım 17 dəfə əməliyyat olunmasına baxmayaraq, sağlamlığına tam qovuşa bilməyib. Deyir ki, o qəlpələrdən hələ də bədənində qalanı var: "Ancaq qürur duyuram ki, vətənim azaddır. Getdim, Şuşanı gördüm, Sədərəkdən Şuşaya gedən yolu xatırladıqca qürurlandım. Ruhunuz şad olsun igidlər, qardaşlarım, oğullarım".

Bəli, bu gün Nəzifə Qaybaliyeva kimi qadınların, Vətəni ana bilən qızların, oğulların torpağa qarışan qanı hesabına vətənimiz bütövdür, azaddır, xalqımız qalibdir. Vətənini öz canından əziz bilən vətənpərvər insanların, bədənində düşmən mərmisinin qəlpəsini ömrünün sonuna kimi daşısa da, mübarizliyini itirməyən döyüşçü qadınların Vətən eşqi ilə çırpınan ürəyinin sayəsində alnımız açıq, başımız ucadır.

# Azərbaycanda ağacəkmə aksiyaları davam edir



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hər iki qurumun rəsmilərinin və əməkdaşlarının, eyni zamanda, könüllülərin iştirakı ilə keçirilən aksiya çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Ağacəkmə aksiyasının keçirilməsində məqsəd yaşıllıq sahələrinin artırılmasını təşviq etmək, ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin təmini və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir.

# DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi "Ekoloji maarifləndirmə sahəsində ən yaxşı tərəfdaş" nominasiyası üzrə təltif edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən 2024-cü ildə "Ekoloji maarifləndirmə sahəsində ən yaxşı tərəfdaş" nominasiyası üzrə təltif edilib.**



DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev tərəfindən mükafat mərkəzin direktor müavini Mətanət Məmmədovaya təqdim olunub.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində mərkəzdə həssas qruplara aid şəxslərin ekoloji maarifləndirilməsi işləri aparılıb, onların ETSN-nin təmizlik aksiyaları və abadlaşdırma işlərində fəal iştirakı təmin olunub.

Mərkəzdə istifadəyə yararsız məhsullardan hazırlanmış əl işlərindən ibarət sərgi, konsert və müxtəlif layihələr gerçəkləşdirilib. Habelə mərkəzin təlimçi və benefisiarlarının ekoloji mövzularda əl işləri beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilib. Mərkəz və "DOST Evi" filialının 1000 kvadratmetrlik həyətyanı ərazilərində ağacəkmə aksiyaları keçirilib.

Pre-COP və COP29 tədbirlərində həssas qruplara aid şəxslərin də iştirakı təmin olunub. Yaşıl zonada mərkəzin təlimçi və benefisiarının təqdim etdiyi konsert və sərgi böyük maraqla qarşılanıb.

# İtaliya saytı Azərbaycandakı Alban-Udi xristian icmasından yazıb

**İtaliyanın "Med-Or" Fondunun saytında Azərbaycanda yaşayan Alban-Udi xristian dini icması haqqında məqalə dərc olunub.**




AZƏRTAC xəbər verir ki, Vatikanın yeganə rəsmi mətbuat orqanı olan "L'Osservatore Romano" qəzetinin jurnalisti Rossella Fabianinin müəllifi olduğu "Udi icmasının yaşadığı Azərbaycan dağlarında" sərlövhəli məqalədə Alban-Udi xristian dini icmasının Azərbaycanın dağlıq regionunda - paytaxt Bakıdan təxminən 240 kilometr uzaqlıqda yerləşən Qəbələ rayonunun Nic qəsəbəsində yaşadığı bildirilir. Məqalədə diqqətə çatdırılır ki, udilər eramızın IV əsrində xristianlığı qəbul etmiş Qafqazın qədim alban əhalisinin törəmələridir.

Jurnalist Bakıdan Şamaxıyadək olan yolboyu Qafqaz ərazisini görmək imkanı əldə etdiyini, avtomobilin pəncərəsindən müxtəlif mənzərələrin - ən səhra ərazilərdən üzüm tinglərinin olduğu yaşıllıqlara, portağal, şabalıd ağaclarına qədər- şahidi olduğunu bildirir. Bildirir ki, Nic yolu Şamaxıya, oradan da Gürcüstana gedən yoldur. Vaxtilə Azərbaycanın paytaxtı olan Şamaxı çoxlu zəlzələlərin baş verdiyi ərazidədir: "1902-ci ildəki zəlzələdə şəhər tamamilə dağılıb. Gözəl təbiəti olan Şamaxı Qafqazın ən qədim şəhərlərindən biridir".

Rossella Fabiani səfər müddətində Alban-Udi xristian dini icmasının sədri Robert Mobilinin onu müşayiət etdiyini deyir: "Səfər zamanı Robertin bizə göstərdiyi Böyük Qafqaz dağlarını görürük. O deyir: Kiçik Qafqaz dağları Qarabağdadır. Böyük Qafqaz dağları isə Qubadan başlayıb Qara dənizdə bitir".

Məqalədə qeyd olunur ki, Nic qəsəbəsində 5 məktəb var. Burada dərslər Azərbaycan və rus dillərində, dördüncü sinfə qədər isə udi dilində tədris olunur. Nic qəsəbəsindəki 5 nömrəli tam orta məktəbin direktoru Venera Antonova qədim udi dilini öyrətmək üçün iki kitab yazıb. Robert Mobili də udi dilinin qorunub saxlanması üçün böyük işlər görüb. O, Azərbaycan dili-udi dili lüğətini tərtib edib.

Yazıda Robert Mobilinin digər fikirlərinə yer verilir: "Bizim kilsəmiz 1836-cı ilədək, daha dəqiq desək, həmin il martın 11-nə, rus çarı I Nikolayın Alban kilsəsini Erməni Qriqorian kilsəsinə tabe etmək qərarına gəldiyi vaxtadək mövcud ola bildi. Həmin vaxtdan etibarən alban mənbələrinin erməni dilinə tərcüməsi başlandı. Udilər bu qərarı rədd edərək evdə ibadət etməyə başladılar. Onlar qriqorianlaşmaq istəmirdilər və dillərini, kimliklərini qoruyub saxladılar. Çar Rusiyası Qafqazda "parçala, idarə et" prinsipini dəhşətli şəkildə tətbiq etdi: xalqları parçaladı, dindən istifadə edərək nifrət hissi yaydı".

"Biz apostol kilsəsiyik, çünki 12 həvaridən biri olan Varfolomey eramızın 71-ci ilində Bakıya gəlib. Həvari Bakının tarixi hissəsi olan İçərişəhərdə şəhid olub, burada ona həsr olunmuş kilsə də var idi. Kilsə sovet dövründə dağıdıldığı üçün bu gün artıq mövcud deyil. Varfolomeydən əvvəl Qüdsün ilk patriarxı Müqəddəs Yaqubun adından Qafqaza göndərilmiş Müqəddəs Yelişanın bu torpaqlarda xristianlığı və Qafqazın ən qədim kilsəsi olan Kişi təbliğ edib. Üçillik bərpa prosesindən sonra Kiş kilsəsi bu gün əvvəlki quruluşuna qayıdıb. Gürcü və erməni kilsələri də onu Qafqaz kilsələrinin "anası" hesab edirlər. Bu kilsələrin öz kanonik əraziləri var idi ki, bu da indiki Azərbaycanın ərazisinə uyğundur. 313-cü ildə Milan fərmanı ilə xristianlıq dövlət dini oldu. O dövrdə Azərbaycanda da monastırların, kilsələrin və ibadətgahların tikintisinə yeni təkan verildi. Lakin ölkədə xristianlığın əsl çiçəklənməsi Qafqaz Albaniyasının hökmdarlarından biri olan Cavanşir sayəsində baş verdi və onun dövründə çoxlu kilsələr tikildi. Onun at belində kiçik heykəli Kiş kilsəsində nümayiş etdirilir", - deyə yazıda qeyd olunur.

Robert Mobili deyir: "Mən İordan çayında vəftiz edildim və Atos dağını ziyarət edən ilk azərbaycanlı oldum. Burada Ksenofont monastırının arximandriti Aleksi öz xaçını mənə verdi. Biz Qüds kilsəsinə, eləcə də Efiopiya və Suriya kilsələrinə yaxınıq. Şərqli qardaşlarımızla əlaqə saxlaya bilməyərək keçirdiyimiz uzun illər liturgiyamız haqqında biliklərimizin çoxunu itirdik. Bu səbəbdən keşişlərimiz liturgiyamızı yenidən öyrənmək üçün qədim Suriya kilsəsinin olduğu Türkiyənin Mardin şəhərinə gedirlər. Mardində türkcə danışırlar və bunu başa düşmək bizim üçün çətin deyil. Bizi iki həftə qarşılayır və qədim kilsələrinin ayinlərini öyrədirlər".

Yazıda qeyd olunur ki, 1996-cı ildə Sinay Palimpsestinin kəşfi eramızın 5-ci və 6-cı əsrlərində udi dilinin mövcudluğunu sənədləşdirir. Alimlər palimpsestdə bütün oxunaqlı səhifələri şərh edib və qədim albanların liturgik dili ilə udi dili arasında davamlılıq tapıblar.

"Xristian reallığımız bizim üçün o qədər canlıdır ki, bütün cəmiyyət tariximizi dirçəltməyə və tanıtmağa sadiqdir. 2002-ci ildə Roma Papası II İoann Pavel Bakıya gələndə biz ona alban xaçımızı təqdim etdik və o anın fotosu kəndimizdə, hər kəsin görə biləcəyi xüsusi yerdə - Nic qəsəbəsindəki "Cotari" alban kilsəsindədir", - deyə Robert Mobili qeyd edir.

Məqalədə vurğulanır ki, bu gün dünyada təxminən 10 min udi var. Nic qəsəbəsində 4 min, Oğuz rayonunda isə 100-ə yaxın udi var və bəziləri də Bakıda yaşayır. Qalanları isə Rusiyada, Gürcüstanda, Qazaxıstanda və Ukraynadadır. Özbəkistan, Türkmənistan, Tacikistan, Moldova, Belarus, Litva və Qırğızıstanda kiçik icmalar da var.

Robert Mobili deyir ki, onların hamısı Sovet İttifaqının dağılmasından sonra iqtisadi səbəblərdən buradan köçüblər. Bu gün biz yaşayan xristian icmasıyıq və əsasən kənd təsərrüfatı ilə məşğul oluruq: "Ötən il Bakıda keçirilən ilahiyyat kursunun ikinci hissəsi Nicdə keçiriləcək. Gələcək ilahiyyatçılar, sonradan keşiş təyin olunacaq insanlar burada təhsil alacaqlar. Həmçinin onlar təcrübə mübadiləsi və liturgiya öyrənmək üçün Türkiyənin Mardin şəhərinə gedəcəklər".

Qeyd edək ki, Rossella Fabiani daha əvvəl Azərbaycana səfəri ilə bağlı silsilə məqalələr dərc edib, Qafqaz Albaniyası xristian memarlığından, o cümlədən Xudavəng, Gəncəsər və Xatirəvəng kilsələri haqqında yazıb.

# Zəlzələdən necə qorunmaq olar?

## Araşdırmalar göstərir ki, yüksək riskli ərazilərdə belə tikinti normalarına ciddi əməl edildikdə binalar etibarlı olur

**Zəlzələlər təbiətin ən güclü və dağıdıcı hadisələrindən biridir. Hər il dünya miqyasında baş verən yüzlərlə zəlzələ minlərlə insanın həyatını itirməsinə, yaşayış binalarının, mühüm infrastruktur obyektlərinin və iqtisadiyyatın ciddi şəkildə zərər görməsinə səbəb olur. Xüsusilə 2023-ci ildə Türkiyədə baş verən dəhşətli zəlzələ bu reallığı bir daha dünyaya xatırlatdı. Bu faciə nəticəsində minlərlə insan həyatını itirdi, yüz minlərlə insan evsiz qaldı və milyonlarla dollar dəyərində maddi zərər dəydi. Belə hadisələrdə tikililərin dayanıqlılığının, zəlzələlərə qarşı hazırlığın və mühəndis yanaşmasının vacibliyi xüsusi vurğulanır.**



Bu kontekstdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Mexanika kafedrasının professoru və Zəlzələ mühəndisliyi Elmi-Tədqiqat Mərkəzinin direktoru Azər Qasımzadənin fikirlərini aldıq. Mühəndis bildirdi ki, zəlzələlərin tikililərə və insan həyatına təsiri çox mürəkkəbdir. Dünyadakı mövcud tikinti normalarına əsasən, binalar zəlzələyə qarşı layihələndirilərkən üç əsas amil nəzərə alınır: binada yaşayan insanların həyatı, binanın iqtisadi dəyəri və funksiyası. Kiçik və orta şiddətli zəlzələlər baş verəndə bu amillərin binanın istismar müddətində təmin ediləcəyi vəd edilir, lakin böyük zəlzələlərdə yalnız insan həyatının qorunacağı bildirilir. Bu zaman bina iqtisadi dəyərini və funksiyasını itirir, insanlar isə həyatda qalmaları üçün binanı tərk edirlər. Bina istismara yararsız olur və yenidən inşa edilir. Amma güclü zəlzələlərdən sonra insanlar həyatını, şəhər və ölkələr isə dayanıqlılığını itirir.

Mərkəz direktoru qeyd etdi ki, zəlzələ riski yüksək olan bölgələrdə tikinti normalarına ən ciddi şəkildə əməl olunmalı, yüksək keyfiyyətli materiallardan istifadə edilməli və layihələr peşəkar mühəndislər tərəfindən hazırlanmalıdır: "Tikinti başlamazdan əvvəl ərazinin seysmik riski geoloji tədqiqatlarla qiymətləndirilməli, müasir texnologiyalar tətbiq olunmalı və keyfiyyətə daim nəzarət edilməlidir. Azərbaycan dünyada ikinci seysmik aktivlik zonasında yerləşir və ərazisi yüksək seysmik risk altındadır. Bölgələrimizdə zəlzələ riski dərəcəsindən asılı olmayaraq, tikinti normalarına riayət olunması vacib amildir və tikinti normalarına riayət olunmadığı təqdirdə ölkə sərhədləri xaricində baş verən uzun periodlu zəlzələlərin təsirindən zəlzələ riski az olan bölgələrdə də binalar zərər görə bilər".

A.Qasımzadə dedi ki, hər bir zəlzələ ondan əvvəlkilərdə rastlanmayan ən azı bir yeni xüsusiyyətlə qarşıya çıxır. Biz də bu yeni xüsusiyyətə qarşı qurğuların müqavimətini saxlamaq üçün araşdırmalar aparır və əldə etdiyimiz mühəndislik tədbirlərinin növbəti inşa ediləcək qurğuların layihələndirilməsində tətbiqini təklif edirik. Türkiyədə baş vermiş zəlzələdən söz açan professor bildirdi ki, qardaş ölkə də Azərbaycan kimi dünyanın ikinci seysmik aktivlik zonasındadır və maqnitudası 6-dan böyük olan zəlzələlərin 10,5 faizi bu zonada baş verir. Keçmiş zəlzələlərin statistik məlumatlarına əsaslansaq, orta hesabla Türkiyədə hər 7 ildən bir dağıdıcı zəlzələ baş verir. Dünyada 7-7,9 maqnitudada zəlzələlərin illik ortalama sayı 18-dir. İki nöqtədən yayılan zəlzələ dalğalarının interferensiyası, qrunt şərtləri və digər faktorlar zəlzələnin təsirini həmin ərazilərdə daha da gücləndirir. "Beləliklə, zəlzələ bölgəsində aparılan araşdırmalar qurumların bir çox məqamları gözdən keçirməyini şərtləndirdi. İlk olaraq istismar müddəti bitmiş binaları vaxtında yeniləmək vacibdir, inşaat normalarına cavab verməyən binalar mütəmadi olaraq gücləndirilməli, eyni zamanda izolyasiya edilmiş binanın ətrafındakı seysmik boşluqların doldurulmamasına və ya bağlanmamasına xüsusi diqqət yetirilməlidir. Zəlzələdən sonra fasiləsiz xidmət üçün seysmik izolyasiya olunmuş xəstəxananın izolyasiya mərtəbəsində elektrik şəbəkəsi, santexnika, havalandırma və digər sistemlərin müvafiq normalara uyğun hərəkətinin davamlılığı təmin olunmaqla layihələndirilməlidir. Xüsusən, strateji əhəmiyyətli bina və qurğuların sağlamlığı davamlı olaraq izlənməli, monitorinqlər aparılmalıdır.

Mühəndis dünyada baş verən zəlzələlər fonunda belə hallarla qarşılaşmamaq üçün layihələndirmədə əlaqəli normalara riayət olunmasını vacib hesab edir. Onun sözlərinə görə, binaların tikintisində layihənin uyğunluğuna nəzarət edən orqanların müstəqil olmasını təmin etmək vacibdir. Paralel olaraq hər beş ildən bir əlaqəli normaların yenilənməsi həyata keçirilməlidir. "Ölkəmizin zəlzələ riski daşıyan bölgədə yerləşməsi nəzərə alındıqda, mövcud tikililərin dayanıqlılığı müxtəlif dövrlərdə tətbiq edilən tikinti metodlarına əsaslanır. Azərbaycanda mövcud binalar həm tikinti dövrlərinə, həm də konstruktiv xüsusiyyətlərinə görə fərqlənir və onun təsnifatını aparsaq, ilk olaraq 1500-1920-ci illərə aid bina konstruksiyaları ağıla gəlir. Orta əsrlər və XIX əsrin sonu XX əsrin əvvəllərində inşa edilən binalar əhəng daşı süxurlarından yonulmuş daşlarla hörülüb. Orta əsrlərə məxsus binalar bir-iki mərtəbəli, XIX əsrin sonu XX əsrin əvvəllərinə aid binalar isə üç-dörd mərtəbəli tikilib. Çox nadir hallarda beş-altı mərtəbəli binalara da rast gəlinir, mərtəbələrin hündürlüyü 3,5-4,5 metr arasında dəyişir, hörgü məhlulu kimi əhəng məhlulundan istifadə olunub", - deyə o əlavə edib

A.Qasımzadə qeyd etdi ki, sovet dövrünə aid bina konstruksiyaları iki mərhələdə təhlil edilir: 1920-1950-ci illər və 1950-1990-cı illər. Birinci mərhələni əhatə edən binalar, əsasən, daş binalardı və onların zəlzələyə davamlılığına az önəm verilib. İkinci mərhələdə, xüsusilə Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə binaların zəlzələyə davamlılığı məsələsi ön plana çəkilib. Səbəb isə 1948-ci və 1966-cı illərdə baş vermiş Aşqabad və Daşkənd zəlzələləri olub. Ulu Öndərin diqqəti və xüsusi tapşırıqları ilə istər daş, istərsə də dəmir-beton və metal konstruksiyalarından inşa olunmuş binaların zəlzələyə davamlılığı elmi şəkildə öyrənilib və tətbiq edilib. 1988-ci ildə Qərbi Azərbaycanda baş verən dağıdıcı zəlzələdən sonra Azərbaycan hökumətinin qərarı ilə zəlzələ bölgələrində zəlzələ şiddəti 1 bal artırılıb. Qərara əsasən, əgər ərazi 6 ballıqdırsa, hesablamalar 7 bala uyğun aparılır ki, zəlzələ bölgəsində olan tikili öz dayanıqlılığını saxlaya bilsin.

Mühəndis vurğuladı ki, 1992-ci ildən bugünə qədər tikilən binalar ağırlıqlı olaraq yerində tökmə dəmir-beton konstruksiyalara əsaslanır. "Azərbaycanda binaların dayanıqlılıq vəziyyəti 2000-ci il noyabrın 25-də, 21:30 radələrində Bakıdan 50 km məsafədə dənizdə, dərinliyi 12 km olan 6.8 maqnitudalı zəlzələnin nəticələrinə əsaslanıb. Bu zəlzələdə ölkə üzrə 7350 bina müxtəlif dərəcələrdə zədələnib, onlardan 36-sı tamamilə dağılıb. Dağılan binalar arasında 34 yaşayış evi, 1 məktəb və bir mədəniyyət idarəsinin binası var idi. Ümumiyyətlə, baş vermiş zəlzələdən Azərbaycana 21,66 milyon ABŞ dolları həcmində ziyan dəyib. Zədələnən 7350 binanın 70 faizi daş, 25 faizi iripanelli dəmir-beton, 5 faizi isə karkas konstruksiyalı dəmir-beton bina olub. Dəmir-beton konstruksiyaların ömrü yalnız konstruksiyanın materialına deyil, həm də onun istismar şəraitinə bağlıdır. Bu konstruksiyaların ümumi ömrü 50 il olaraq qəbul edilsə də, düzgün istismar və mütəmadi texniki xidmət nəticəsində 100-150 ilə qədər uzana bilər", - deyə A.Qasımzadə əlavə etdi.

Mərkəz direktoru qeyd etdi ki, böyük zəlzələyə qarşı şəhəri təhlükəsiz və dayanıqlı hala gətirmək, şəhər və ölkənin iş davamlılığını təmin etmək, əvvəlkindən daha yüksək seysmik performansa və strukturlara malik binalar inşa etmək vacibdir. Müasir dövrdə seysmik izolyasiya və zədələnməsi idarə olunan qurğularda istifadə olunan söndürücülər əvvəlkindən daha etibarlı və ucuzdur və bu texnologiyalar bir çox qurğulara rahatlıqla tətbiq edilməkdədir.

Növbəti vacib addım isə insanlar üçün yüksək seysmik performanslı bu cür qurğuları seçmək və ondan istifadə etməkdir. Plastik deformasiya bu yeni qurğularda istifadə olunan seysmik izolyasiya və söndürücülərində baş verə bilər. Bu xüsusiyyət sayəsində tikililəri xilas etmək və dağıdıcı zəlzələlərdən sonra istifadəsini saxlamaq mümkün olur. Faktiki konstruktiv layihələndirmə hesabatlarına görə, zədələnməsi idarə olunan kimi layihələndirilən metal konstruksiya binalarda metalın ümumi çəkisi 10-20 faiz arasında azaldıla bilər. Bu azalma nisbəti söndürücülərin maliyyətini artıqlaması ilə qarşılayır.

Professor qeyd etdi ki, yüksək təhlükəsizlikli binaların və qurğuların davranışını izləmək üçün monitorinq mərkəzi olmalıdır: "Bu layihə artıq qrant qazanıb və bu ildən etibarən AzMİU-nun Zəlzələ Mühəndisliyi Elmi-Tədqiqat Mərkəzində yaradılacaq. Bu layihə Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illiyi ərəfəsində ölkəmiz üçün böyük töhfədir. Monitorinq sistemi bina və qurğuların istismarı zamanı zəlzələ, fırtına, partlayış, güclü yağışlar, eyni zamanda digər fiziki-kimyəvi xarici təsirlər nəticəsində baş verən konstruktiv dəyişiklikləri mütəmadi izləməyi, təhlil etməyi və önləyici tədbirlər almağı təmin edir. Bu yanaşma zəlzələ və digər xarici təsirlərə qarşı hazırlıqlı olmağa və zərərlərini minimuma endirməyə kömək edəcək. Mərkəzdə aparılacaq işlər binaların reaksiyalarını ölçmək, layihədəki vəziyyətə uyğunluğunu müəyyən etmək və bu vəziyyəti hər zaman izləmək üzərində qurulacaq. 24 saat fasiləsiz fəaliyyət göstərəcək monitorinq sistemi vasitəsilə binanın davranışında hər hansı bir dəyişiklik - layihədəki vəziyyətə uyğunsuzluq müşahidə edildikdə bina sahibinə dərhal xəbərdarlıq ediləcək".

A.Qasımov sonda qeyd etdi ki, hər zəlzələdən sonra yüksək təhlükəsizlikli bina və qurğuların davranış sərhədini aşma durumu yoxlanılmalı və hədd aşılarsa, vəziyyət bildirilməlidir. Binaların aşma səbəbi araşdırılmalı və təmiri zəruri olduqda təmir layihəsi hazırlanaraq sahibinə təqdim edilməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Xəzər dənizində zəlzələ qeydə alınıb

**Yanvarın 25-də Xəzər dənizində zəlzələ qeydə alınıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.**

Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, saat 17:22-də qeydə alınan zəlzələnin maqnitudası 3.1-ə bərabər olub. Yeraltı təkanların ocağı 66 kilometr dərinlikdə yerləşib.






Günahsızlar

# Professorun müəmmalı ölümü

**Ölkəmizdə ötən əsrin 30-cu illərinə kimi yazıçı və şairlər əvvəlki dövrlərin ənənəsinə uyğun olaraq ayrı-ayrı ədəbi birliklərdə, dərnəklərdə, cəmiyyətlərdə fəaliyyət göstərirdilər. Lakin 1934-cü il 13-14 iyul tarixlərdə Azərbaycan yazıçılarının Bakıda keçirilən I qurultayında bolşevizm ideologiyası onların bir qurum ətrafında birləşmələrinə nail oldu. Həmin qurultayda 29 yaşlı Məmmədkazım Ələkbərli yeni yaradılan Azərbaycan Sovet Yazıçıları İttifaqına sədr seçildi.**

Məmmədkazım Ələkbərli 1905-ci il yanvarın 24-də Dərbənd şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Orada orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra 1923-cü ildə Bakıya gəlib Azərbaycan Pedaqoji İnstitutunun (indi Tusi adına ADPU) Dil və ədəbiyyat fakültəsinə qəbul olunub. O, tələbəlik illərində əla qiymətlərlə oxumaqla bərabər, institutun ictimai işlərində də fəallıq göstərib. Türkiyədən dəvətli olan doktor Xəlil Fikrət, professor İsmayıl Hikmət və Mühiddin Birgenin sevimli tələbələrindən biri kimi tanınıb.

Ali təhsilini bitirdikdən sonra Məmmədkazım Ələkbərli Gəncə Vilayət Xalq Maarif Şöbəsinə müdir və "Qızıl Gəncə" jurnalına baş redaktor təyin edilib. Görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədovun təbirincə desək, onun əsas mövzuları milli bədii ədəbiyyat və jurnalistika olub. Daha çox Mirzə Cəlil və M.Ə.Sabir yaradıcılığına müraciət edib. Tədqiqatçı şairin yaradıcılığını və şəxsiyyətini yüksək qiymətləndirərək onu "Ən mühüm şəxsiyyət" adlandırıb.

Milli ruhlu Məmmədkazım Ələkbərli əmək fəaliyyətinə başladığı ilk gündən millətinin təhsil almasına, azad və xoşbəxt həyat sürməsinə çalışıb. Gəncə bölgəsində savadsızlığın ləğvi və yeni məktəblərin açılmasında əlindən gələni əsirgəməyib. Xalqın maariflənməsində mətbuatın təşkilini vacib amillərdən hesab edib, pedaqoji-təşkilati işlərlə yanaşı, bədii yaradıcılığa da meyil göstərib.

İdeoloji işlərin təşkilində təcrübəsi, jurnalistik qabiliyyəti nəzərə alınaraq onu iki ildən sonra "Dağıstan firqəsi" qəzetinin nəşrini təşkil etmək üçün Dağıstana göndərirlər. Bu işi yoluna qoyub, sonra orada iki il "Maarif yolu" jurnalının baş redaktoru işləyir. Həmin illərdə milli ədəbiyyat yaratmaq məqsədilə gözəl şeirlər yazan Almas İldırım da o vaxt Dağıstanda sürgündə idi.

Məmmədkazım Ələkbərli ona hamilik edir, məqalə və şeirlərinin "Dağıstan firqəsi"ndə çapına yaşıl işıq yandırır. Az sonra redaksiyada işə də götürür. O zaman sovet quruluşuna qarşı çıxan və buna görə sürgünə göndərilən "xalq düşməni"nə qayğı göstərmək Xalq Daxili İşlər Komissarlığı və Dövlət Siyasi İdarəsinin əməkdaşları tərəfindən heç bir halda bağışlanmazdı.

22 yaşında Məmmədkazım Ələkbərli "İdealizm və materializm və yaxud yeni fəlsəfə", 24 yaşında "Yeni əlifba və orfoqrafiya", 30 yaşında "Azərbaycan ədəbiyyatı" adlı sanballı kitabların müəllifi və dövri mətbuatda müntəzəm çıxış edən yazarlar kimi məşhurlaşır. Ədəbiyyatdan, mətbuatdan siyasi təbliğat vasitəsi kimi istifadə edən hökumət onu siyasi xadim kimi də yetişdirmək fikrinə düşür. Dağıstan KP Vilayət Komitəsinin rəhbərliyi Məmmədkazım Ələkbərliyə böyük etimad göstərərək onu Moskvaya Qırmızı Professorlar İnstitutuna oxumağa göndərir. M.Ələkbərli burada da (1930-1934) nümunəvi olur. Qırmızı Professorlar İnstitutunu bitirdikdən sonra ÜİK(b)P MK-nın tövsiyəsi ilə Azərbaycana partiya işinə göndərilir. Fəaliyyəti dörd il öncə dayandırılan Azərbaycan Dövlət Universitetinə rektor təyin edilir, 1934-cü il 13-14 iyul tarixlərdə Məmmədkazım Ələkbərli yazıçı və şairlərin Bakıda keçirilən I Qurultayında Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, Səməd Vurğun isə məsul katibi seçilir.



M.Ələkbərli mətbuat səhifələrində dərc etdirdiyi publisist yazıları ilə milli ədəbiyyatşünaslığın və fəlsəfi fikrin inkişafı uğrunda mübariz kimi də tanınırdı. Mərhum ədəbiyyatşünas-alim Nazif Qəhrəmanlı Məmmədkazım Ələkbərli haqqında məqalələrindən birində yazır: "Məmmədkazım Ələkbərli Azərbaycan ədəbiyyatı tarixinin təbliğinin, onun faktlarının üzə çıxarılmasının, əhatəli və mükəmməl şəkildə toplanıb nəşr edilməsinin tərəfdarı di. O, həmişə istər nəzəri, istərsə də praktik fəaliyyətdə klassik irsə qayğı və diqqətin təmsilçisi kimi çıxış edirdi".

Tələbəlik illərindən milli təəssübkeşliyi ilə diqqəti çəkən Məmmədkazım Ələkbərli Gəncə Vilayət Xalq Maarif Şöbəsinin müdiri olanda şəhərdəki Pedaqoji Texnikumu bitirən gənclərlə görüşəndə millətin onlardan nələr gözlədiyini anladar, türk uşaqlarının ana dilindəki məktəblərə güclü ehtiyacı olduqlarını söyləyirdi. Lakin 1930-cu illərdən başlayaraq o, ehtiyatla hərəkət etməyi üstün tutur. Məruzə və çıxışlarını sovet ideologiyasının tələblərinə uyğun qurur. Tələbəlik illərindən milli ruhlu azərbaycanlı gənc kimi tanınan Məmmədkazım Ələkbərli tədricən sovet ideoloquna çevrilir. Yaradıcılığını marksizm-leninizm metodologiyasına istiqamətləndirir. Ona görə də hakim ideologiyanın təşkilatçısına və təbliğatçısına çevrilir. Azərbaycan KP MK-nın "Kommunist" nəşriyyatına direktor təyin olunur, "Ədəbiyyat qəzeti", "Bakinski raboçi", "Vışka" qəzetlərində, "Zərbəçi", "Sürət". "İnqilab və mədəniyyət", "Firqə işçisi" jurnallarında baş redaktor işləyir.

Məmmədkazım Ələkbərlinin ədəbi irsi zəngindir. Ötən əsrin 20-30-cu illərində dövri mətbuatda publisist yazıları və ədəbi-tənqidi məqalələri ilə çıxış edir. "Oktyabr inqilabı və Azərbaycan ədəbiyyatı", "Şura ədəbiyyatı yüksəliş yollarında", "Aprel ədəbiyyatı", "Aydın"dan "Yaşar"a, "Dönüş" və s. məqalələrində Azərbaycan sovet ədəbiyyatının aktual problemlərinə toxunur. Milli dildə fəlsəfə dərsliyinin yaradılmasına böyük əmək sərf edir. Onun elmi axtarışları bir tərəfdən tarixə, axtarışlara, təfəkkürə söykənirdisə, digər tərəfdən fikirləri sosializm ideologiyasına uyğunlaşdırılırdı. 1935-ci ildə çap edilmiş "Azərbaycan ədəbiyyatı" adlı əsərində ədəbiyyatımızın tarixi, ayrı-ayrı dövrləri, insanların yaradıcılığı ilə bağlı fikirlər toplanıb.

Müasirlərindən bəziləri: "M.Ələkbərli müasiri olduğu şair və yazıçılar, tənqidçilər, eləcə də klassik ədəbiyyatımız haqqında söz deyərkən müəyyən mənada ehtiyatlı olmağa çalışmış", "Bu görkəmli ədəbiyyatşünas-alim çabaları ilə bahəm, bəzən zəmanə ilə addımbaaddım ayaqlaşırdı" kimi fikirlər işlətsələr də, öz kristal dönməzliklərinin güdazına getmiş Mikayıl Rəfili, Əhməd Cavad, Almas İldırım və başqalarının onun haqqında yazdıqları rəğbət hissi ilə dolu məqalələrdən görünür ki, bu adam dövrün "mübahisəliləri"ndən çox mübarizlərindən olub".

Məmmədkazım Ələkbərli Azərbaycan KP MK-nın katibi Mircəfər Bağırovla dost olub. Bacısı qızı Sara xanım mətbuata açıqlamalarında bildirib ki, dayısı Moskvada təhsilini başa vurub Bakıya gələndən sonra onları da Bakıya köçürüb: "Mircəfər bizə tez-tez gələrdi. O vaxt, ümumiyyətlə, dayımgilə ən çox gedib-gələn Səməd Vurğun, Cəfər Cabbarlı, Əhməd Cavad, bir də qeyd etdiyim kimi Mircəfər Bağırov idi. Dayım müəmmalı şəkildə həbs olunanda Mircəfər ona kömək edə bilərdi, amma etmədi".

Zəmanə elə idi ki, sovet quruluşu milli düşüncəli, milli ruhlu Azərbaycan ziyalılarını əvvəl sovet ideologiyasının yalançı təbliğatçısına çevirir, sonra da "xalq düşməni" adı ilə məhv edirdi. O sıradan professor Məmmədkazım Ələkbərli də 1937-ci il avqustun 5-də Xalq Daxili İşlər Komissarlığının təhlükəsizlik mayoru Gerasimovun imzaladığı 978 saylı orderə əsasən həbs edilir, evində axtarış aparılır, özü birbaşa həbsxanaya göndərilir.

Bu dövrün acınacaqlı ədəbi mənzərəsini göz önünə gətirən ədəbiyyatşünas-alim Kamal Talıbzadə yazırdı: "Tarixboyu Azərbaycan yazıçıları, bədii söz ustaları olmazın işgəncələrə, təzyiqlərə məruz qalmışlar. Təkcə sovet hakimiyyəti illərində yüzlərlə Azərbaycan yazıçısının uzaq Sibir çöllərinə göndərilib məhv edilməsini, onillərlə qaranlıq zindanlarda saxlanılıb qətlə yetirilməsini, İkinci Dünya müharibəsinin qızğın atəş nöqtələrinə sürgün edilməsini xatırlamaq kifayətdir".

33 yaşlı professor bir il iki ay rütubətli zirzəmilərdə əzablı günlər keçirir, təhqirlər, işgəncələrlə üzləşir. Onu 1935-ci ildə Mikayıl İsmayılzadəni (Mikayıl Müşfiq) "Müsavat" gənclər təşkilatına cəlb etməkdə, habelə əksinqilabi burjua millətçi təşkilatının üzvü, sovet hökumətinə qarşı silahlı üsyan haqqında xəbəri olan və sovet hökuməti rəhbərlərinə qarşı terror mövqeyində dayanan şəxs kimi CM-nin 72, 73-cü maddələri ilə təqsirli bilirlər. 1938-ci il oktyabrın 12-də SSRİ Ali Hərbi Kollegiyasının səyyar sessiyasının qapalı iclasında o, müdafiəsiz və şahidsiz əmlakı müsadirə olunmaqla ən ağır cəzaya - güllələnməyə məhkum edilir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Deportasiya

# Tarixi ədalət bərpa olunacaq

**Ermənilər qədim Azərbaycan torpaqlarına ayaq açandan sonra bu yerlərin əbədi-əzəli sakinləri olan azərbaycanlıları müxtəlif yollarla ata-baba yurdlarından sıxışdırıb çıxarmağa başladılar, çirkin məqsədlərinə çatmaq üçün bütün vasitələrə əl atdılar. Gah gizlin, gah da elə açıq şəkildə azərbaycanlıları doğma ocaqlarından qovub çıxardılar. Məqsədli və planlı şəkildə dünyanın müxtəlif yerlərindən gələn ermənilər bu ərazilərdə yerləşdilər, tarixin gedişini dəyişməyə çalışdılar.**



Təkcə XX əsrdə ermənilər sonralar Ermənistan adlandırılan qədim Azərbaycan toprpaqlarından 1905, 1918-1920, 1948-1956, 1987-1988-ci illərdə azərbaycanlıları kütləvi şəkildə deportasiya etdilər. Qan qoxulu bu deportasiyalar nəticəsində indiki Ermənistan ərazisində yaşayan 1,5 milyondan çox soydaşımız tarixi torpaqlarından qovuldu. Yaxın keçmişdə 1987-1988-ci illərdə Ermənistandan 200 mindən çox azərbaycanlı doğma ocaqlarından didərgin düşdü. Ermənilər azərbaycanlıları ata-baba yurdlarından qovandan sonra izlərini itirmək, olanları, qalanları tarixin səhifəsindən silmək üçün kənd, qəsəbə və şəhərlərin adlarını dəyişdilər. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra da bu siyasət davam etdirildi. Ermənistan SSR Ali Sovetinin qərarı ilə qısa müddət ərzində azərbaycanlılar yaşayan 940 yaşayış məntəqəsindən 698-nin adı dəyişdirilərək erməni adları ilə əvəz olundu. Bu yerlərdə əsrlərə şahidlik edən, azərbaycanlılara məxsus olan tarixi abidələr, məscidlər, qəbiristanlıqlar darmadağın edildi. Addəyişmə əməliyyatı sovet hakimiyyəti dağılandan sonra da dayanmadı. Ermənistanın keçmiş prezidenti, başdan-ayağadək daşnak xislətli Levon Ter-Petrosyanın 1991-ci il 9 aprel tarixli fərmanı ilə son 91 azərbaycanlı yaşayış məntəqəsinin də adı dəyişdirilərək erməniləşdirildi.

1988-ci il noyabrın ortalarında Ermənistandan Azərbaycana minlərlə qaçqın pənah gətirmişdi. Noyabrın 22-də Ermənistan SSR Ali Sovetinin azərbaycanlı deputatların iştirakı olmadan növbədənkənar sessiyası çağırılmışdı. Sessiyanın keçirildiyi opera teatrının binasının qarşısına toplaşan mitinq iştirakçılarının hücumundan sonra Ermənistan rəhbərliyi etirazçıların tələbi ilə sessiyanın gedişini dayandırmış, deputatları və rayon rəhbərlərini "qayda-qanunu bərpa etmək" adı altında yerlərə göndərmişdi. Rayon rəhbərlərinə tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını başa çatdırsınlar. Rusiya tarixçisi Yuri Pompeyev 1988-ci ilin payızında azərbaycanlıların Ermənistandan deportasiyasını belə təsvir etmişdir: "Müdafiəsiz, silahsız azərbaycanlıları adətən çılpaq və əliyalın evlərindən qovaraq deyirdilər: "Lənətə gəlmiş türklər, rədd olun Ermənistandan!"

İnsanlıq duyğuları olmayan vəhşiləşmiş ermənilər 1988-ci il noyabrın 25-dən 26-na keçən gecə Kirovakan (indiki Vanadzor) şəhərinə bitişik olan Şaumyan (əvvəlki adı Vartanlı olmuşdur) kəndində yaşayan azərbaycanlıları öldürmək məqsədilə silahlı hücuma keçmişlər. Ermənilər 14 nəfər azərbaycanlını vəhşicəsinə öldürmüş və sonra da izi itirmək üçün meyitləri yandırmışdılar. Sağ qalan kənd əhalisi qarlı-çovğunlu soyuq günlərdə dağlara, meşələrə üz tutmuşdu. Onlar ölümdən xilas olmaq üçün gündüzlər gizlənmiş, gecələr yol getmiş, yalnız 14 gündən sonra Azərbaycana gəlib çata bilmişdilər.

Ermənistan rəhbərliyi həmişə azərbaycanlılara qarşı milli ayrı-seçkilik siyasəti yürütmüşdür. 1987-1988-ci illərdə Ermənistanda azərbaycanlıların başına gətirilən faciələr, qanlı hadisələr həmin siyasətin ağrılı-acılı nəticələri idi. Sənədlər və şahidlərin verdikləri ifadələr əsasında 1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988-1990-cı illər ərzində Ermənistanda 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşdur. Həmin siyahıya əsasən, 52 nəfər aldığı xəsarət nəticəsində həyatını dəyişmiş, 34 nəfər işgəncə ilə, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda məqsədli şəkildə qəzaya uğradılmış, 7 nəfər həkim qəsd nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, 1 nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, 1 nəfər elektrik cərəyanı ilə, 1 nəfər suda boğulub öldürülmüş, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşərək donmuşdur.

Üstündən neçə illər keçsə də, tarixi torpaqlar, doğma ocaqlar heç vaxt unudulmur, yaddan çıxmır. Bu gün hər bir azərbaycanlının ürəyində, qəlbində Qərbi Azərbaycan torpaqlarının acı xatirəsi yaşayır. Vətən hər birimizin ruhunu oxşayan müqəddəs bir məkandır. İllər əvvəl Qərbi Azərbaycandan qaçqın düşənlər günlərin birində doğma ocaqlarına qayıdacaqları günü intizarla gözləyirlər. "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisi olan Qərbi Azərbaycan İcması yarandığı gündən gördüyü mühüm işlərlə, həyata keçirdiyi zəruri tədbirlərlə Qərbi Azərbaycana dönüşü addım-addım yaxınlaşdırır.

Ümummilli Lider Heydər Əliyev 1988-ci ildə Ermənistandan zorla qovulmuş azərbaycanlıların günlərin birində doğma ocaqlarına qayıdacaqlarına böyük ümidlər bəslədiyini dilə gətirərək uzaqgörənliklə demişdir: "Mən inanıram ki, bizim bölgədə hər şey Azərbaycan xalqının xeyrinə dəyişəcək, xalqımız gələcəkdə mütləq və mütləq gedib öz gözəl Göyçə torpağını, doğma dağlarını, bulaqlarını, çaylarını, ata-babalarının qəbirlərini görəcəkdir. Mən buna heç şübhə etmirəm".

Qərbi Azərbaycan İcması Prezident İlham Əliyevin tapşırığı və tövsiyələri əsasında bu istiqamətdə çox səmərəli işlər görür, geniş fəaliyyət göstərir. Beynəlxalq aləmdə Qərbi Azərbaycan həqiqətlərinin tanıdılmasına çalışan və addım-addım buna nail olan icmanın fəaliyyətinin əsas məqsədi soydaşlarımızın bir zamanlar zorla qovulduqları doğma torpaqlarına sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə qayıtmalarının təmin edilməsi prosesinə dəstək vermək və onu sürətləndirməkdir. Aparılan işlər nəticəsində icmanın bir neçə sənədi BMT-də bu təşkilatın rəsmi sənədi kimi yayılıb. Bundan başqa, Qərbi Azərbaycanın həqiqətlərinin dünyada tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, forumlar təşkil olunub.

Bu gün ermənilər bir zamanlar törətdikləri cinayətləri tarixin səhifəsindən silməyə, onun üstünü ört-basdır etməyə çalışırlar. Amma unudurlar ki, bu, mümkün deyil. Çünki tarix yamaq götürmür, nə varsa, nə olubsa, odur. Bir zamanlar ermənilər dünyadakı himayədarlarına arxalanıb xəyallara dalaraq "dənizdən-dənizə böyük Ermənistan" ideyasını gerçəkləşdirməyə çalışsalar da, istəklərinə nail ola bilmədilər. İndi ermənilər nə qədər çalışıb-çabalasalar da, azərbaycanlıların bir zamanlar didərgin salındıqları torpaqlara, Qərbi Azərbaycana qayıdışının qarşısını ala bilməyəcəklər. Çünki azərbaycanlılar bu yerlərin əbədi-əzəli sakinləridir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Yaddaş

# XDİK "üçlükləri"

**Xalq Daxili İşlər Komissarlığı "üçlükləri" respublika, diyar və vilayət idarələrində "antisovet elementləri"nin repressiyası üçün əməliyyatların aparılması məqsədilə 1937-ci ilin avqust ayından 1938-ci ilin noyabrına qədər fəaliyyət göstərmiş inzibati - məhkəmədənkənar orqandır. Onlar güllələnmə, həbs düşərgəsinə sürgün etmə və türmədə 8-10 il həbs cəzası vermək hüququna malik idilər.**



31 iyul 1937-ci ildə SSRİ Daxili İşlər üzrə xalq komissarı Nikolay Yejov "antisovet elementlərin məhvi" məqsədilə "operativ üçlüklərin" fəaliyyətini təsdiq edən "Keçmiş qolçomaqların, cinayətkarların və digər antisovet elementlərin repressiyası əməliyyatı barədə" 00447 nömrəli operativ əmr imzalamışdır.

Arxiv materiallarına əsasən, 1 oktyabr 1936-cı ildən 1 noyabr 1938-ci ilə qədər SSRİ XDİK orqanları tərəfindən 1 565 041 insan həbs edilmişdir. O cümlədən XDİK-in 00447 nömrəli əmrinə əsasən isə 702 656 nəfər tutularaq ittihama cəlb olunmuşdur. Bu qısa dövr ərzində 668 305 nəfər güllələnmişdir.

Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi tərəfindən görünməmiş vəhşiliklə həyata keçirilirdi. Sumbatovun, Borşevin, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və qeyrilərinin əli ilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi bir ucdan məhv edilmişdir. Hər bir "xalq düşməni"nə məhkəmə zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı.

### "Üçlüklər"ə qarşı repressiya

Üçlüklərin əksər üzvləri 1938-ci ildən sonra repressiya olunublar. ÜKP MK və SSRİ XKS-nin ortaq qərarında qeyd edilirdi ki, istintaqları sadələşdirilmiş şəkildə keçirmələrinin nəticəsində "XDİK işçiləri agentura-məlumat işlərini tamamilə başlı-başına buraxıblar" və bu üçlüklərin işində həm də "qanunla müəyyən edilmiş prosessual qaydaların kobud şəkildə pozulması və istintaqın gedişatına məsuliyyətsiz münasibət" öz yerini alıb. Bir sıra XDİK əməkdaşları bilərəkdən sovet qanunlarını təhrif edərək, saxtakarlıqlar törədiblər, istintaq sənədlərini dəyişdirərək əsassız ittihamlarla insanları məsuliyyətə cəlb ediblər, hətta günahsız insanlara qarşı təxribat məqsədilə heç bir dəlil-sübut olmadan cinayət işləri tərtib ediblər, eyni zamanda antisovet fəaliyyəti olan şəxsləri gizlətmək, onlarla əlbir olmaq və cinayətlərini ört-basdır etmək üçün də hər cür əməllərə gediblər.

Ruben Ambartsumoviç Markaryan 1955-ci ilin əvvəlində "qəsdçi Beriya-Bağırov qrupu"nun iştirakçısı kimi həbs edilmiş və Butırka həbsxanasının təkadamlıq kamerasına yerləşdirilmişdir. Xoren İvanoviç Qriqoryan 1953-cü ilin mayında həbs olunmuş, hərbi rütbəsindən məhrum edilmiş, sonradan məhkəmənin qərarı ilə güllələnmişdir. İstintaqın gəldiyi qənaətə görə, X.Qriqoryanın iştirakı ilə 100-ə yaxın cinayət işi saxtalaşdırılmışdır.

Timofey Mixayloviç Borşev 1955-ci il yanvarın 25-də həbs edilmiş, 1956-cı il mayın 16-da güllələnmişdir. Bəraət almamışdır. İvan Mixeyeviç Zaryanov Stalinin ölümündən sonra həbs edilmiş, general-mayor rütbəsindən məhrum olunmuş, Sov.İKP sıralarından çıxarılmışdır. İvan Osipoviç Matuleviç 1955-ci ildə cinayət işlərini saxtalaşdırdığını etiraf etmiş, həmin ilin avqustunda partiya sıralarından xaric olunmuşdur. Yuvelyan Davidoviç Sumbatov-Topuridze 1953-cü il iyulun 15-də tutulmuşdur. Həmin ilin dekabrında psixiatriya xəstəxanasına yerləşdirilmiş, istintaq zamanı vəfat etmişdir. Andrey Aleksandroviç Jdanov 1948-ci ildə Moskvada ürəktutmasından dünyasını dəyişmişdir.

Akademik Ziya Bünyadov yazırdı: "Həmin illərdə bizim sovet Azərbaycanına başçılıq edənlər tərəfindən neçə yüz min şəxsin məhv edildiyini hesablamaq çətin və bəlkə də qeyri-mümkündür. İbrətamizdir ki, öz həmvətənlərinə qarşı qırmızı terroru düşünüb həyata keçirənlərin özləri də cilovsuz qan çanağının qurbanı oldular. Külək yaradanlar tufana düşdülər".

*İ.ƏLİYEVA,*
*"Azərbaycan"*

# "...Qazaxın dörd kəndinin azadlığına aparan yol gənclərin gözü ilə"





**Qazaxda "1990-cı illərin əvvəllərində işğal altına düşmüş Qazaxın dörd kəndinin azadlığına aparan yol gənclərin gözü ilə" adlı tədbir keçirilmişdir. Tədbirdə həmçinin "Dünya Vətəndən başlayır" adlı kitab təqdim olunmuşdur.**

Ədəbiyyat Muzeyində keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, "Füyuzat" jurnalının redaktoru Samir Ramizoğlu, Azərbaycan Yazıçılar Birliyi Qazax Bölməsinin sədri, Əməkdar incəsənət xadimi şair Barat Vüsal, təhsil və mədəniyyət işçiləri, Qazax Rayon İcra Hakimiyyəti yanında Gənclərin Yerli Məşvərət Şurasının üzvləri, Bakı Dövlət Universiteti Qazax filialının və Qazax Dövlət Sosial-İqtisad Kollecinin müəllim və tələbələri iştirak etmişlər.

Qeyd edilmişdir ki, 2024-cü ilin ən önəmli hadisələrindən biri də Qazaxın 4 kəndinin bir güllə atılmadan doğma sakinlərinə qaytarılması oldu. Bildirilmişdir ki, bu kəndlərin geri qaytarılmasına gedən yol Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində, 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatları zamanı qazandığımız şanlı qələbələrdən keçdi. Qanları ilə tarix yazan qəhrəman oğullarımızın sayəsində bu gün doğma Qarabağda - Şuşada, Xankəndidə, Xocalıda, işğaldan azad olunmuş digər torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır.

Tədbirdə çıxış edən Rəcəb Babaşov bildirmişdir ki, azad olunmuş kəndlərlə bağlı Azərbaycan dövləti heç vaxt öz mövqeyindən bir addım da olsun çəkilmədi: "Bütün məsələləri inamla və ardıcıllıqla həyata keçirdi. Birinci mərhələdə Qarabağın və Şərqi Zəngəzurun böyük hissəsi, sonra isə işğal altında qalan hissə antiterror əməliyyatı zamanı işğalçılardan azad edildi və Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Qazax rayonunun dörd kəndinin - Aşağı Əskipara, Bağanıs Ayrım, Qızılhacılı və Xeyrımlı kəndlərinin hərbi əməliyyatsız, bir güllə belə atılmadan Azərbaycana geri qaytarılması dövlətimizin növbəti qələbəsi oldu".

Sonra Səməd Seyidov çıxış edərək tədbirin əhəmiyyətini vurğulamışdır. "1990-cı illərin əvvəllərində işğal altına düşmüş Qazaxın dörd kəndinin azadlığına aparan yol gənclərin gözü ilə" mövzusunda keçirilən tədbirin əhəmiyyətini diqqətə çatdıran millət vəkili qazandığımız tarixi qələbənin kökündə Müzəffər Ali Baş Komandanın düşünülmüş siyasətinin, qətiyyətinin dayandığını söyləmişdir.

Barat Vüsal isə tədbir iştirakçılarına səmimi ürək sözlərini çatdırmış, "Dünya Vətəndən başlayır" adlı kitab haqqında fikirlərini bölüşərək sözügedən kitabın hər cəhətdən dəyərli olduğunu qeyd etmişdir. Sonra kitabın müəllifi İradə Qədirova çıxış edərək təqdimat mərasimində səmimi sözlər söyləyən iştirakçılara minnətdarlığını bildirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Bazar günü etüdü




*Daim zirvələrə, yüksəkliklərə ucalmağa can atırıq. Məqsədimizə, amalımıza yetmək üçün gücümüzə güc qatırıq. Aşağılarda qərar tuta, bir yerdə otura bilmirik. Həsrətli baxışlarla yuxarılara boylanırıq, oralara qalxmağa çalışırıq. Arxamıza baxmadan, heç nədən qorxmadan, heç kimdən çəkinmədən irəli gedirik.*

Çətinliklə mübarizə aparmağı, döyüşməyi, savaşmağı sevirik. Zirvələrə çatanda xeyli rahatlanırıq. Asudə, sakit, rahat nəfəs alırıq. Axı artıq arzumuza, istəyimizə çatmış, sevincimizə sevinc qatmışıq.

Əlçatmaz yüksəklikləri, ucadan-uca zirvələri kim sevmir ki?! Hər işin, hər sənətin, hər peşənin zirvəsi əvəzsizdir. Buna görə də zirvələr bizi özünə çəkir. Niyə sevməyəsən ki?! Axı zirvələr günəşə, aya, ulduzlara, ən önəmlisi isə Tanrıya yaxındır. Bəlkə də elə buna görə yüksəkliklərə qalxmaq istəyirik, dünyaya ucalıqlardan baxmaq istəyirik. Əziyyətlərə qatlaşa-qatlaşa əlçatmaz, səsyetməz zirvələri fəth edib oradan Zəfər bayrağı asırıq.

Qartallar da aşağılarda deyil, zirvələrdə yuva qurur. Həmişə ucalıqlarda uçur, göylərdə qanad çalır, səmanın ənginliklərində dolaşır. Təbiətin övladı olan insan da zirvələrdən zövq, qayalardan güc alır, dağlarla baş-başa verib yaşayır, xeyirxah əməlləri, bacarığı, istedadı ilə dünyanı heyrətə gətirir, həmişə insanlara xoş müjdələr yetirir.

Fikrin, düşüncənin də zirvəsi dağın, yüksəkliyin zirvəsinə bənzəyir. Buna görə də təkcə dağların deyil, fikrin, düşüncənin, sözün, insanlığın, təfəkkürün, ağlın, zəkanın və mənəvi dünyamızın başqa önəmli dəyərlərinin zirvəsini fəth edəndə də çox sevinirik. Sanki başdan-ayağa sevincdən don geyirik. Arzumuza çatdığımıza görə ürəyimiz açılır. Geniş açılan ürəyimizdə daim cövlan edən qığılcımlardan qəlbimizə alov saçılır. Çöhrəmizə nur ələnir, dünyanı görən gözlərimiz işığa bələnir. Bu anlarda istəklərimizə qovuşuruq, sevinc içində uğurlarımızla pıçıldaşırıq. Sanki bütün çətin sədləri, keçilməz bəndləri aşırıq. Daim zirvələrdə dolaşırıq. Dağlara çıxanda fiziki rahatlıq tapırıq, fikrin, düşüncənin zirvəsini fəth edəndə isə mənəvi dinclik alırıq.

Hələ qarşıda fəth olunmalı zirvələrimiz çoxdur. Arzulardan arzular doğulan kimi, zirvələrdən də zirvələr doğulur. Bunlar həmişə bizi mübarizəyə, mücadiləyə, döyüşə və sonda zəfərə səsləyir. Böyük əziyyətlərdən sonra onu fəth edəcəyimizə ümidlər bəsləyirik, zirvələrin səsinə səs verə-verə görürük ki, qarşıda mübarizə, döyüş və ürəkləri fərəhlə dolduran Zəfər var.

Həm dağların, həm də fikir və düşüncələrin zirvələrinə aparan yollarımızdan heç vaxt dönməyək. Bu əziyyətli yollarda inamla addımlamaqdan yorulmayaq, ayağımızı ləngidib dayanmayaq. Özümüzü gücsüz, aciz, zəif sanmayaq. Məskən saldığımız zirvələrdən heç vaxt enməyək. Bu yerlərdə əbədi məşəl kimi yandıqca yanaq, heç vaxt sönməyək. Daim yüksəkliklərdə, zirvələrdə qalaq, gələcək nəsillərə yol göstərək, mayak olaq. Çünki dünyamız zirvələrdən, yüksəkliklərdən daha gözəl, daha əsrarəngiz görünür. Həyat getdikcə gözəlləşir, şirinləşir, əlimizdən tutub bizi sabahlara aparır. Sabahlardakı ucadan uca zirvələrə yüksəldir. Daim yüksələk, daim zirvələrə qalxaq, ucaldıqca ucalaq!

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycanda ilk dəfə keçirilən qar voleybolu üzrə ölkə çempionatı start götürüb

**Azərbaycanda ilk dəfə keçirilən qar voleybolu üzrə ölkə çempionatına start verilib.**

AZƏRTAC xəbər verir ki, Şahdağ Turizm Mərkəzində təşkil olunan yarışda qadın ("Azərreyl", "Murov Az Terminal", "Gəncə", "U-21"), 4 kişi ("Azərreyl", "Murov Az Terminal", "Gənclər", "U-21") komandası mübarizə aparır.




Yarışın ilk günündə oyunlar dairəvi sistem üzrə keçiriləcək. Toplanacaq yekun xallara görə, ilk iki pillənin sahibləri çempionluq, 3-cü və 4-cü yeri tutacaq komandalar isə üçüncülük uğrunda oynamaq imkanı qazanacaqlar.

Final və üçüncü yer uğrunda qarşılaşmalar yanvarın 26-da baş tutacaq. Daha sonra qaliblərin mükafatlandırma mərasimi olacaq.

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Mənim sualım var

*Şəxsiyyət vəsiqəmi, diplomumu və onun əlavəsini itirmişəm. Sənədlərimi təzədən almaq üçün nə etməliyəm? Xahiş edirəm ətraflı yol göstərəsiniz.*

**Əlirza ƏLİYEV,**
**Lökbatan qəsəbəsi**

✓ Əslində, sualınız şəxsiyyət vəsiqəsinin və diplomun (əlavəsinin) itirilməsi məsələlərini əhatə etməklə iki hissədən ibarətdir.

Qeyd edək ki, itirilmiş şəxsiyyət vəsiqəsinin yenisi ilə əvəz edilməsi məsələsi Azərbaycan Respublikası Prezidentinin 23.10.2013-cü il tarixli 3 nömrəli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"yə uyğun tənzimlənir. Bu Əsasnamənin 3-cü müddəasına əsasən, itirilmiş vəsiqənin sahibi onu harada, nə vaxt və hansı şəraitdə itirdiyini göstərməklə, vəsiqə verən orqana yazılı məlumat verməlidir. Şəxsiyyət vəsiqəsinin itirilməsi ilə əlaqədar onun yenidən verilməsinə görə dövlət rüsumu ödənildikdən və şəxsiyyət vəsiqəsinin verilməsi haqqında ərizə-anket doldurulduqdan sonra vətəndaşa yeni şəxsiyyət vəsiqəsi verilir. Ərizə-anket forması vəsiqə verən orqanda, "ASAN xidmət" mərkəzində doldurulur. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, şəxsiyyət vəsiqəsinin itirilməsi ilə əlaqədar onun yenidən verilməsinə görə dövlət rüsumu aşağıda göstərilən məbləğdədir:

- 10 iş günü müddətində verildikdə - 30 manat,
- 3 iş günü müddətində verildikdə - 70 manat,
- 1 iş günü müddətində verildikdə - 90 manat

İtirilmiş ali təhsil haqqında diplom və onun əlavəsinin bərpa edilməsi məsələsinə gəldikdə, bununla bağlı qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 saylı qərarı ilə təsdiqlənmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları" ilə tənzimlənir. Həmin qərarla təsdiqlənmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"nın 4-cü maddəsinin tələbinə görə, diplomu və onun əlavəsini itirən şəxs ərizə ilə ali təhsil müəssisəsinin rəhbərinə müraciət etməlidir. Ərizəyə sənədin axtarışda olması barədə məlumat və "Azərbaycan müəllimi" qəzetində verilən elan əlavə olunur. Elanda şəxsin soyadı, adı, atasının adı, diplomun və onun əlavəsinin adı, seriyası və nömrəsi, onu verən ali təhsil müəssisəsinin adı və diplomun verilmə tarixi göstərilir. Ali təhsil müəssisəsi həmin ərizəyə əsasən 15 gün müddətində diplomun və onun əlavəsinin dublikatını verir. Dublikat kimi verilən diplomun və onun əlavəsinin sağ səhifəsinin yuxarı küncündə "Dublikat" ştampı vurulur. Nəzərə almaq lazımdır ki, itirilmiş diplomun və onun əlavəsinin əvəzinə arayış verilməsi qadağandır və həmin arayışların hər hansı hüquqi qüvvəsi yoxdur. Bundan başqa, diplomun və onun əlavəsinin və ya onların dublikatlarının hazırlanması və verilməsinə görə dövlət rüsumu nəzərdə tutulmadığından diplom alanlardan heç bir ödəniş tələb edilmir.

*Təmir şirkəti müqavilədəki öhdəliklərini vaxtında və keyfiyyətli yerinə yetirmirsə, nə edə bilərəm?*

***Famil YARIYEV,***
***Bakı şəhəri***

✓ Müqavilə əsasında təmir fəaliyyəti və onun nəticələrinin tənzimlənməsi məsələləri bir qayda olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 39-cu - "Podrat" fəsli və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" AR qanunu ilə müəyyən edilmişdir.

Beləliklə, əgər təmir şirkəti müqavilə öhdəliklərini vaxtında və ya keyfiyyətli şəkildə yerinə yetirmirsə, Azərbaycan Respublikasının yuxarıda qeyd olunan qanunlarına uyğun olaraq, aşağıdakı addımları ata bilərsiniz.

Sualınızda qeyd etdiyiniz kimi, təmir şirkəti ilə aranızda imzalanmış müqavilə mövcuddur. Ona görə də ilk əvvəl həmin müqavilənin şərtləri yoxlanılmalıdır. Yəni müqavilədə işlərin yerinə yetirilməsi üçün müddət göstərilibmi, işlərin keyfiyyətinə dair tələblər mövcuddurmu, gecikmə və ya işlərin keyfiyyətsiz görülməsi halında cərimələr nəzərdə tutulubmu?

Daha sonra müqavilə üzrə öhdəliklərini lazımi qaydada icra etmədiyi üçün təmir şirkətinə pretenziya (tələb) göndərilməsi lazımdır. Pretenziyada problemin mahiyyəti (müddətin pozulması, keyfiyyətsiz iş və s.), qüsurların aradan qaldırılması və ya işlərin sizin müəyyənləşdirdiyiniz ağlabatan müddətdə tamamlanması tələbi, habelə Mülki Məcəllə və ya "İstehlakçı hüquqlarının müdafiəsi haqqında" qanuna istinad edilməsi tövsiyə olunandır. Əgər mübahisə son nəticədə məhkəmə müstəvisinə keçərsə, pretenziyanı imzalamaqla onun qarşı tərəfə (təmir şirkətinə) çatdırılması barədə bildirişli məktub formasında göndərilməsi zəruridir. Tələbin daha təsirli və əsaslı olması məqsədilə yaxşı olar ki, pretenziya göndərməzdən əvvəl işlərin keyfiyyətli və ya müqavilə şərtlərinə uyğun yerinə yetirilib-yetirilməməsi ilə bağlı mütəxəssis rəyi əldə edib onu pretenziya məktubuna qoşasınız. Bu məlumatlar işin məhkəmədə həlli zamanı sübuti əhəmiyyətə malik olacaqdır. Əgər təmir şirkəti pretenziya üzrə yol verdiyi çatışmazlıqları aradan qaldırmazsa, o zaman siz şirkətin hüquqi ünvanı olan yerin məhkəməsinə işlərin yerinə yetirilməsində gecikmə, işlərin keyfiyyətsiz yerinə yetirilməsi və keyfiyyətsiz işlər nəticəsində dəymiş zərər barədə tələblə müraciət edə bilərsiniz. Bundan başqa, siz baş vermiş halla bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlakçı Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə müraciət edə bilərsiniz. Bu addım şirkətin istehlakçı hüquqlarını sistematik olaraq pozduğu hallarda daha faydalıdır. Hər iki halda - məhkəmə və ya Antiinhisar və İstehlakçı Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə müraciətə müqavilənin surətini, şirkətlə aranızda olan yazışmaları, işlərin təhvil-təslim aktını (əgər imzalanıbsa), ödənişi təsdiqləyən sənədləri - qəbz və çekləri əlavə etməlisiniz. Qeyd olunanların edilməsi hüquqlarınızın səmərəli müdafiəsi şansını əhəmiyyətli dərəcədə artıracaqdır.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3335**
Sifariş **138**

**Qiyməti 60 qəpik**